

# İlham Əliyev və xanımı ADA-nın yeni korpuslarının açılışında

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər. "Unikal" xəbər verir ki, dövlət başçısı və birinci xanım universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar. ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya...*

Səh.2


# UNİKAL

№29 (2024) 5 sentyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Füzuli Ələkbərov biznesini bir az da böyüdür

## Sabiq nazirin iqtisadi gücü getdikcə artmaqdadır

*Keçmiş Əmək və Əhalinin Sosial müdafiəsi naziri Füzuli Ələkbərov biznesini böyütməkdədir. Ələkbərova məxsus "İmprotex Motors" şirkətinin son illərdə canlanan fəaliyyəti bunu deməyə əsas verir.*

*Xatırladaq ki, Füzuli Ələkbərovun ailə holdinqi - "İmprotex" şirkəti 1991-ci ildə yaranıb. Hazırda bu holdinq daha çox "İmprotex Group" kimi tanınır. İlk vaxtlar şirkət Azərbaycanda və keçmiş sovet respublikalarında yalnız ölkə daxilinə turizm turları təşkil edib. Maraqlıdır ki, bu fəaliyyət az müddət davam edib, sonradan şirkət biznesin müxtəlif sahələrində işə başlayıb. Şirkət sadə turların təşkilatçılığından baş ofisi Bakıda yerləşən, BƏƏ və Çində nümayəndəliyi olan çoxşaxəli bir korporasiyaya qədər inkişaf yolu keçdi. Azərbaycanda ilk özəl avia şirkətin - "İmair"in yaradılması da məhz "İmprotex"in adıyla bağlıdır.*

Səh.7

Səh.3



# Operativ Qərargah qərar verdi: Karantin yumşaldılır

## "Dialoq siyasi qüvvələr arasında səmimi təmaslar tələb edir"



*Bütövlükdə dünya ölkələrini narahat edən koronavirus pandemiyasının yaratdığı narahatlıq azalmaqdadır. Həm dünya, həm də Azərbaycan üzrə yoluxma sayının aşağı düşməsi gərginliyin azalmasına səbəb olub. Ölkədəki mövcud durum, ictimai-siyasi proseslərlə bağlı "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin...*

Səh.4

## Millət vəkili Baş prokurorluğa çağırıldı



*"Bir neçə gün əvvəl AzTv-də çıxışım zamanı Binəqədi prokuroru haqqında kəskin danışmışdım. Dəfələrlə zəng etməyimə baxmayaraq, telefonu qaldırmamış və hörmətsizliyə yol verməmişdi". "Unikal"xəbər verir ki, bunu MCP-nın sədri millət vəkili Razi Nurullayev öz sosial hesabında bildirib:*

Səh.2

## Millət vəkili Prezidentdən Tofiq Yaqublunun əfv olunmasını xahiş etdi



*Dünən Tofiq Yaqubluya 4 il 3 ay azadlıqdan məhrumetmə növündə cəza təyin olundu və o cəzanı ədalətsiz hesab edərək ölüm aclığına başlayıb. Unikal.org xəbər verir ki, BAXCP sədri, millət vəkili Qüdrət Həsənquliyev bu barədə "moderator"a açıqlamasında deyib ki, Tofiq Yaqublu siyasi məsələlər...*

Səh.10

# İlham Əliyev və xanımı ADA-nın yeni korpuslarının açılışında



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər.***

"Unikal" xəbər verir ki, dövlət başçısı və birinci xanım universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni korpuslarda yaradılan şərait barədə məlumat verib. O bildirib ki, yeni korpusların inşası 2016-2019-cu illər ərzində aparılıb. Yeni korpuslarda təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar var. Burada 535 nəfərlik akt zalı, sinif və qrup otaqları, kitabxana, laboratoriyalar müəllim və tələbələrin ixtiyarına veriləcək. Sinif otaqları tərcümə sistemi, smart lövhə və digər zəruri tədris avadanlığı ilə təchiz olunub.

Yeni istifadəyə verilən korpusların birində ADA Universitetinin Dövlət və ictimai münasibətlər, Biznes-iqtisadiyyat fakültələri yerləşir. Burada 1500-ə yaxın tələbə, o cümlədən 45 ölkə vətəndaşı təhsil alır. İndiyədək ADA Universitetində 2000 diplomat və dövlət qulluqçusu təlim keçib.

Yeni inşa olunan digər korpusda isə ADA Universitetinin 2019-cu ildə fəaliyyətə başlayan kollec tipli ADA Məktəbi yerləşir. ADA Məktəbində 500-ə yaxın X və XI sinif şagirdi Azərbaycan və ingilis dillərində təhsil alır.

Dövlətimizin başçısı və birinci xanım ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış oldular. Ümumi ərazisi 4 hektardan artıq olan parkın əsas hissəsi yaşıllıq zonasıdır. Orijinal üslubda yaradılan bu istirahət məkanında təbii ekoloji mühit maksimum qorunub. Burada göllər də yaradılıb.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bu ali təhsil müəssisəsinin gələcək iş planı barədə məlumat verib.

# Millət vəkili Baş prokurorluğa çağırıldı

***"Bir neçə gün əvvəl AzTv-də çıxışım zamanı Binəqədi prokuroru haqqında kəskin danışmışdım. Dəfələrlə zəng etməyimə baxmayaraq, telefonu qaldırmamış və hörmətsizliyə yol verməşdi".***



"Unikal"xəbər verir ki, bunu MCP-nın sədri millət vəkili Razi Nurullayev öz sosial hesabında bildirib:

"Bu gün məlum məsələ ilə bağlı Baş prokurorluğa dəvət edildim və Baş prokurorun birinci müavini hörmətli Elçin Məmmədov ilə görüşdüm.

Milli Məclisin deputatına qarşı edilən sayqısızlıq əsas müzakirə mövzusu oldu və digər məsələlərə də toxunduq. Baş prokuror məsələyə birbaşa özü müdaxilə edib və mən bunu həm Milli Məclisə, həm də Milli Məclisin deputatlarına qarşı sayqı kimi qiymətləndirirəm. Hörmətli Elçin müəllim Baş prokurorluğun müvafiq tədbirlər görəcəyini dedi və bizə də məsələnin sonrakı inkişafını gözləmək qalır".

***Nigar***

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴬ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Azərbaycanda rüşvət alan vəzifəli şəxslər həbs edildi

***Təkmil torpaq bazarının formalaşdırılması və torpaq resurslarından səmərəli istifadə ölkə iqtisadiyyatının və aqrar sektorun dayanıqlılığını şərtləndirən əsas hədəflər sırasında olmaqla bu strateji sahə üzrə münasibətləri tənzimləyən dövlət siyasətində mütərəqqi və sistemli yanaşma tətbiq olunur.***



Baş Prokurorluq və İqtisadiyyat Nazirliyindən "Unikal"a daxil olan birgə məlumatda deyilir ki, bəzi hallarda ayrı-ayrı vəzifəli şəxslər tərəfindən qeyd edilən sahədə vətəndaşlarla dövlət arasında olan nizamlı ictimai münasibətlərə qəsd edən qanunsuz hərəkətlərə də təsadüf olunur ki, belə halların aşkara çıxarılaraq kəsərli təsir tədbirlərinin görülməsi istiqamətində Azərbaycan Respublikasının prokurorluq orqanlarının intensiv fəaliyyəti davam etdirilir.

Belə tədbirlərdən biri kimi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Abşeron ərazi şöbəsinin vəzifəli şəxsləri tərəfindən vətəndaşa məxsus Abşeron rayonu, Mehdiabad kəndində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahəsində aparılmış qanunsuz tikintiyə görə cərimə edilməməsi və gələcəkdə həmin tikintinin sökülməməsi müqabilində ondan 1000 manat məbləğində pul tələb edilməsi barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

İqtisadiyyat Nazirliyinin aidiyyəti qurumu ilə birgə keçirilmiş əməliyyat tədbiri nəticəsində 02 sentyabr 2020-ci il tarixdə Əmlak Məsələləri Dövlət Xidmətinin Abşeron ərazi şöbəsinin rəisi Poladov Anar Tofiq oğlu həmin şöbənin inzibati binasında qabaqcadan əlbir olduğu həmin şöbənin baş məsləhətçisi Səbuhi Rzayevin tələb etdiyi 1000 manat məbləğində rüşvətin 900 manatını vətəndaşdan alarkən cinayət başında yaxalanıb.

Qeyd edilən fakta görə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanaraq istintaqı aparılır.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Anar Poladov və Səbuhi Rzayev Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda təqsirləndirilən şəxslərin fəaliyyətində başqa qanun pozuntularına yol verilib-verilməməsinin araşdırılması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara Baş Prokurorluğun 961 nömrəli "Çağrı Mərkəzi"nə və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə məlumat verilməsini tövsiyə edir.

***Famil***

# President təhsil nazirinin səlahiyyətni artırdı

***Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzalayıb.***

Unikal.org xəbər verir ki, sənədə əsasən Nazirliyin saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

Sənədlə Təhsil nazirinə iki yeni vəzifə verilib. Bunlar aşağıdakılardır:

Nazirliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir; dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir.

# BNA-nın qalmaqallı şöbə müdiri işdən çıxarıldı

***Bakı Nəqliyyat Agentliyinin (BNA) taksi fəaliyyətinin tənzimlənməsi ilə bağlı qalmaqallı açıqlama vermiş şöbə müdiri Hikmət Babayev işdən çıxarılıb.***



Unikal.org report-a istinadən xəbər verir ki, bu barədə BNA-dakı mənbə bildirib.

Xatırladaq ki, ötən gün BNA açıqlama yayaraq H.Babayevin dediklərinin onun şəxsi fikri olduğunu, qurumun mövqeyini əks etdirmədiyini, şöbə müdiri ilə bağlı müvafiq inzibati tədbirlərin həyata keçirildiyini bəyan etmiş, lakin bu tədbirlərin nədən ibarət olduğunu açıqlamamışdı.

# Dövlət qulluğuna qəbul üçün imtahan keçiriləcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən sentyabrın 10-da dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçiriləcək.***

İmtahan Bakı şəhərində təşkil olunacaq. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 382, BB qrupu üzrə 1035, ümumilikdə isə 1417 namizəd qeydiyyatdan keçib.

Bu imtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlayacaq və 3 saat davam edəcək. Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmır. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

İmtahanların keçirilməsi üçün 7 bina, 98 zal, 7 ümumi imtahan rəhbəri, 14 imtahan rəhbəri, 127 nəzarətçi?müəllim, 14 buraxılış rejimi əməkdaşı ayrılıb.

# Prezidentin köməkçisi Gəncədə din xadimləri ilə görüşdü

***Gəncə şəhərindəki İmamzadə dini kompleksində bir qrup din xadimi ilə görüş keçirilib. Görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, ayrı-ayrı regionlardan olan din xadimləri, respublikanın müxtəlif məscidlərinin imamları iştirak edib.***

"Unikal" xəbər verir ki, görüşdə çıxış edən Anar Ələkbərov müstəqillik illərində dövlət-din münasibətlərinin yeni müstəvidə formalaşdığını, Azərbaycanda dövlət səviyyəsində dinə xüsusi diqqət göstərildiyini qeyd edib. Bildirib ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət daim bu sahəyə dəstək göstərir. Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu sahəyə xüsusi diqqət və həssaslıqla yanaşır. Qeyd olunub ki, Azərbaycanda dövlət-din əlaqələri, dinlərarası əlaqələr sağlam zəmin üzərində qurulub. Bu, dövlət siyasətinin əsas icmaların fəaliyyəti üçün şərait yaradıldığı, mövcud problemlərin həlli istiqamətində mühüm addımlar atıldığı bildirilib.

Bu istiqamətdə ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanıb. Fond reallaşdırdığı layihələrlə müxtəlif xalqlar və dinlər arasındakı dostluq, həmrəylik kimi dəyərlərin bərqərar olmasına öz töhfələrini verməkdədir. Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkəmizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılıb. Hazırda isə Heydər Əliyev Fondu tərəfindən Bakının Xəzər rayonunun Binə qəsəbəsində Möhsün Səlim məscidində təmir işləri aparılır, Şamaxı rayonundakı Pirsaat Baba ziyarətgahında yenidənqurma işləri həyata keçirilir, ziyarətgahın ərazisində yeni məscid binası inşa olunur. Həmçinin, Şamaxıdakı Pir Ömər Sultan ziyarətgahında kütləvi tədbirlər keçirilmir. Beynəlxalq təcrübə və ilk növbədə insan həyatının qorunması əsas götürülərək, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən bu ilin mart ayından məscid, kilsə, sinaqoq və ziyarətgahlarda ibadətlər müvəqqəti olaraq dayandırılıb. İnsanların sağlamlığının qorunması baxımından atılmış bu addımın istər din xadimləri, istərsə də əhali tərəfindən anlayışla qəbul olunduğu minnətdarlıqla diqqətə çatdırılıb. Qeyd olunub ki, virus səbəbindən dünya zəvvarlarının, o cümlədən çoxsaylı vətəndaşlarımızın Həcc ziyarəti arzusu baş tutmayıb, Məhərrəmlik ayı ərzində məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməməsi qərara alınıb, eyni zamanda Ramazan və Qurban bayramlarında dini ayin və mərasimlərin keçirilməsi mümkün olmayıb. İnsanlar məscidlərdə bayram namazını birlikdə qıla bilməsə də, televiziya kanallarında müxtəlif məscidlərin imamlarının iştirakı ilə qılınan namaz canlı nümayiş olunub və bu da pandemiya şəraitində insanlar tərəfindən rəğbətlə qarşılanıb.

prioritet istiqamətlərindən biridir. Bu gün dünyanın bir çox ölkəsində dini zəmində zorakılığın, münaqişələrin şahidi olsaq da, Azərbaycan bu baxımdan nümunəvi ölkə kimi seçilir. Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkə olduğu, bütün dinlərin, etnik qrupların nümayəndələrinin bir ailə kimi sülh, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşadığı qeyd olunub.

Bu sahədəki nailiyyətlərimizin dünya birliyində yüksək qiymətləndirildiyi, Bakıda dünya dini liderlərinin birinci və ikinci Sammitlərinin keçirildiyi, 2017-ci ildə Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edildiyi, bütün bu kimi tədbirlərin dini tolerantlıq sahəsindəki uğurlarımızın təzahürü olduğu diqqətə çatdırılıb.

Anar Ələkbərov ölkəmizin demək olar ki, bütün bölgələrində, hər bir rayonunda məscidlərin inşa olunduğunu və ya bərpa edildiyini, yeni məscidlərin açıldılını bildirib. Bütün bunlar bir daha göstərir ki, dövlət siyasətində tarixi keçmişimizin unudulmaması, gələcək nəsillərin milli-mənəvi dəyərlərə daha çox bağlanması mühüm yer tutur. Son illər Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində, İmamzadə dini kompleksində geniş tikinti və yenidənqurma işləri həyata keçirildiyi bildirilib. Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində Prezident İlham Əliyevin tapşırığı ilə Şuşa məscidinin bənzəri olan məscidin tikilməsinin və uzun fasilədən sonra burada azan səsinin ucalmasının əlamətdar hadisə olduğu diqqətə çatdırılıb.

Məscidlərlə yanaşı ölkəmizdə kilsələr, sinaqoqlar təmir edilir. Eyni zamanda Azərbaycanda dövlət qeydiyyatından keçən dini



arxeoloji tədqiqatlar aparılıb və türbənin qorunub saxlanılması məqsədilə konservasiya işlərinin layihələndirilməsi davam edir. Şəki şəhərindəki Xan məscidində təmir-bərpasına başlanılıb, Qəbələ rayonunun Nic kəndində qədim alban kilsəsində yenidənqurma işləri aparılır, İsmayıllı rayonun Lahıc qəsəbəsində "Bədöyün" məscidi əsaslı təmir olunur.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin möhkəmləndirilməsi və dinlərarası dialoqun genişləndirilməsi istiqamətində səyləri vurğulanıb. Bildirilib ki, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xidmətləri dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib.

Anar Ələkbərov COVID-19 pandemiyasının bütün sahələrə, o cümlədən dindarların həyatına da təsirsiz ötüşmədiyini deyib. Qeyd edib ki, yeni növ koronavirusun geniş yayılması səbəbindən hazırda bütün dünyada, o cümlədən ölkəmizdə

Anar Ələkbərov qeyd edib ki, pandemiyanın başlanğıc mərhələsində karantin rejimi və tətbiq olunan bir sıra məhdudiyyətlərin iqtisadi sahədə çətinliklərə yol açacağı proqnozlaşdırılsa da, Prezident İlham Əliyev vətəndaşların sağlamlığının qorunmasını prioritet olaraq müəyyənləşdirib, hökumətin fəaliyyəti də bu strategiya üzərində qurulub. Azərbaycan Prezidentinin köməkçisi ötən dövr ərzində Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahda aparılmış müzakirələr və görülən işlər barədə məlumat verib. Bildirib ki, ötən müddət ərzində xüsusi rejimli xəstəxanalar lazımi avadanlıqla təchiz edilib, təlimlər keçirilərək kadr hazırlığı təmin olunub, əhalinin ehtiyacları qarşılanıb, xaricdəki soydaşlarımızın ölkəyə gətirilməsi təşkil olunub. Qəbul edilən qərarlar və görülən tədbirlər nəticəsində xəstəliyin nəzarət altına alındığı, səhiyyə sisteminin mövcud çağırışa uyğun olaraq qurulduğu qeyd edilib.

Görüşdə din xadimlərinin fikirləri və təklifləri dinlənilib, belə müzakirələrin əhəmiyyəti qeyd olunub. Çıxışçılar dövlət tərəfindən dinə və din xadimlərinə olan diqqəti yüksək dəyərləndiriblər və ölkəmizdə bu sahədə görüləcək işlərə dair müzakirələr aparılıb.

***Hüseyn İsgəndərov***

# Operativ Qərargah qərar verdi: Karantin yumşaldılır

## Rayonlara yollar açılır, qapalı restoranlarda xidmət bərpa olunur

***Nazirlər Kabineti yanında Operativ Qərargah yeni qərar qəbul edib.***

"Unikal" qəzetinin məlumatına görə, qərara əsasən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunan məhdudiyyətlər aradan qaldırılır (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla).

Qərar sentyabrın 8-i saat 00:00-dan qüvvəyə minəcək.

Qeyd edək ki, bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı açıqlamada bildirilib ki, Azərbaycan Respublikasında xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində və vətəndaşların məsuliyyətli davranışı sayəsində koronavirus (COVİD -19) infeksiyasının yayılması məhdudlaşdırılmış, yoluxma hallarının sayında azalmaya nail olunub:

"Avqustun 5-dən başlayaraq sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi məh-



dudiyyətlər aradan qaldırılmış və yumşalmalar təmin edilmişdir.

Sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il sentyabrın 8-i saat 00:00-dan aşağıdakı sahələr üzrə əlavə yumşalma tədbirlərinin həyata keçirilməsi qərara alınmışdır:

- Müvafiq karantin qaydalarına riayət olunmaqla və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" 2020-ci il 6 iyul tarixli 237 nömrəli qərarına uyğun olaraq saat 00:00-a qədər ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verilir;

- Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırılır (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla).

Mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək və virusa yeni yoluxma hallarına yol verməmək üçün bir daha hamını tətbiq olunmuş karantin rejiminin tələblərinə, tibbi-profilaktik qaydalara əməl etməyə çağırırıq".



# Zakir Həsənov Rusiyaya getdi

***Azərbaycanın müdafiə naziri general polkovnik Zakir Həsənov Rusiya paytaxtına səfərə gəlib .***

Unikal.org-un verdiyi məlumata görə, səfərin məqsədi MDB və Şanxay əməkdaşlıq təşkilatı müdafiə nazirləri Şurasının iclasında iştirak etməkdir.

Sentyabrın 5-də isə Azərbaycan müdafiə naziri "Tank biatlonu" Ordu İdman oyunlarının final mərhələsini izləyəcək.

Qeyd edək ki, MDB və Şanxay əməkdaşlıq təşkilatı müdafiə nazirləri Şurasının iclası Moskva vilayətinin Kubinka rayonunda yerləşən "Park Patriot" mərkəzində baş tutacaq. Eyni gündə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müdafiə nazirləri Şurasının iclası keçiriləcək.

# Vilayət Eyvazov onu bölmə rəisi təyin etdi

***Daxili İşlər orqanlarında yeni təyinat olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, polis baş leytenantı Azad Vəkilov Ağstafa Rayon Polis Şöbəsinin Köçvəlili Polis Bölməsinin rəisi vəzifəsinə təyin olunub. Xatırladaq ki, bir müddət əvvəl Ağstafa Rayon Polis Şöbəsinin (RPŞ) bütün rəhbər heyəti tutduqları vəzifələrdən azad edilmişdilər.

***Murad İbrahimli***

# Elçin Rzayev onu özünə köməkçi təyin etdi

***İmişli Rayon İcra Hakimiyyətində növbəti kadr dəyişikliyi olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayevin müvafiq əmri ilə, Şamil Rzayev başçının köməkçisi təyin edilib.

Qeyd edək ki, 21 may 2020-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Rzayev Elçin Adil oğlu İmişli rayon İcra Hakimiyyətinin başçısı təyin olunub.

***Famil***

# Yaxın 4 ildə Azərbaycanda inflyasiya nə qədər olacaq? - PROQNOZ

***Növbəti dörd il (2021-2024-cü illər) ərzində Azərbaycanda istehlak qiymətləri indeksi orta hesabla 2,8% artacağı proqnozlaşdırılır.***

"Unikal" bu barədə Maliyyə Nazirliyinin Azərbaycanın 2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasına istinadən xəbər verir. Proqnozlara əsasən, ölkədə 2021-ci ildə inflyasiya 3%, 2022-ci ildə - 2,8%, 2023-cü ildə - 2,8%, 2024-cü ildə isə 2,7% təşkil edəcək.

# "Dialoq siyasi qüvvələr arasında səmimi təmaslar tələb edir"

## Həsrət Rüstəmov: "Hakimiyyətlə açıq təmaslar vacibdir və bunu cəmiyyətə günah və ya qüsur kimi təqdim etmək siyasi biliklərin zəifliyindən xəbər verir"



***Bütövlükdə dünya ölkələrini narahat edən koronavirus pandemiyasının yaratdığı narahatlıq azalmaqdadır. Həm dünya, həm də Azərbaycan üzrə yoluxma sayının aşağı düşməsi gərginliyin azalmasına səbəb olub. Ölkədəki mövcud durum, ictimai-siyasi proseslərlə bağlı "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin müavini Həsrət Rüstəmov öncə koronavirus pandemiyası ilə bağlı suallarımızı cavablandırdı.***

***-Həsrət bəy, koronavirus pandemiyası həm dünyada, həm də Azərbaycanda müəyyən mənada yüngülləşməkdədir. Bir həkim kimi bu prosesi necə dəyərləndirirsiniz? Qarşıdakı dövrdə gözləntiniz nədir?***

- Əslində bəzi ölkələrdə vəziyyət hələ də mürəkkəb olaraq qalır, amma yeni növ koronavirus infeksiyasına yoluxma və bu xəstəlikdən həyatını itirənlərin ümumi sayının azalması tendensiyası var. Bu əlbəttə ilk növbədə dünyada həyata keçirilmiş sərt karantin tədbirləri və şəxsi gigiyena ilə əlaqəli təbliğatın geniş tətbiqi ilə bilavasitə bağlıdır. Təcrübə göstərdi ki, virus infeksiyalarının insanlığı təhdidi etməməsi üçün hamının ümumi gigeyenik qaydalara, təmizliyə və ətraf mühitə diqqətlə yanaşması lazımdır. Azərbaycanda da bəzi yanlışları nəzərə almaqla ümumilikdə vəziyyət kafi idarə olundu. Bir çox ölkələrlə müqayisə etsək bizdəki xəstələnmə hallarının və nəticələrinin idarə edilməsini qənaətbəxş hesab etmək olar. Amma əlbəttə ki, səhvlər də var idi, bu gün də bəzi yanlışlar davam edir. Xüsusilə də qərarların qəbul olunmasında və yeri gəldikcə zəruri düzəlişlərin edilməsində ləngilik hiss edilir. Bəzən lazımsız ifratçılıq, bəzən isə yaxşı düşünülməmiş qərarlar verilir. Başqa sözlə desək operativ qərargahın həqiqətən də operativ olması lazımdır. Qarşıdakı dövrdə bizi və ümumiyyətlə dünyanı bu baxımdan nə gözləyir, sualına isə bu gün heç yerdə dəqiq cavabın olmadığını düşünürəm. Bir qrup tədqiqatçılar payız aylarında virusun daha da aqressiv yayılacağını təxmin etdikləri halda, digərləri xüsusi bir yüksəlişin olmayacağını və ilin sonuna doğru vəziyyətin tamamilə normallaşmağa imkan verəcəyini proqnozlaşdırırlar. Mənim təxminlərim də belədir ki, fərdi qorunma tədbirlərinə hamı diqqətlə yanaşsa və xəstəlik hallarının idarəedilməsi prosesi bir qədər də mükəmməl işləsə covid-19 virusuna yoluxma getdikcə aradan qalxacaq. Ona görə də proqnozların necə olmasından asılı olmayaraq ehtiyat tədbirlərinin davam etdirilməsini zəruri hesab edirəm.

***-Karantin dövründə dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz? Hansı müsbət nəticələr oldu?***

- Bu barədə əlavə olaraq onu deyə bilərəm ki, statistik göstəricilər, dünya ölkələri ilə müqayisədə araşdırma bizdəki vəziyyətin yaxşı olduğu qənaətini yaradır. Təbii ki, bu dövlət büdcəsindən ayrılmış ciddi vəsaitlərin hesabına və tibb heyətimizin, həkimlərimizin ciddi əməyi nəticəsində əldə edilmiş nəticədir.Amma ümumiyyətlə, götürdükdə hökumətin pandemiyanın başlanğıcında bir qədər gecikməsi, sonra isə yumşalma tədbirlərinə vaxtından əvvəl başlaması ilə xəstələnmə hallarının böyük sürətlə artması və s. kimi pis idarəetməyə çoxlu misallar gətirmək olar. Bu sıraya həmçinin səhiyyə sisteminin ciddi hadisələrə hazırlıqsız olması, islahatların illərlə süründürülməsi, ictimai rəyin öyrənilməməsi və nəticələrin idarəetmədə nəzərə alınmaması kimi ümumi və ciddi qüsurları əlavə etmək olar. Amma müsbət hallar da var ki, onlardan birincisi xəstələnmə hallarının nəzarət altına alınmasıdır. Yəni ölkəmizdə covid-19 xəstələnmə hallarının azalması, ağır xəstələrin sayının və ölüm hallarının azalması yaxşı haldır. Bu nailiyyətdir və qazanılmasında xalqımızın, səhiyyə işçilərinin və əlaqədar strukturların böyük zəhməti var. Bir çox hallarda dövlətin vətəndaşlara real dəstəyini görmək olduqca müsbət hisslər yaradır. Amma bu dəstək davamlı və lazımi səviyyədə olmalıdır. Yeri gəlmişkən pandemiyada ailə başçısını itirmiş ailələrə, rəhmətə getmiş tibb işçilərinin ailələrinə dövlətin ciddi qayğısı olmalıdır. İş yerlərinin bağlanma təklükəsini aradan qaldırmaq üçün ciddi işləmək lazımdır. Pandemiyanın qurtarmasını gözləmədən onun cəmiyyətə vurduğu yaraları sağaltmağa başlamaq lazımdır.

***-Sizcə, pandemiya dönəmində siyasi qüvvələr necə davranmalıdır?***

-Pandemiya dövrünün xüsusi siyasi münasibətləri haqqında danışmaq məncə doğru deyil. Sadəcə olaraq hamı dünyadakı vəziyyəti nəzərə alaraq elə hərəkət etməlidir ki, qrup maraqlarına görə xalqa və dövlətə zərər dəyməsin. Eyni zamanda hakimiyyət də zəruri məhdudiyyətlərdən siyasi məqsədləri üçün istifadəyə cəhd etməməlidir və mümkün olduqca siyasi hüquqlardan vətəndaşların yararlanmasına şərait yaratmalıdır. Vətəndaşlar isə mövcud dövrün tələblərini gözləməklə siyasi fəallıqdan geri durmamalı, əksinə daha diqqətli və çevik olmalıdırlar.

***-Son dövrlər hakimiyyət tərəfindən müəyyən addımlar atılır. Siyasi partiyalar, QHT-lər, media nümayəndələri ilə görüşlər keçirilir. ADP hər zaman dialoq tərəfdarı olub.Hazırkı dialoq təmaslarını necə dəyərləndirirsiniz? Hansı nəticələr gözləyirsiniz?***

-Bu təmasları dialoq kimi dəyərləndirmək qeyri mümkündür. Bunlar sadəcə hakimiyyətin siyasi qüvvələrə münasibətinin nisbətən dəyişmək istəməsi kimi dəyərləndirilə bilər. Siyasi dialoq isə ölkənin taleyüklü məsələləri ilə bağlı siyasi qüvvələr arasında müzakirə və təmasları tələb edir. Görünən budur ki, bu indiki halda qeyri-mümkündür və bunun üçün idarəetmə təfəkkürü tamamilə dəyişməlidir.

***-Bir məsələ də var ki, bəzi müxalifət qüvvələri bu təmasları normal qəbul etmir. Eləcə də Sizləri hakimiyyətlə işbirliyində olmaqda suçlayırlar. Onların bu iddialarında hansısa əsaslı məqam varmı?***

-Hakimiyyətlə açıq təmaslar vacibdir və bunu cəmiyyətə günah və ya qüsur kimi təqdim etmək siyasi biliklərin zəifliyindən xəbər verir. Hərçənd ki, bizim səsləndirdiyimiz ideyaları zaman keçdikcə çoxları səsləndirir və qəbul edir. Bu da onu göstərir ki, ittiham edənlər yanlış yolda olublar. Sadəcə olaraq siyasi qüvvələrin siyasi düşüncələri və strategiyaları aşkar olmalıdır.Cəmiyyət bilməlidir ki, hansı siyasi qrup nə istəyir, nəyə hazırlaşır və s. Beləliklə də cəmiyyətdən alınmış dəstəklə proseslər irəli getməlidir. Və ya əksinə.

***-Həsrət bəy, Qarabağ münaqişəsinin həlli istiqmətində də yeni proseslər başlayıb. Türkiyənin bu prosesə cəlb olunması, hərbiçilərinin Azərbayaca səfəri və digər məqamlar məsələyə fərqli rəng qatıb. Mövcud durumla bağlı nə deyə bilərsiniz?***

-Türkiyənin bölgədə yeni rol alması və fəallaşması çox müsbət haldır və bu yerləşdiyimiz bölgədə proseslərin bizim xeyrimizə dəyişməsinə səbəb olacaq. O cümlədən də Türkiyə ilə hərbi əməkdaşlıq Azərbaycan üçün olduqca zəruridir. Biz dəfələrlə tələb etmişdik ki, Azərbaycan Türkiyə ilə sıx hərbi ittifaq yaratmalıdır. Türkiyə Xəzərdən başlayaraq Aralıq dənizinə, Avropaya gedən enerji və ticarət koridorunda ən önəmli ölkədir və bu regionun təhlükəsizliyini üzərinə götürə bilən yeganə ölkədir. Ona görə də qardaş ölkənin Qafqazda hərbi mövcudluğu bizi yalnız sevindirməlidir. Azərbaycanın təcavüz altında olan ərazilərinin azad olunmasına da bu addım çox böyük təsir edəcək. Çünki, regionda təhlükəsizlik üçün ilk növbədə Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulması əsas şərtdir. Bu işdə Türkiyə ilə hərbi müttəfiqliyimizə çox böyük ümidlərimiz var.

***-O fikirlər də səslənir ki, münaqişənin Rusiyanın razılığı olmadan həlli mümkün deyil. Ancaq Rusiyanı düşmənçilikdə ittiham edənlər də var. Sizcə, Azərbaycan hansı mövqedə dayanmalıdır?***

-Bu fikirləri xüsusi tonla və Azərbaycan xalqına təhdid kimi səsləndirmək, xalqımıza və eyni zamanda Türkiyəyə hədə-qorxu gəlməyə oxşayır. Bunu bir azərbaycanlının etməsi heç cür anlaşılan deyil. Rusiya əlbəttə ki, regionda marağı olan böyük dövlətdir. Amma onun rolu təəssüf ki, pozitiv deyil və təkcə burada deyil, bütün post-sovet məkanında məhəlli münaqişələri yaratmaq və konservləşdirməklə məşğuldur. Bəyəm bu fikri irəli sürənlər bilmir ki, Qarabağ münaqişəsini Rusiya yaradıb. Necə bu ölkənin razılığını ala bilərik? Digər ərazilərimizi və ya suverenliyimizi ona təslim etməklə?! Çox ağrılı məsələdir, amma təəssüf ki, hələ də bolşevik kimi Moskvaya boylanan çoxlu siyasi personalarımız var. Cəmiyyəti Rusiya ilə qorxutmaq lazım deyil. Biz Rusiya ilə və heç kimlə döyüşmək istəmirik. Biz ərazimizi işğaldan azad etmək istəyirik və bunu mütləq etməliyik.

***-Qarabağ münaqişəsinin müharibə yolu ilə həllinin labüd olduğu mövqeyi artıq qətiləşib. Siz, bu mövqeni bölüşürsüzmü, yaxud səbəbini izah edə bilərsizmi?***

-Bəli, Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq öz ərazi bütövlüyünü nəhayət ki, bərpa etməlidir!

***Z.Məmmədli***

# Füzuli Ələkbərov biznesini bir az da böyüdür

## Sabiq nazirin iqtisadi gücü getdikcə artmaqdadır

***Keçmiş Əmək və Əhalinin Sosial müdafiəsi naziri Füzuli Ələkbərov biznesini böyütməkdədir. Ələkbərova məxsus "İmprotex Motors" şirkətinin son illərdə canlanan fəaliyyəti bunu deməyə əsas verir.***

Xatırladaq ki, Füzuli Ələkbərovun ailə holdinqi - "İmprotex" şirkəti 1991-ci ildə yaranıb. Hazırda bu holdinq daha çox "İmprotex Group" kimi tanınır. İlk vaxtlar şirkət Azərbaycanda və keçmiş sovet respublikalarında yalnız ölkə daxilinə turizm turları təşkil edib. Maraqlıdır ki, bu fəaliyyət az müddət davam edib, sonradan şirkət biznesin müxtəlif sahələrində işə başlayıb. Şirkət sadə turların təşkilatçılığından baş ofisi Bakıda yerləşən, BƏƏ və Çində nümayəndəliyi olan çoxşaxəli bir korporasiyaya qədər inkişaf yolu keçdi. Azərbaycanda ilk özəl avia şirkətin - "İmair"in yaradılması da məhz "İmprotex"in adıyla bağlıdır.

Ələkbərov nazir postunu tutduqdan sonra "İmprotex" Şirkətlər Qrupu Azərbaycanın özəl sektorunda aparıcı mövqelərindən birinə sahibləndi. Şirkət dünyanın ən məşhur şirkətləri ilə əməkdaşlıq edir, bir sıra xarici dövlətlərdə nümayəndəliyini yaratmağa, tanınmış brendlərin Azərbaycan bazarına gətirilməsinə başladı.



Lakin 2013-cü ilin yanvarında baş verən məlum İsmayıllı hadisələri Ələkbərovun siyasi karyerasına son qoymaqla yanaşı, onun biznesinə də ağır zərbə vurdu. Keçmiş nazirin holdinqi özəl sektordakı mövqelərini əhəmiyyətli şəkildə itirdi. Xüsusilə ona biznes rəqibi olan müəyyən oliqarxlar Füzuli Ələkbərovun "vurulmasını" biznesinin də zəifədilməsi üçün fürsətə çevirdilər. Bununla belə, təxminən son üç ildə keçmiş nazir xüsusilə "İmprotex Motors" xətti ilə öz iqtisadi gücünü yenidən artırmaqdadır. 1998-ci ildə yaradılan və əsas fəaliyyəti premium sinfi avtomobilləri ilə bağlı olan bu şirkət artıq BMW, BMW Motorrad, MINI, Rolls-Royce və Yamaha kimi məşhur, eyni zamanda bahalı markaların Azərbaycanda rəsmi və eksklüziv idxalçısıdır. Ümumi sahəsi 1.3 hektar təşkil edən ərazidə BMW konserninin bütün yeni korporativ standartlarına tam cavab verən 11 avtomobil yerləşən satış-sərgi salonu, böyük servis mərkəzi və onlarla avtomobil tutumu olan dayanacaq yeri var. ""İmprotex Motors" şirkəti BMW konserninin dünya bazarına çıxardığı hər bir yeni modelini qısa müddətdə Azərbaycan avtomobil bazarında təqdim edir. Bundan başqa, yeni modellərin təqdimatı möhtəşəm ziyafət mərasimi ilə müşayiət olunur" - sözügedən şirkətin rəsmi saytında bildirilir.

Ələkbərovun Azərbaycana gətirdiyi brend avtomobillərin qiyməti göz qamaşdırır. Onların dəyəri 150-200 min manatdan başlayır, hətta bəzi özəl modellərin dəyəri 1 milyon manatı belə aşır. Bu isə belə deməyə əsas verir ki, sabiq nazirin müştəriləri əsasən imkanlı, varlı məmurlar və iş adamlarıdır.

Ötən ayın əvvəllərində F.Ələkbərova məxsus şirkət bazardakı mövqelərini bir az da gücləndirib. Belə ki, "İmprotex Motors" tam elektrik ekoloji cəhətdən təmiz və futuristik yeni BMW i3 avtomobilini Azərbaycanda təqdim edib.

Bildirildiyinə görə, avqustun 7-dən etibarən müştərilər daha yüksək enerji sıxlığı olan litium-ion hüceyrələrindən ibarət olan 94 A/s batareyası və 33 kVt/s enerji ehtiyatı olan, 170 a.g. və 250 Nm mühərrikli BMW i3 versiyasını sifariş edə biləcəklər. Pis hava şəraitində və ya kondisioner və istilik sistemləri işə salındıqda gündəlik istifadədə olsa da, yenilənmiş BMW i3 bir tam enerji yığımına ən az 200 km məsafə qət edə bilər.

BMW i3 100 km/s sürətini cəmi 7.3 saniyəyə sürətlənir. Yenilənmiş BMW i3 öz seqmentində 12,6 kvt/100 km enerji sərfiyyatı olan ən idman tərzli və effektiv elektromobildir. Yenilənmiş BMW i3 80-dən 120 km/s-ə qədər yalnız 5,1 saniyə ərzində sürətlənməyə qadirdir və əmin ötmələri həyata keçirməyə imkan verir. Əvvəllər bu cür sürətlənmə vaxtını yalnız daxili yanma mühərrikləri olan avtomobilləri nümayiş etdirə bilərdilər.BMW i3 öz seqmentində yeni oriyentirlər təyin edir və özündə inanılmaz effektivliklə bütün BMW avtomobillərinə xas olan və yalnız elektrik enerjisi ilə 300 km-də gediş ehtiyatını sürücülük zövqü ilə birləşdirir.

BMW i3 enerji işlətməsi təkmilləşdirilmiş detalların sayəsində əhəmiyyətli dərəcədə azaldılıb, o cümlədən elektrik mühərrikin idarəetmə sistemi və aşağı müqavimət göstərən ən yeni şinlər, NEDC testlərinə görə, yenilənmiş BMW i3 100 kilometrə cəmi 12,6 kVt/saat sərf edir və öz seqmentindəki bütün rəqiblərdən daha effektivdir. BMW i3 50 kvt gücündə daimi cərəyanla doldurulma imkanına malikdir. Daimi cərəyanla tez doldurulması üçün uyğunlaşdırılmış müasir enerji doldurma stansiyaları BMW i3 batareyasını 40 dəqiqədən az müddətdə 80% -ə qədər doldurur.Əlavə olaraq baza komplektasiyasında BMW i3 sahibləri kameralı və Stop&Go funksiyalı kruiz-kontrol,tıxaclarda hərəkət zamanı kömək, sürət məhdudiyyəti haqqında məlumat, şəhərdə avtomatik dayanma funksiyası olan qəza hallarının və piyadaların vurmasının qarşısının alınması sistemi, eləcə də yollarda intellektual yardım sistemi olan Driving Assistant Plus paketini əldə edirlər.

BMW i3-in zəngin baza avadanlıqlarına iDrive əməliyyat sistemi, çoxfunksiyalı BMW iRemoteApp, köməkçi qızdırıcı, sürücülük rejimini dəyişdirmə, radio Professional, kondisioner, dəri sükan, LED gündüz işıqlar, arxa bamper sensorları ilə park etmə sistemi Park Distance Control daxildir, həmçinin adi rozetkaya qoşulmaq üçün doldurma kabeli daxildir.BMW i3 avtomobilləri ilə A. Salamzadə 33 ünvanda yerləşən "İmprotex Motors" (əlaqə: 050-207-17-60 /050-207-17-80 / 050-207-17-90) və ya Ə. Əlizadə 5 ünvanında yerləşən "İmprotex Motors Exclusive" də (əlaqə: 050-250-17-70)salonunda tanış olmaq mümkündür. Bu modelin alıcıları sürətli enerji yığma cihazını hədiyyə olaraq alacaqlar. Artıq bu ildən etibarən brend həvəskarları həmçinin Hibrid modellərini də əldə edə bilərlər.

Qeyd edək ki, BMW 4 il (və ya 200.000 km) tam zavod zəmanəti verən Azərbaycanda yeganə avtomobil brendidir. Əlavə olaraq BMW i markalı avtomobillərin batareyaları üçün 8 il (və ya 100 min km.), hibrid avtomobillərinin batareyaları üçün isə 6 il (və ya 100 min km) ayrıca zavod zəmanəti təqdim edilir.

Bundan başqa, Ələkbərova məxsus "İmprotex Motors"un yeni avadanlıqlarla təchiz olunan və bütün müasir standartlara tam cavab verən sərgi-satış salonu və servis mərkəzinin sayı 3-ə çatıb.

Görünən odur ki, qalmaqallı şəkildə "vurulan" keçmiş iri məmurların əksəriyyəti ilə müqayisədə Ələkbərov Azərbaycandakı biznesini müəyyən müddət davam edən durğunluqdan çıxara bilib. Daha da dəqiqləşdirsək, gedişat bir sıra eks həmkarı ilə müqayisədə sabiq Əmək və Əhalinin Sosial müdafiəsi naziri bir zamanlarkı iqtisadi gücünü bərpa etmək istiqamətində sürətlə irəlilədiyini göstərir...

***Sənan Mirzə***



# Rusiyanın Ermənistana yeni silahlar göndərdiyi təsdiqləndi

***Rusiyanın ermənipərəst mövqeyi ilə fərqlənən "Regnum" informasiya agentliyi 4 sentyabr tarixli "Dağlıq Qarabağın yeni ümidləri" adlı məqaləsində Rusiya tərəfindən Ermənistana yeni silahlar göndərildiyini təsdiq edib.***

Yeni Azərbaycan Partiyasının mətbuat xidmətindən verilən məlumatda qeyd edilib ki, ənənəsinə uyğun olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, mahiyyəti və nizama salınması ilə əlaqədar real faktları ən kobud şəkildə təhrif etməkdən çəkinməyən agentlik 2020-ci ilin iyul ayında Azərbaycanın Tovuz rayonu istiqamətində erməni silahlı qüvvələrinin təxribatı sayəsində başlayan döyüşlərin həqiqi səbəblərini tamamilə yanlış və açıq qərəzli şəkildə təqdim etməyi də unutmayıb.

Məlumatda bildirilir ki, diqqəti çəkən məqam sözügedən agentlik iyul döyüşlərindən sonrakı vəziyyəti "Bakının Ermənistana yeni Rusiya silahlarının göndərilməsinə sərt və acıqlı reaksiyası" kimi qiymətləndirməklə, əslində, iyul döyüşlərinin ardınca Rusiyanın təcavüzkar Ermənistanı silahlandırdığını təsdiq etmiş olmasıdır.

# Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin iclası keçirildi

***Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin iclası keçirilib.***

Bu barədə "Unikal"a Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məlumat verib.

Onun sözlərinə görə, iclasda AŞPA-nın bu ay keçiriləcək komitə iclaslarının və Daimi komitənin gündəlikləri ətrafında geniş fikir mübadiləsi aparılıb:

"Gələn həftədən etibarən AŞPA-nın bütün komitələrinin iclası keçiriləcək. Sentyabrın 15-də isə Daimi komitənin iclası baş tutacaq. Bu iclas canlı şəkildə keçirilməli idi. Ancaq pandemiya yenə də iclasın keçirilməsi qaydasına dəyişiklik gətirib. Qərara alınıb ki, AŞPA-nın sentyabr iclasları onlayn qaydada keçirilsin. Oktyabr sessiyası ilə bağlı qərar isə hələ qəbul edilməyib. Böyük ehtimalla oktyabr sessiyası onlayn qaydada baş tutacaq və ya tarixi dəyişdiriləcək. Ancaq buna baxmayaraq nümayəndə heyətimiz iclaslara qatılmaqla bağlı bütün hazırlıq mərhələlərindən keçib".

***Nigar***

# Novruz Məmmədovdan "Ramiz Mehdiyev olayı"na reaksiya



***"Son günlər baş verənlər barədə danışmaq istəmirəm". Bunu Modern.az-a sabiq Baş nazir, Azərbaycan Dillər Universitetinin prorektoru Novruz Məmmədov AMEA-nın prezidenti Ramiz Mehdiyevin nəvəsinin toyundan sonra baş verənlərə münasibət bildirərkən deyib.***

Novruz Məmmədov məlum hadisələr barədə susmağı üstün tutub.

Xatırladaq ki, AMEA-nın prezidenti Ramiz Mehdiyevin kürəkəni, sabiq deputat İlham Əliyev bir müddət öncə ölkədə davam edən karantin qaydalarını pozaraq qızına toy edib. Məlum toya bəzi tanınmış ictimai-siyasi simaların da qatılması cəmiyyətdə narazılıqlara səbəb olub. Toy sahibi də başda olmaqla, mərasimdə iştirak edənlər inzibati məsuliyyətə cəlb ediləərək cərimələniblər.

AMEA prezidenti Ramiz Mehdiyev isə öz ünvanına səslənən fikirlərə cavab olaraq akademiyanın saytında ard-arda dörd geniş materialla çıxış edib.

# Qənirə Paşayeva Baş nazirdən nə istədi...

***Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuş görkəmli sənətkar Anatollu Qəniyevin (10.02.1931, Neftçala - 01.10.1985, Bakı) adının əbədiləşdirilməsi ilə bağlı bir qrup ziyalı və mərhumun oğlu, Xalq artisti Heydər Anatollu Milli Məclisin Mədəniyyət komitəsinə müraciət edib.***

Müraciətdə Neftçala şəhər Uşaq İncəsənət Məktəbinə onun adının verilməsi təklifi öz əksini tapıb.

Bununla əlqədar olaraq, Mədəniyyət Komitəsi adından Baş nazir Əli Əsədova və Mədəniyyət nazirinin I müavini, Mədəniyyət naziri səlahiyyətlərinin icraçısı Anar Kərimova rəsmi məktubla müraciət edilib.

Bu barədə Modern.az-a Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib.

"Bəstəkar mahnılarının mahir ifaçısı, estrada janrında özünəməxsus dəsti-xətti olan Anatolu Qəniyevin adının əbədiləşdirilməsinin, onun sənət yolunun davam və inkişaf etdirilməsi, gənc nəslin mədəni irsə sahiblənməsi baxımından çox faydalı olacağına inanımızı ifadə etdik. Bu ilin oktyabr ayında Anatolu Qəniyevin vəfatının 35-ci, gələn ilin fevralında isə doğumunun 90-cı ildönümü olacağını, habelə musiqi mədəniyyətimizin inkişafındakı özünəməxsus xidmətlərini nəzərə alsaq, adının əbədiləşdirilməsinin sənətə, sənətkara vəfa borcu kimi xüsusi önəm daşıyacağını bildirdik. İnanıram ki, rayon ziyalılarının və Mədəniyyət komitəsi olaraq bizim müraciətimizi nəzərə alaraq müvafiq qurumlarımız yaxın zamanlarda bu məsələyə baxacaq və Neftçala şəhər Uşaq İncəsənət Məktəbinə Anatollu Qəniyevin adı veriləcək. Bu" gələn ilin fevral ayında anadan olmasının 90-cı il dönümündə dəyərli sənətkarımızın ruhunu şad edəcək ən gözəl addım olardı".

# 12 icra məmuru cəzalandırılıb

***İcra xidmətində vətəndaşlara qarşı laqeyd münasibət göstərən, kobudluq edən icra məmurları ilə bağlı ölçü götürülür. Təkcə 2020-ci ilin yarım ili ərzində narazılıq yaranan 12 icra məmuru ilə bağlı qanunauyğun olaraq, müvafiq tədbirlər görülüb.***

"Unikal"ın məlumatına görə, bunu Ədliyyə Nazirliyi İcra baş idarəsinin rəis müavini (rəis vəzifəsini icra edən) Fərid Əfəndiyev bildirib.

F.Əfəndiyev qeyd edib ki, məsələ ilə bağlı nizam-inziam nümayilş etdirməyən icra məmurları ilə bağlı mübarizə tədbirləri davam etdirilir.

# Korrupsionerlərə "Vilyam Hacıyev dərsi..."

## Sabiq icra başçısının həbs müddətinin uzadılmasındakı sirr: kiməsə bel bağlamağın mənası yoxdur!

***"Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaq..." - bu sözləri İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyev barəsində həbs qətimkan tədbiri seçildikdən sonra məhkəmə qarşısında yaxınlarına xitabla demişdi. Həmin vaxt bu KİV-də və ictimai rəydə kimlərə və yaxud nələrəsə arxayınlığı kimi yozulmuşdu. Belə güman edilirdi ki, V.Hacıyev həbsdə çox qalmayacağına inanır və bu zaman naməlum himayədarına, yaxud himayədarlarına ümid edir. Əslində sabiq icra başçısının bu ümidi ilk dəfə mayın 15-də apellyasiya şikayətinə baxıldıqdan sonra "ölmüşdü". Onun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə qərarından verilən şikayət rədd edilmişdi. Bu həftə isə Səbail Rayon Məhkəməsində İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyevin barəsində seçilmiş həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanının verdiyi təqdimata baxıldı. Hakim Mədinə Bağırovanın sədrliyi ilə keçirilən prosesdə istintaq orqanının təqdimatı təmin edilib və Hacıyevin həbs müddəti uzadılıb.***



Qeyd edək ki, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyevin icra hakimiyyətinin sərəncamında olan vəsaitlərin sosial yardım adı altında bir hissəsini ələ keçirilməsini, eləcə də ölkə ərazisində xüsusi karantin rejiminin tələblərinin pozulması ilə sərbəst hərəkət etmək üçün bəzi vətəndaşlara saxta arayışların verilməsini tapşırmasına, vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə mənimsənilən pul vəsaitlərini sahibliyində olan yaşayış evində qəbul etdiyinə əsaslı şübhələr müəyyən olunub.

2020-ci il mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Vilyam Hacıyevin xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir. Müvafiq ünvanlarda keçirilmiş baxış zamanı Vilyam Hacıyevin rayon icra hakimiyyətinin baş mühasibi Cəmil Musayev və başqaları vasitəsi ilə qəbul etdiyi pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, habelə ayrı-ayrı valyutalarda xüsusi qaydada qablaşdırılaraq saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülüb.

İstintaq araşdırmaları zamanı, sosial-məişət şəraitinin aşağı olması ilə bağlı mənzil növbəsində olan şəxslərə İmişli şəhərində dövlət büdcəsi vəsaiti hesabına inşa edilmiş çoxmənzilli yaşayış binasında növbəli qaydada verilməli olan mənzillərin Vilyam Hacıyev tərəfindən rüşvət müqabilində qanunazidd verilməsinə əsaslı şübhələr müəyyən edilib.

Eyni zamanda, işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Vilyam Hacıyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə edilib.

Həmçinin Vilyam Hacıyevin rayon ərazisində təmir-tikinti, abadlıq işlərinə, habelə İmişli Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının tikintisinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin müntəzəm nağdlaşdıraraq mənimsəməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Vilyam Hacıyevin tabeçiliyində olan vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına dair məlumatlar əldə edilib.

İstintaq orqanı tərəfindən Vilyam Hacıyevin barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda), 311.3.3-cü (rüşvət alma (passiv rüşvətxorluq), külli miqdarda törədildikdə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan olunub.Səbail Rayon Məhkəməsində V.Hacıyev barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Bu həftə həmin müddət tamam olduğundan sabiq icra başçısının həbsi yenidən uzadılıb.

Beləliklə, azadlığa çıxmaqla bağlı V.Hacıyevin ümidləri ikinci dəfə "suya düşmüş olub". Eyni zamanda bir daha təsdiqləndi ki, rüşvət və korrupsiyaya bulaşan yüksək vəzifəlilərin hansısa vasitələrlə qısa zamanda "sudan quru çıxacaqlarına" ümid etmələri, azadlıqlarına qovuşacaqlarına inam bəsləmələri mənasızdır.

Ölkə başçısı da son vaxtlar bir sıra çıxışlarında vurğulayıb ki, hansısa məmur kimlərəsə arxayın olub, arxalanıb özünü toxunulmaz hesab edirsə yanılır. Dövlət rəhbəri, eyni zamanda, korrupsiyaya bulaşmış heç bir məmurun toxunulmaz olmadığını da bəyan etmişdi. V.Hacıyevin timsalında bu deyilənlər növbəti dəfə təsdiqləndi. Bir daha məlum oldu ki, heç bir korrupsioner, rüşvətxor məmur qanunsuz əməllərini müxtəlif yollarla, vasitələrlə, yaxud vasitəçilərlə pərdələyəcəyinə bel bağlayır, cəzasız qalacağına, cəzadan qurtulacağına inanırsa kökündən yanılır.

Necə deyərlər, artıq dəmlər o dəmlər deyil...

***Orxan Həsənli***

# Bakıdakı supermarketlərin "super" biabırçılıqları...

## İri şəbəkələrdə istehlakçı hüquqlarının tapdanması adi hala çevrilib, aidiyyatı qurumların hərəkətə keçməsi qaçılmazdır

***Son vaxtlar sosial şəbəkələr və KİV səhifələri Bakıda fəaliyyət göstərən məşhur mağazalar, supermarket şəbəkələri ilə bağlı ilginc şikayətlərlə, ürəkbulandıran gileygüzarlarla, ağlasığmaz iddia və ittihamlarla aşıb daşır. Məsələn, bir neçə gün öncə müştəri Bakıda fəaliyyət göstərən "Al Market"dən üzərində "Badamlı" etiketi olan qazsız su alsa da, içəndə onun spirt olduğunun fərqinə varıb. İddiaçı - Nərmin Adil adlı feysbuk istifadəçisi sosial şəbəkədə etdiyi paylaşımda edib.O bildirib ki, axşam saatlarında "Al Market"in Əhmədli filialında vitrindən "Badamlı" markalı sadə qazsız su götürüb.***

"Telefonla danışa-danışa gəlib həyətimizdə açdım və başıma çəkdim. Bir saniyə sonra anladım ki, bu, su deyil, spirt kimi bir dadı var, ağzımı, boğazımı, mədəmi yandırdı. Qonşular su verdilər. Getdim marketə, dedilər ki, yanlış düşüb, firma dezinfeksiya məhlulu göndərib, onu da satıcılar yanlışlıqla su bilib vitrinə düzüblər. Durumu elə də ciddiyə almadılar.

Evə gələndən 1 saat sonra artıq gözlərim iki görürdü, nəfəs darlığı başladı. Təcili tibbi yardım və polis çağırdıq. "Semaşko"nun Toksikologiya şöbəsinə gətirildim. Dünəndən vəziyyətim ağırdır, ekspertiza və qan analizi nəticəsində qanımda metil spirti aşkarlandı. Baş verənlərə görə, "Al Market" şəbəkəsi tərəfindən mənə nə bir zəng edilib, nə də üzrxahlıq bildirilib. Hazırda gözlərimdə və sinir sistemimdə bu kimyəvi məhlula görə problem yaranıb" - şikayətçi yazıb.

Məsələ ilə bağlı şikayət olunan "Al Market"in rəsmisi ilə əlaqə saxladıqda isə o, öncə açıqlama verəcəyini bildirib. Daha sonra telefonları cavabsız buraxıb.

İki həftə öncə isə Gülarə Əzimzadə adlı başqa bir sosial şəbəkə istifadəçisi "Rahat" marketdən şikayətçi olub. O, tez xarab olan, ətrafındakı başqa ərzaqların iyini götürən süd mallarının vitrində üstüaçıq olmasından narahatlığını bildirib və yazıb: "Ekspertlər varsa aranızda soruşmaq istəyərdim ki, "Rahat" marketdə olan süd məhsullarının üstünü açıq saxlamaq nə qədər düzgündü? Şikayətim ondadır ki, aldığım kəsmik sabun dadı verir və xama da yedikdən sonra özümü pis hiss edirəm... Xahiş edirəm adıçəkilən marketlərin trolları "sizdən başqa şikayət edən olmayıb" ümummilli absurd, yalan və "otmazka" dolu şərhlərini yazmasın. Sizi blok edəcəm, çünki, elə menecerləriniz profilimi eşələyir və mən adıçəkilən marketə girəndə quyruğuma düşüb güdürlər. Başıma gəlib və məni tanıdıqlarını etiraf ediblər... Yenə deyirəm, ciddi yazılsın özümü yaxşı hiss etmirəm".



Yenə bu günlərdə "OBA" marketlər şəbəkələrinin birində müştəri fərqli qiymətlər ilə qarşılaşıb. Belə ki, Bakı sakini "OBA" marketdən "Cənub toyuqları" ət məhsullarına məxsus qablaşdırılmış toyuq alıb. Toyuğun qiyməti 2.45 azn olub. Evə gəldikdə isə çekdə məhsulun dəyərinin 3.44 azn qeyd edildiyini görüb.

Belə nümunələrin sayını kifayət qədər artırmaq olar. Görünən odur ki, paytaxtdakı supermarketlər bir çox hallarda istehlakçı haqlarının qorunmasına dırnaqarası münasibət bəsləyir; qiymətdə, xidmətdə və keyfiyyətdə heç də adlarına layiq şəkildə, "super" davranmırlar. Nəticədə müştərilər üzləşdikləri biabrçı halları sosial şəbəkələrdə dilə gətirməkdən, mətbuata ünvanlanan şikayətlərdə ifadə etməkdən başqa yol görmürlər.

Yaxşı olardı ki, istehlakçıların iri mağazalarda üzləşdiyi, ardıarası kəsilməyən qüsurlarla, nöqsanlarla bağlı aidiyyatı qurumlar, xüsusilə də İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti də eyni həssaslığı nümayiş etdirərdi. Eyni zamanda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) supermaketlərdə vətəndaşlara keyfiyyətsiz, istifadə müddəti bitmiş məhsullar satmasını önləmək üçün daha təsirli addımlar atmasına ehtiyac duyulur.

Görünən odur ki, paytaxtın müxtəlif mağaza şəbəkələri üzərində həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti tərəfindən nəzarəti gücləndirməsi qaçılmazdır. Axı söhbət hər birimizin sağlamlığından, istehlakçı kimi hüquqlarının qorunmasından gedir.

Sonda isə bir vacib məqamı da vurğulamağı gərəkli sayırıq: bir çox ölkələrdə, o cümlədən Rusiyada, Ukraynada, Belarusda, Gürcüstanda, Türkiyədə fəaliyyət göstərən marketlərdə müştəri guşəsi mövcuddur. Həmin guşədə istehlakçıların hüquqları pozulan zaman onun hansı quruma müraciət edə biləcəyini, eləcə də, istehlakçı hüquqlarının nədən ibarət olduğunu göstərən məlumatlarla tanış olmaq mümkündür. Üstəlik, əksər ölkələrdə fəaliyyət göstərən supermarketlərdə istehlakçıların öz şikayətlərini və təkliflərini yaza biləcəyi kitabçalar qoyulur. Bu örnəklərin Azərbaycanda da tətbiqi barədə düşünməyin vaxtı gəlib çatıb.

***Toğrul Əliyev***

# Prezidentin köməkçisi 68 QHT rəhbəri ilə görüş keçirdi

***Bu gün Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev QHT-hökumət dialoqu çərçivəsində insan hüquqları, araşdırma və tədqiqat sahəsində fəaliyyət göstərən 68 QHT-nin rəhbəri ilə görüş keçirib.***

Unikal.org xəbər verir ki, görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev bildirib ki, insan hüquqlarının müdafiəsi QHT-lərin əsas fəaliyyət istiqamətlərindən biridir. Dövlətimiz üçün milli maraqlarımızın yerli və beynəlxalq səviyyədə qorunmasında vətəndaş cəmiyyəti institutlarının yaxından iştirakının təmin edilməsi, Ermənistanın 1 milyondan çox vətəndaşımızın fundamental hüquqlarını pozmasının dünya ictimaiyyətinə səmərəli şəkildə çatdırılması, mərkəzi və yerli icra qurumlarının fəaliyyətində şəffaflıq və aşkarlığın artırılması, ictimai nəzarətin gücləndirilməsi prioritet təşkil edir. Buna görə də Şura daima insan hüquqlarının qorunması, demokratik proseslərin dəstəklənməsi və araşdırma sahəsində fəaliyyət göstərən QHT-lərin təşəbbüs və layihələrini maliyyələşdirir. Şura sədri Prezidentin köməkçisi Hikmət Hacıyevin qeyd olunan istiqamətdə ixtisaslaşmış QHT-lərlə bugünkü dialoqunun onların fəaliyyəti üçün əlavə stimul olacağına və müxtəlif formatlarda bu dialoqun bundan sonra da davam edəcəyinə inandığını bildirib.



Prezidentin köməkçisi Hikmət Hacıyev indiyədək QHT-lərlə keçirdiyi görüşlərdə 200-dən artıq təşkilatın iştirak etdiyini deyib. Hikmət Hacıyev QHT-hökumət dialoqunun ictimai sektorun fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun şəkildə qurulması üçün yeni yanaşmaların müəyyən edilməsi baxımından xüsusi önəm daşıdığını bildirib. H.Hacıyev bu dialoqun Prezident İlham Əliyevin vətəndaş cəmiyyətinin, ictimai nəzarətin daha da gücləndirilməsi, dövlət qurumlarının fəaliyyətində şəffaflıq və hesabatlığın artırılması, insan hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması ilə bağlı siyasi iradəsinin növbəti təzahürü olduğunu bildirib.

Hikmət Hacıyev insan hüquqlarının qorunmasının ümumbəşəri məsələ olmasına baxmayaraq bu sahədə çalışan bir sıra beynəlxalq qurumların Ermənistanın 30 ildən artıq müddətdə Azərbaycan vətəndaşlarının hüquqlarını kobud şəkildə pozması faktına ədalətli və qaneedici səviyyədə münasibət bildirmədiyini qeyd edib. Prezidentin köməkçisi insan hüquqları ilə bağlı selektiv deyil, obyektiv və qərəzsiz mövqe tutan yerli və beynəlxalq təşkilatlarla dialoqa hər zaman açıq olduğunu deyib.

Hikmət Hacıyev beyin mərkəzlərinin müəyyən dövlətlərin, regionun və dünyanın müxtəlif problemlərini tədqiq və təhlil edərək müvafiq təşkilatlara tövsiyələr verən əhəmiyyətli intellektual institutlar olduğunu vurğulayıb. Prezidentin köməkçisi Azərbaycan QHT-lərinin də bu istiqamət üzrə ixtisaslaşmasının və xarici həmkarları ilə beynəlxalq əməkdaşlığı genişləndirməsinin vacib olduğunu deyib.

Görüşdə çıxış edən QHT rəhbərləri hökumətin QHT-lərlə belə geniş formatda başladığı dialoqun vacib olduğunu vurğulayaraq belə təşəbbüsün irəli sürülməsini təqdir etdiklərini bildiriblər. QHT rəhbərləri ictimai sektorun və bilavasitə fəaliyyət göstərdikləri sahədə mövcud vəziyyət haqqında danışaraq üzləşdikləri çətinliklərin aradan qaldırılması ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Yekunda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev bugünkü müzakirələrin faydalı olduğunu, QHT-lərin irəli sürdüyü rəy və təkliflərin araşdırılacağını və əsaslandırılmış məsələlərin həlli istiqamətində müvafiq addımların atılacağını qeyd edib.



## "Erkin Qədirli müstəqil deputat kimi təmsil olunacaq" - Səməd Seyidov

***"Bir müddət əvvəl ReAL partiya kimi qeydiyyata alınsa da, gələn ilin yanvarına qədər Erkin Qədirli Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətində müstəqil deputat kimi təmsil olunacaq".***

Bunu APA-ya açıqlamasında Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib.

S. Seyidov deyib ki, AŞPA-da nümayəndə heyətində 4 nəfər hakim partiyanı, yəni Yeni Azərbaycan Partiyasını, 4 nəfər müstəqil millət vəkillərini, 4 nəfər də müxalifəti təmsil edən millət vəkili var: "Nümayəndə heyəti formalaşdırılanda ReAL partiya kimi qeydiyyatdan keçməmişdi, ona görə də Erkin Qədirli bizim nümayəndə heyətində müstəqil millət vəkilləri siyahısında idi. Ancaq bu yaxınlarda ReAL partiya kimi dövlət qeydiyyatından keçdi. Bu da nümayəndə heyətinin hazırkı tərkibi ilə bağlı hər hansı problem yaratmır. Çünki Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin qeydiyyatı 2020-ci ilin yanvar ayında olub və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü istər partiya üzvü, istər müstəqil olsun, növbəti ilin - yəni 2021-ci ilin yanvar ayına qədər onun AŞPA nümayəndə heyətinin üzvü statusu saxlanılır. Hətta AŞPA-da belə hallar da olub ki, hər hansı ilin yanvar ayından növbəti ilin yanvar ayına qədər hər hansı üzv ölkədə seçkilər keçirilib və nümayəndə heyətinin üzvü olan deputatın təmsil olunduğu partiya seçkilərdə uduzub, həmin şəxs də ölkəsində artıq deputat olmayıb, ancaq həmin şəxsin statusu AŞPA-da ölkəsinin nümayəndə heyətinin üzvü kimi növbəti yanvar sessiyasına qədər saxlanılıb. İndi də bu qayda mövcuddur".

S. Seyidov bildirib ki, bu səbəbdən Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin tərkibində hər hansı dəyişiklik gələn ilin yanvar ayına gözlənilir: "Hər il yanvar ayında nümayəndə heyətlərinin tərkibi AŞPA-da təsdiqlənir. O zaman da bu məsələyə qayıtmaq olar. Yəni prosedura uyğun olaraq, Milli Məclis həmin vaxt Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin tərkibi məsələsinə baxacaq".

Qeyd edək ki, Erkin Qədirli də gələn ilin yanvar ayında AŞPA nümayəndə heyətindəki statusuna və müxalif deputat kimi nümayəndə heyətində təmsil olunub-olunmayacağı məsələsinə baxılacağını bildirib.

***Hüseyn***

# Azərbaycan-Türkiyə birliyi Qərb dairələrini də narahat edir

## Sahib Alıyev: "Belə bir həlledici dönəmdə Azərbaycan Prezidentinin prinsipial mövqe ortaya qoyması, İtaliyanın və Avropanın bir çox digər dövlətlərinin gələcək davranışlarına təsirsiz ötüşməyəcək"

***Azərbaycanla Türkiyənin münasibətlərinin daha da istiləşməsi və bunu sübuta yetirən müəyyən bəyanatların verilməsi cəmiyyət tərəfindən müsbət qarşılanır. Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinə dedikləri də iki gündür müzakirə olunur.***

Dövlət başçısı görüşdən öncə "Mənim sizinlə qaldırmaq istədiyim, sizin bunu digər mənbələrdən deyil, məndən eşitməyinizi istədiyim ikinci məsələ Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı narahatlığımızdır" -deməklə ortaya konkret mövqe qoydu. Prezident bildirib ki, əməkdaşlığın bu üçtərəfli formatı bizi narahat edir: "Əlbəttə ki, hər bir ölkə nəyi doğru düşünürsə, onu da edir. Buna görə biz bunu bloklamaq və ya istənilən şəkildə qarşısını almaq mövqeyində deyilik. Lakin hesab edirəm ki, bunun bizi narahat edən məsələ olduğunu məndən eşitməyiniz yaxşıdır və bunun nəyə görə baş verdiyini mən izah etdim. Ermənistanın torpaqlarını işğal edən Azərbaycan deyil, Ermənistan Azərbaycanın ərazisini işğal edib. Bu da bütün beynəlxalq təşkilatların sənədlərində öz əksini tapıb. Toxunmaq istədiyim sonuncu məsələ Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginlikdir. Sizə deyə bilərəm və bu sirr deyil ki, Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq".

Mövzu ilə bağlı fikirlərini "Unikal" qəzeti ilə bölüşən Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, ölkə başçısının sözügedən bəyanatı cəmiyyət tərəfindən yüksək səviyyədə qarşılanıb: "Reaksiyalara baxıram və görürəm ki, Prezident İlham Əliyevin Yunanıstanın ölkəmizə yeni təyin olunmuş səfiri Nikolaos Piperiqkosa dünən dedikləri bizdə və Türkiyədə əsl emosiya partlayışı yaradıb. Bu, tam anlaşılandır. Çünki çox az hallarda hansısa bir dövlətin başçısı digərinin təmsilçisiylə görüşdə diplomatik ibarələrə varmadan ölkəsinin onların düşmən gözündə gördüklərinin yanında olduğunu və olacağını deyir. Hətta buna bənzər hallar baş verdikdə belə o deyilənlər kameralar qarşısında səsləndirilmir.

Cənab İlham Əliyev isə bunu etdi.- Və onun bu açıqlaması vurğuladığımız kimi böyük emosiya doğursa da, heç də emosional deyildi. Hamı bilir ki, xarakter baxımından yetərincə səbrliliyi, soyuqqanlılığıyla fərqlənən, böyük məktəb keçmiş, təcrübəli bir dövlət adamı kimi emosional çıxış, hərəkətlər, ümumiyyətlə, Azərbaycan Prezidentinə yaddır və o, populizmdən uzaqdır. Orasını da bildirim ki, dövlət başçımızın Yunanıstan səfirinə dedikləri təkcə rəsmi Afinaya qarşı yönəlməmişdi. İkincisi, reallığa və ənənəyə dayanırdı".

"Nəyə görə təkcə rəsmi Afinaya qarşı yönəlməmişdi?" sualına gəlincə, millət vəkili bunu qeyd edib: "Ona görə ki, hazırda həmən görüşdə haqqında söhbət gedən Şərqi Aralıq dənizi regionda qardaş Türkiyə Yunanıstanla yanaşı, Minsk qrupuna həmsədrlik edən Fransa və bir çox başqa ölkələrlə də üz-üzədir. Şərqi Aralıq dənizi regionuna böyük həcmdə qüvvə yeridən və orada İtaliya, Yunanıstan, Rum Kipriylə birgə hərbi təlimlər keçirən Fransa digər Avropa dövlətlərinə də təzyiq edərək, Türkiyəyə qarşı sərt mövqe ortaya qoymalarını istəyir. Bildirdiyimiz kimi, İtaliya təlimlərə qatılsa da, hələlik Fransanın arzuladığı qədər anti-Türkiyəçi deyil, Avropanın Almaniya və İspaniya kimi böyük çəkili dövlətləri isə vəziyyətin danışıqlar yolu ilə həllindən yanadırlar. Belə bir həlledici dönəmdə Azərbaycan Prezidentinin prinsipial mövqe ortaya qoyması, fikrimcə, İtaliyanın və Avropanın bir çox digər dövlətlərinin gələcək davranışlarına təsirsiz ötüşməyəcək.

Deməli ki, cənab İlham Əliyevin Yunanıstan səfiriylə görüşdə səsləndirdikləri təkcə o ölkəyə yönəlik sözlər deyildi. Şərqi Aralıq dənizi regionunda Türkiyəyə qarşı gövdə göstərənlərin hamısına "Mən qardaşımın yanında olacağam" ismarıcıydı. Bu, həmən dövlətlərə xitabən "Biz savaşa hazırıq" deyən cənab Ərdoğanı,Türkiyəni Azərbaycanın tək qoymayacağının ən yüksək səviyyədə və qətiyyətlə vurğulanmasıydı.

İndi isə istəyirəm 2014-cü ilin aprelində Praqada "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan Zirvə görüşündə cənab İlham Əliyevin qardaş ölkəni ittiham edən Serj Sarkisyanın necə ağzından vurduğunu xatırladım: "Bilirsiniz ki, Türkiyə bu Sammitdə təmsil olunmur, bundan istifadə edirsiniz. Amma mən buradayam, sizə cavab verirəm!".

Ondan bir il sonra Rusiyanın sərhəddi keçən hərbi təyyarəsinin vurulmasından sonra Ankarayla Moskva arasında gərginlik yaranan zaman digər türk dövlətlərinin tərəddüdlü davranmalarına, daha çox isə ikincinin maraqlarına uyğun mövqe sərgiləmələrinə rəğmən, Azərbaycan Prezidentinin səsləndirdiyi "Biz bütün məsələlərdə Türkiyənin yanındayıq" sözlərini xatırlayanlar yəqin ki, var.

Bu faktın özü də onu göstərir ki, Azərbaycan üçün fərqi yoxdur, Türkiyə ilə üz-üzə gələn kimdir, forpost Ermənistandır, elə də böyük çəkisi olmayan Yunanıstanla Rum Kipridir, yoxsa dünyanın ən güclü dövlətləridir, biz bütün hallarda qardaşlarımıza dəstək verməkdən çəkinmirik, çəkinməyəcəyik!. Çünki bu, bir reallıqdır və bu reallığı qanımız, genimiz, soyumuz, keçmişimiz bizə diqtə edir. Bunu bizə diqtə edən birinci dünya savaşı zamanı Türkiyədəki qardaşlarımızla çiyin-çiyinə döyüşərək şəhid olan 4 minə qədər azərbaycanlının ruhudur. Əminəm ki, dünənki açıqlaması, ənənəyə sadiqliyilə cənab Prezident onların müqəddəs ruhlarını bir daha sevindirdi. Nə deyim, Tanrı bu uca milləti, tarixin bu son dərəcə mürəkkəb dönəmlərində onun iki dövlətini eyni dövlətmiş kimi yönəldən böyüklərimizi qorusun!".



***Z.Məmmədli***

# Xaricdə sərvəti olan məmurlardan Azərbaycana gözlənilən təhlükə

## Belə vəzifəli şəxslərin müəyyən kənar qüvvələrin təsirinə düşmə riski böyükdür

***Azərbaycanın bir çox yüksək vəzifə sahiblərinin deputatların xarici ölkələrdə bizneslərinin, mülklərinin olması barədə məlumatlara mütəmadi olaraq rast gəlirik. Artıq belə məlumatlar cəmiyyətdə təəccüblü qarşılanmır; hətta son vaxtlar ictimai rəydə hansısa məmurun, yaxud millət vəkilinin ölkədən kənarda ticarət obyektlərinin və ya subyektlərinin aşkarlanması, villalarının, mənzillərinin ortaya çıxması adi qarşılanmağa başlayıb.***

Lakin bir çoxlarının fikrincə, aidiyyatı qurumların bu cür məlumatlara qarşı həssaslıq nümayiş etdirməsi vacibdir. Söhbət yalnız ondan getmir ki, ölkədən kənarda özlərinə böyük biznes quran, daşınmaz əmlak sahibinə çevrilən vəzifəli şəxslər buna əsasən korrupsiya və digər qanunsuz vasitələrlə nail olublar. Söhbət həm də ondan gedir ki, fərqli ölkələrin təcrübəsi daha təhlükəli məqamdan xəbər verir: bu cür məmurların biznes, mal-mülk sahibi olduqları ölkələrin təsir dairəsinə düşmək ehtimalı yüksək olur.Elə bu səbəbdən də bəzi dövlətlərdə vəzifə sahiblərinin öz ölkələrindən qıraqda hansısa sərvətinin, nəinki biznesinin, hətta bank hesabının olması yaxşı qarşılanmır - nəticədə ya qanunla tamam yasaqlanır, ya da məhdudlaşdırılır. Belə dövlətlərdən birində - Çində hətta bu cür məmurlarla bağlı xüsusi ifadə də yaranıb: "çılpaq məmur". Bu ifadə Çin hüdudlarından kənarda yaşayan, əmlakı da xaricdə yerləşən və ailə üzvlərinin adına qeydiyyata alınmış dövlət qulluqçularını bildirən yerli neologizmdir. Çin Xalq Respublikası (ÇXR) İctimai Elmlər Akademiyasının qiymətləndirməsinə görə, çinli məmurların təxminən 40%-nin ailəsi və uşaqları Çinin qitədə olan ərazisindən kənarda yaşayır. Qeyd edək ki, bu, 2013-cü ildən öncəki statistikadır. Əmlakın xaricə köçürülməsi və ailənin də ölkə hüdudlarından kənarda yaşaması məmurun mütləq rüşvətxor olmasının göstəricisi olmasa da, ÇXR hökuməti belə məmurları rüşvətə daha çox meylli hesab edərək, onlara bəzi yüksək vəzifələri (məsələn, bəzi idarələrin rəisi və rəis müavini vəzifələri) tutmağa qadağan edir.



ÇXR-nın Kommersiya Nazirliyinin məlumatlarına görə, 1978-2003-cü illərdə Çindən qaçmış dörd min rüşvətxor məmur ölkədən 50 milyard dollara yaxın vəsait çıxara bilmişlər. Onların əksəriyyəti əvvəlcə ailəsini xaricə göndərir, daha sonra pulları köçürür və özləri də ölkəni tərk edirdilər.

Həmin məmurların bir çoxu sonradan Çin hökumətinin kəskin tənqidçisinə çevrilir, hətta bəziləri yerləşdikləri ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlığa başlayırlar.

Bir neçə il əvvəl isə Rusiyada məmurların xarici bank hesablarının qadağan edilməsi məsələsi gündəmə gəlmişdi.

Nəticədə Dövlət Duması dövlət məmurlarının xarici ölkələrdə bank hesabı açması haqqında üç qanun layihəsindən birini sonuncunu üçüncü oxunuşda qəbul etmədi. Düzdür, qadağa məmurların daşınmaz əmlakına şamil edilməyəcəkdi. Bununla belə həmin əmlak gəlirlər haqqında qətnamədə və onun alınması üçün maliyyə vəsaitinin mənbəyinin göstərilməsi qanunda vurğulanıb. Məmurlar vəzifəsinin icrasına başladığı gündən 3 ay ərzində xarici banklardakı hesablarındakı maliyyə vəsaitini ləğv etməlidir. Bu qadağaya əməl etməyən məmur vəzifədən etibarsız və yararsız məmur kimi tutduğu işdən azad olunur.

Göründüyü kimi, bir sıra ölkələrdə vəzifəli şəxslərin xariclə şəxsi biznes əlaqələrinin olması, ölkədən kənarda malmülkə, sərvətə, ticarətə yiyələnməsi heç də arzuedilən sayılmır. Oxşar təcrübənin Azərbaycanda da tətbiq edilməsinin vacibliyini düşünənlər burada iki məqama diqqət çəkirlər. Birincisi, bununla Azərbaycandan kənara "çirkli pul" daşınmasının qarşısını əhəmiyyətli şəkildə almaq olar.

İkincisi, vəzifəli şəxslərin biznes, sərvət sahib olduqları ölkələrin təsir dairəsinə düşməsini önləmək mümkündür. Nəzərə alsaq ki, bir müddət öncə dövlət rəhbəri hətta müəyyən diplomatların xarici xüsusi xidmət orqanları ilə gizli əlaqələrinə işarə vurmuşdu, o zaman məsələnin ciddiyyəti də artır. Çünki oxşar halın Azərbaycandan qıraqda şirkətlər açan, bank hesabları olan, daşınmaz əmlak əldə edən məmurlarla bağlı da baş verməyinin, yaxud baş verməyəcəyinin heç bir təminatı yoxdur...

***Orxan Həsənli***

# Azərbaycanı içdən gəmirən "5-ci kolon"

## STM rəhbəri: "Bir sıra qüvvələr kiminsə Qərb cameəsinin nüfuz dairəsində olduğunu bildirir, başqaları region dövlətlərilə bu və ya digər əlaqədə ittiham olunur"

***Son günlər Azərbaycanda "5-ci kolon" ifadəsini teztez eşitmək olur. Bu ifadəni iqtidarlı-müxalifətli xeyli siyasətçi dilə gətirir, bir-birlərinə qarşı istifadə edirlər.***

Bir sözlə, "5-ci kolon" ifadəsi siyasi dairələrin lüğətində qırmızı ştrixlə keçir.

Tarixdən də məlumdur ki, "5-ci kolon" ifadəsi ilk dəfə İspaniyada səsləndirilib. Belə ki, 1930-cu illərdə İspaniyadakı vətəndaş müharibəsi zamanı general Frankonun zabitlərindən biri olan Emilo Mela Madridə doğru yürüş zamanı demişdi ki, "biz 4 kolonla hücuma keçirik, 5-ci kolon isə düşməni içəridən dağıdacaq".

Beləliklə, "5-ci kolon" adlandırılan təxribatçı qrupunun vəzifəsi həm ölkə daxilində casus fəaliyyəti ilə məşğul olmaq, həm də təxribatlar yaratmaqdı - başqa sözlə dövləti içəridən dağıtmaq.

Bu gün Azərbaycan siyasi arenasında tərəflər bir-birinə "5-ci kolonun nümayəndəsi" deyərkən ittiham olunanı daha çox Rusiyapərəstlikdə - ruslara işləməkdə suçlayır. "5-ci kolonun nümayəndələri"nin həm dövlət vəzifələrində, həm deputatlar arasında, həm media və QHT sektorunda, həm də müxalifət partiyalarında olduğu vaxtaşırı qeyd edilir.

Məsələn, Prezident Administrasiyasının sabiq rəhbəri, Azərbaycan Milli Elmlər (Akademiyasının) hazırkı prezidenti Ramiz Mehdiyev, Prezident Administrasiyasının sabiq şöbə müdiri Əli Həsənov həm əvvəllər, həm də elə bu gün Rusiyanın Azərbaycandakı "5-ci kolonunun nümayəndələri" adlandırılıblar.

Baxmayaraq ki, Ramiz Mehdiyev bugünlərdə AMEA-nın saytındakı məqaləsində bu ittihamı absurd adlandırıb. Amma akademik, elə həmin yazısında öz əleyhdarlarını Rusiya ilə qorxudaraq qeyd edib: "Belə çirkin oyunların alətinə çevrilənlər nəzərə alsınlar ki, onlar öz çıxışlarında tez-tez Rusiyanın adını hallandırmaqla ilk növbədə müstəqil dövlətimiz üçün ciddi problemlər yaradırlar. Onlar faktiki olaraq Rusiyanı ölkəmizin idarəetmə strukturlarında böyük casus şəbəkəsi formalaşdırmaqda ittiham edir, bununla da Moskvadakı bəzi maraqlı dairələrə Azərbaycanı təxribata çəkməyə bəhanə verirlər. Belə məsuliyyətsiz və təhlükəli oyunlardan çəkinmək lazımdır. Öz xalqının gələcəyini, vətəninin sabitliyini və rifahını düşünən heç bir azərbaycanlı belə işlərə qol qoymamalıdır. Hər kəs verdiyi bəyanatın mənə tutumu, onun yaradacağı effekt və doğuracağı təhlükəli problemlər haqqında düşünməlidir. Xüsusilə də Azərbaycanın yerləşdiyi bölgənin geosiyasi həssaslığını nəzərə alsaq, ölkəmizdə verilən bütün siyasi bəyanatlar yüz ölçülüb bir biçilməlidir".



Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri, deputat Zahid Oruc da Modern.az-a mövzu barədə danışıb. O bildirib ki, ötən əsrin 80-ci illərindən sonra hansısa dövlətə tankla, topla hərbi müdaxilə edib oradakı siyasi qüvvəni devirmək dünyada yaxşı qarşılanmadı: "Məsələn, Panamada, Qvatemalada iqtidarlar tez-tez xarici müdaxilələr hesabına əvəzlənirdi. "5-ci kolon" müxtəlif sektorlarda təmsil oluna bilirlər. Partiyalar cameəsində, idarəetmə sferalarında təmsil olunmaqla yanaşı, təhsil agenti kimi də xarakterizə edilə bilir. Ölkə rəhbərinin məşhur çıxışlarının birində işlənən tezisi xatırlatmaq istəyirəm: "Bir sıra vəzifəli şəxslər də xarici dövlətlərin təsirinə, yaxud da hansısa stimullaşdırılmış proqramlarına, təəssübkeşinə çevrilə bilirlər. Bu çox ağrılı məsələdir".

Bu, bizim başa düşdüyümüz casusluq fəaliyyətindən xeyli fərqlidir. Konkret olaraq hansısa bir ölkədə kəşfiyyat tapşırıqlarını icra etmək dünyada qanunlar vasitəsilə kəskin formada cəzalandırılır, məsuliyyət yaradır. Bir sıra hallarda "5-ci kolon" üzərindən dövlətlərin konkret siyasi orduları qurulur və himayə edilir. Daim üzərlərində xüsusi qoruyucu əl yaradılır. Həmin şəxslər həbs olunduğu təqdirdə xüsusi toxunulmaz adamlar kimi bir kassa üzvünə çevrilir. Kəskin şəkildə beynəlxalq müdaxilələr təşkil edilir. Qrantlara layiq görülür. Yumşaq güc siyasətində həmişə öndə tutulur".

Zahid Orucun sözlərinə görə, bizim ölkənin də ictimai-siyasi reallığında "5-ci kolon" ifadəsi müəyyən bir çəkiyə, dərinliyə malikdir:

"Bir sıra qüvvələr kiminsə Qərb cameəsinin nüfuz dairəsində olduğunu bildirir, başqaları region dövlətlərilə bu və ya digər əlaqədə ittiham olunur. Siyasətin kəskin və amansız xarakterinə görə kimlərsə bir-birinə qarşı kompromat savaşında, linçetmə yarışında elementə çevrilə bilir. O ölkə güclü və milli maraqlarını uğurla neytrallaşdıra bilir ki, orada vətəndaş cəmiyyətlərinin mütləq əksəriyyəti, dövlət institutları bütövlükdə toplum, xalq daha çox milli maraqların üzərində qərarlaşırlar. Onu heç bir dəyişən beynəlxalq konyukturaya qurban vermirlər. Ərazi miqyasından və əhali sayından asılı olmayaraq daim öz gündəliyini və gələcəyini öz əlləri ilə təmin etməyə çalışırlar. Xüsusilə, keçmiş Sovet məkanı ölkələrində onu görməkdəyik ki, gerçəkdən də burada siyasi məkanda xarici təsir qrupları güclü şəkildə orada özlərinə yer alıblar, oturuşublar, fəaliyyət aparırlar. Bu o deməkdir ki, cəmiyyətin təşkilatlanması onların partiyalaşması, QHT strukturlarının güclü formada rol alması milli həyatda iştirak etməsi zəifdir. Bu işləri güclü şəkildə etdikdə dediyiniz reallıqlara yer qalmır".

***Namidə Bingöl***



# "Azəriqaz"dan balansla bağlı açıqlama

***Bakıda bir qrup sakin smart tipli qaz sayğaclarının ləğvinə etiraz edib.***

Onların Lent.az -a bildirdiyinə görə, bir müddət öncə kartlarında pul olduğu halda sayğacları götürülüb. Şikayətçilər kartların balansında hələ növbəti bir ay üçün də limit qaldığını, lakin buna baxmayaraq borclu olduqları barədə onlara qəbz göndərildiyini bildiriblər.

Məlumatla əlaqədar "Azəriqaz" İstehsalat Birliyinin mətbuat katibi Ceyhun Səfərov Lent.az -a danışarkən sayğacların 5 ildən bir dövri yoxlama üçün çıxarıldığını bildirib. Onun sözlərinə görə, hər gün 1000-dən çox belə sayğacın fəaliyyəti dayandırılır:

"5 ildən bir istər smart tipli, istərsə də mexaniki sayğaclar dövri yoxlama üçün götürülür. Yoxlamada onların qüsurlu və ya qüsursuz olmaları, həmçinin nə cür işləmələri müəyyən edilir. Smart tipli sayğaclar sərf etmədiyi üçün hazırda balansda yoxdur. Onların qiyməti tam tərkiblə 220-240 manat olduğu halda, mexaniki sayğacların qiyməti 70 manatdır. Ona görə də hazırda dəyişdirilən sayğacların yerinə məhz mexaniki sayğaclar qoyulur. Bununla da həmin sakinlərin qaza olan ödənişi onlayn qaydada aparılır. Bu isə sakinlər üçün daha da sərfəlidir. İstənilən aparatda ödənişi həyata keçirmək mümkündür. Vətəndaşların kartda qalan qaz limiti isə 30 gün ərzində geri qaytarılacaq. Əgər kartda olan limit bir aylıq borcdan çoxdursa, onda biz onlara borclu qalacağıq. Dəyişdirilən sayğaclar isə bundan sonra 5 il həmin evdə fəaliyyət göstərəcək. 5 ildən sonra isə hansı sayğacın qoyulacağını indidən demək olmaz.

Bundan əvvəl aldığımız smart tipli sayğaclarda şirkət proqram təminatını vermirdi. İndi isə "Azəriqaz" Almaniya şirkəti ilə müqavilə bağlayıb və alacağımız sayğacların proqram təminatı da bizə təhvil veriləcək".

# Azərbaycanda 36 nəfər dərmandan zəhərlənib

***Bu ilin əvvəlindən indiyədək 36 nəfər dərmandan zəhərlənmə şikayəti ilə xəstəxanaya müraciət edib.***

"Unikal" xəbər verir ki, bunu Trend-ə Səhiyyə Nazirliyinin Kliniki Tibbi Mərkəzinin Toksikologiya şöbəsinin müdiri Azər Maqsudov deyib.

Onun sözlərinə görə, dərmandan zəhərlənənlərin 9-u uşaq olub. Dərmandan zəhərlənənlər arasında ölüm halları baş verməyib.

A.Maqsudov hesab edir ki, dərmandan zəhərlənmə hallarının baş verməsi ölkədəki dərman preparatlarının keyfiyyətsizliyi ilə bağlı deyil:

"Bu cür hallar həkim məsləhəti olmadan özbaşına, təyinatsız dərman preparatları qəbul etməkdən baş verir. Bu da sonda zəhərlənmə ilə nəticələnir. Bizim xəstələrlə söhbətimizdə də onlar dərmanın dozasını həkimin dediyindən daha artıq qəbul etdiyini söyləyirlər".

A.Maqsudov qeyd edib ki, müraciət edənlər əsasən, antibiotiklər və vitaminlərin qəbulu nəticəsində dərmanların əlavə təsirlərinə məruz qalıblar.

# Millət vəkili Prezidentdən Tofiq Yaqublunun əfv olunmasını xahiş etdi

***Dünən Tofiq Yaqubluya 4 il 3 ay azadlıqdan məhrumetmə növündə cəza təyin olundu və o cəzanı ədalətsiz hesab edərək ölüm aclığına başlayıb.***

Unikal.org xəbər verir ki, BAXCP sədri, millət vəkili Qüdrət Həsənquliyev bu barədə "moderator"a açıqlamasında deyib ki, Tofiq Yaqublu siyasi məsələlər barədə nə qədər çox və nə qədər sərt danışsa da, cəmiyyət onu siyasətçidən daha çox döyüşçü kimi tanıyır və ona olan müəyyən hörmət də daha çox torpaqlarımız uğrunda döyüşüb yaralanmasına görədir:



"Onun barəsində həbs qətimkan tədbiri seçiləndə də söyləmişdim ki, bəzi siyasi dələduzlar Tofiq Yaqublunun döyüşçü xarekterindən sui-istifadə edib, bu ailənin iztirabları üzərində alçaqcasına siyasət qururlar. Özlərinin həbs olunacağına kiçicik təhlükə yarandığını hiss edən kimi siyasətdən, partiya sədrliyindən imtina etməyə hazır olduqlarını bəyan edənlər Tofiq Yaqublunu daha təmkinli olmağa çağırmaq əvəzinə hər zaman qızışdırdılar ki, Tofiq bəy çox cəsurdur, dönməzdir, həbsdən qorxmur və s. Həbsdən öncə onun gərginlik keçirdiyi açıq hiss olunurdu. Özünün yersiz radikallığını və üzə düşdüyünü başa düşsə də xarakteri və ətrafı ona geri çəkilməyə imkan vermirdi. Bu onun əsəblərinə də təsir edirdi və o bir çox hallarda sübut edə bilməyəcəyi əsassız ittihamlara və təhqirlərə yol verir, qırmızı xətti keçirdi. Hesab edirəm ki, Tofiq bəyin başına gələnlərdən gənc siyasətçilər və onu hər gün efirə çağırıb radikallığa təhrik etməklə bu həddə gətirib çıxarmış vicdansızlar da nəticə çıxarmalıdırlar. Rəhmətlik Elçibəydən soruşulanda ki, niyə onun demokratik cəmiyyət qurmaq istiqamətindəki fəaliyyəti uğursuzluğa düçür oldu, deyərdi ki, elə məsələlər var ki, onun həlli zamana bağlıdır. Kimsə hakimiyyətə gəlmək üçün tələsirsə, yaxud tapşırıq yerinə yetirirsə, buna görə başqalarının həyatını təhlükə altına atmamalıdır. Mən Azərbaycan Respublikasının Prezidentinə müraciət edirəm ki, T.Yaqublunun ailəsinin çox acılar yaşamasını və onun torpaqlarımız uğrunda döyüşüb yaralanmasını, ibtidai və məhkəmə istintaqı zamanı həbsdə olmasını nəzərə alıb, humanistlik nümayiş etdirərək Tofiq Yaqublunu əfv edib, cəzasının çəkilməmiş hissəsinin şərti tətbiq olunması barədə qərar qəbul etsin. Güclülərin və böyüklərin bağışlamağı bacarması hər zaman, bütün dövrlərdə ictimaiyyət tərəfindən təqdir olunub. Düşünürəm Prezidentin belə qərarı olarsa xalqımız da bunu alqışlayardı".

# Bakıdakı bu universitetdə hər gün 500 tələbə kəsir imtahanı verir

***Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) tələbələrin onlayn kəsir imtahanları davam edir.***

Universitetin mətbuat xidmətindən verilən məlumata görə, avqustun 31-dən start götürən imtahanların sentyabrın 7-dək yekunlaşadırılacağı planlaşdırılır. Əsas sessiya bitdikdən sonra qiyabiçilərin və 25 faizlə yenidən imtahan vermək şansı olanların imtahanına start veriləcək, sessiya sentyabrın 15-nə qədər davam edəcək.

AzMİU-nun Test imtahan bölməsinin rəhbəri Nigar Abbasova bildirib ki, hazırda kəsir imtahahanları verən tələbələr iki qrupa bölünüb. "3197 nəfər texniki səbəblərdən yaz imtahan sessiyasında problem yaşayanlar, 1853 nəfər isə altdan dərs alan tələbələrdir. 2364 tələbə yazılı, 2676 nəfər isə test üsulu ilə toplam 271 fəndən onlayn imtahan verir. Onu da qeyd edək ki, gündəlik olaraq təxminən 500 tələbə kəsir imtahanına daxil olur".



# Erkin Qədirli özünü rəsmən müxalif deputat elan etdi

***"ReAl partiyasının dövlət qeydiyyatına alınması mənim Milli Məclisdə və AŞPA-da nümayəndə heyətində statusumu dəyişdirəcək. ReAl-ın qeydiyyatsız dönəmində mən müstəqil deputat sayılırdım. Bundan sonra rəsmən müxalif deputat sayıla biləcəyəm".***

"Unikal" xəbər verir ki, bu açıqlama ilə ReAl Partiyasından olan deputat Erkin Qədirli çıxış edib. O, bununla bağlı deyib: "ReAl da rəsmən parlament partiyası sayılacaq. ReAl-ın rəsmən parlament partiyası sayılması, onun, başqa parlament partiyaları kimi, dövlət büdcəsindən maliyyələşməsi məsələsini aktuallaşdıra bilər. Amma burada aydın cavab yoxdur. Belə durumlarda eyni inandırıcılıqla bir-birinə qarşı olan yönlərdən yozum vermək olur. Bir yozuma görə, ReAl bu durumda büdcədən maliyyələşə bilməz, çünki mən seçiləndə ReAl-ın qeydiyyatı olmayıb. Başqa bir yozuma



görə, seçki proporsional olmadığına görə ReAl-ın parlamentdə yerləri ReAl-ın qeydiyyatından sonra ona üzv olmuş deputatların hesabına yarana bilər. İndiki halda mənim hesabıma. Proporsional seçkilərdə belə yanaşma doğru sayıla bilməzdi. Ona görə də, bir halda ki, dövlət büdcəsindən maliyyələşmə təcrübəsi var, proporsional seçki sisteminə keçmək gərəkdir. Majoritar sistem bunun üçün yaramır. Ayrıca, şəxsən mənim fikrimə görə, partiyalar dövlət büdcəsindən pul almamalıdır.

AŞPA-da nümayəndə heyətimizə gəlincə, orada mən hələ müstəqil üzv sayılıram, çünki nümayəndə heyəti təsdiqlənəndə ReAl-ın qeydiyyatı olmayıb. Öz parlamentimizdə statusumun dəyişməsi (müstəqildən müxalifə keçməsi) AŞPA-da nümayəndə heyətindəki statusumu avtomatik dəyişdirmir. Mənim statusuma gələn ilin yanvarında yenidən baxılacaq. Aydındır ki, müstəqil qala bilməyəcəyəm. Burada iki variant yaranır: 1) mən AŞPA nümayəndə heyətində qalıram, müxalif deputat kvotasına (1/3) girirəm, amma bunun üçün gərək kimsə o kvotadan çıxsın; 2) mən nümayəndə heyətindən çıxıram, çünki müstəqil kimi qala bilməyəcəyəm, müxalif kvotadan isə kimsə çıxmayacaq. Hər iki halda mənim yerimə başqa birisi müstəqil kvotaya girməli olacaq. Bunun cavabı yanvarda bilinəcək".

# “Akopyan erməni qadınları mülki azərbaycanlılara qarşı hücuma hazırlayır” - İtaliya mətbuatı

***İtaliya mətbuatında Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın qismində həyata keçirdiyi təxribatlarla bağlı “Akopyan erməni qadınları mülki azərbaycanlılara qarşı hücuma hazırlayır” başlıqlı məqalə dərc olunub.***

“Eurasianews” xəbər portalında dərc olunan məqalədə bildirilir ki, son iyul hadisələrindən sonra hazırda Azərbaycan və Ermənistan arasındakı dövlət sərhədində və hər iki ölkənin qoşunları arasında təmas xəttində xüsusi zorakılıq halları müşahidə olunmamasına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı narahatedici məqamlar mövcuddur.

“Son aylar mətbuatda öz əri ilə birlikdə iqtisadi-maliyyə maxinasiyaları ilə məşhur olan Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan 2018-ci ildə



regionda sülhün müdafiəçisi kimi özünü təqdim edir və azərbaycanlı qadınları da “Sülh uğrunda qadınlar” kampaniyasına qoşulmağa dəvət edirdi. Lakin cəmi il yarımdan sonra həmin Anna Akopyanın özünün “sülhpərvər qadınları” ilə birlikdə otuz ildən artıqdır ki Ermənistanın hərbi işğalı altında olan Azərbaycanın Dağlıq Qarabağ regionunda hərbi təlimlərdə iştirak etdiyi barədə xəbərlər yayılır. O, sülhə çağırışlarını unudaraq və təlim yerlərinin yaxınlığında mülki azərbaycanlıların yaşadıqları kəndlərin mövcudluğuna məhəl qoymayaraq, qadınları həmçinin silahlardan istifadə etməklə Dağlıq Qarabağı müdafiə etməyə dəvət edir. Təlim yerlərindən çəkilmiş şəkillər həm Paşinyanın inqilabi diktaturasının, həm də Ermənistanın hərbi təcavüzünün mahiyyətini sübut edir. Əgər Ermənistanda qadınlar da müharibəyə hazırlaşırlarsa, bu ölkənin sülh istəməsinə necə inanmaq olar?

İyul hadisələri, eləcə də Ermənistan qadınlarının belə hərəkətləri Ermənistanın Müdafiə nazirinin sözlərini bir daha təsdiq edir, hansı ki, o, iyul hadisələri və Ermənistanın Azərbaycana hücum etməsi səbəbindən Tovuz rayonunda zorakılığın artmasından əvvəl bildirmişdi ki, “Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırdır”, - deyə məqalədə qeyd olunub.

# Bərdədə zorla qaçırıldığı deyilən 17 yaşlı qız danışdı - "Məndən əl çəkin"

***Ötən həftə ölkə gündəmini zəbt edən “qız qaçırma” olayı ilə bağlı təfərüatlar bəlli olub. Belə ki, hələ ötən ay Space Tv-də yayımlanan “Gəl dərdini danış”da çıxış edən ailə qızlarının zorla Nurlan adlı şəxs tərəfindən qaçırıldığını iddia etmişdi. Ailə verilişdə Şəhanənin hazırlığa getdiyini, bu il imtahan verəcəyini bildirmişdi. Amil Xəlil ilə birbaşa efirdə danışan Şəhanəni qaçıran Nurlan yalnız aparıcının gəlməsi ilə müsahibə verəcəyini bildirmişdi.***

Unikal.org xəbər verir ki, ötən gün çəkiliş qrupu Bərdənin Alpout kəndində olub. Məlum olub ki, birinci verilişdən sonra bir çox dövlət qrumlarının nümayəndələri kənddə olub və Şəhanə ilə görüşlər keçirib. Lakin sonuncu ictimaət üçün müsahibə verməyib. Verilişdə danışan Şəhanə anasının və atasının ona şər atdığını, artıq yorulduğunu bildirib. “Mən Nurlanı sevirəm. Atam ötən verilişdə deyir ki, qızım xəstədir. Bəs xəstə qızı 3 ildir niyə hazırlığlara göndərirdi? Məni burada zorla saxlamırlar. Neçə aydır burdayam, nə bacım nə də qardaşım zəng edib halımı soruşmur. Buradan ailəmə son olaraq səslənirəm. Məni rahat buraxın. Ya gəlin mehriban olaq, ya da imkan verin xoşbəxt olum. Mən sizi çox istəyirəm. Amma siz məni başa düşmədiniz” deyə Şəhanə bildirib

Nurlanda Amil Xəlilə açıqlama verərək 2-3 dəfə evli olmadığını, sadəcə 1 dəfə 3 günlük evlilik həyatının olduğunu bildirib. “Haqqımda yazdırırlar ki, güya 3 dəfə evli olmuşam. Xeyir, bir dəfə evli olmuşam. 25 yaşım var. İlk evliliyim demək olar ki, 3 gün çəkdi. Mən Şəhanəni sevirəm. Ailəsi razı olmadığı üçün qaçırtdım. Könüllü olaraq”

Qayınata Ramiz bəyin açıqlaması ilə maraqla qarşılanıb. “Nurlan Şəhanəni qaçıranda , gəlinimin ailəsi bizə gəldi. Nə qədər çalışsaq da razılaş-



madılar. Onlar evi tərk edəndə Şəhanənin atasına dedim ki, sənə kişi sözü verirəm, onlar hələ ki, dost kimi yaşayacaqlar. Sən “hə” deyənə kimi. Ər-arvad münasibətləri olmayacaq. Sözümün üstündə dururdum. Amma bu günə kimi. Bu efir vasitəsi ilə deyirəm, daha bu gündən sözümün üstündə durmuram” deyə Ramiz bəy bildirib.

# Partiya sədri 100 minlik dələduzluqda ittiham edilir

***Azərbaycanda partiya sədri barəsində cinayət işi başlanıb.***

“Unikal” APA-ya istinadən xəbər verir ki, Azərbaycan Mübarizləri Partiyasının sədri Ağadur Müslümov külli miqdarda dələduzluqda ittiham olunur.

İş üzrə iki nəfər zərərçəkən var. Onlar İran vətəndaşı Khorazme Alireza Ghorban və Babayev İsaxan Teymur oğludur.

Zərərçəkmiş İsaxan Babayev Təhsil Nazirliyinin Tikinti İdarəsinin sabiq rəisi olub.

İsaxan Babayev polisə ərizə ilə müraciət edərək, 2013-cü ildə Ağadur Müslümova 100 min manat verdiyini, həmin şəxsin bunun müqabilində



ona Təhsil Nazirliyinin idarə rəisi vəzifəsində qalmağa köməklik göstərəcəyini vəd etdiyini bildirib. Lakin A. Müslümov pulu alsa da, vədinə əməl etməyib. Misir Mərdanov Təhsil naziri vəzifəsindən getdikdən sonra İ. Babayev də işdən çıxarılıb.

A. Müslümova Cinayət Məcəlləsinin 178.3.2-ci ( dələduzluq, külli miqdarda ziyan vurduqda) maddəsi ilə ittiham verilib.

Onun barəsində olan cinayət işinin istintaqı başa çatdırılaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Cinayət işi hakim Əhməd Quliyevin icraatına verilib.

Ağadur Müslümov məsələ ilə bağlı sualı cavabsız qoyub.

”Mən tədbirdəyəm, sizinlə sonra əlaqə saxlayaram”, - deyə o bildirib.




# DSMF-nin filial müdiri saxlanılıb? - RƏSMİ

***Son günlər mətbuatda Dövlət Təhlükəsizlik Xidməti tərəfindən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Biləsuvar rayon filialının müdiri Fərasim Əliyevin saxlanılması barədə yayılan məlumat əsassızdır, həqiqəti əks etdirmir.***

“Unikal” xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Fazil Talıbov deyib.

Nazirlik rəsmisi bildirib ki, sadəcə olaraq, filialın əməkdaşı Ədalət Mürsəlov Xidmət tərəfindən DSMF Biləsuvar rayon filialının fəaliyyət sahələrinə aid olmayan başqa bir bir məsələ ilə bağlı şahid qismində qısa müddət üçün dəvət olunub.

”Hazırda da iş yerindədir, fəaliyyətini davam etdirir. Ona görə də bəzi media orqanlarının mətbuat prinsiplərinə zidd olaraq, aidiyyəti qurumla heç bir dəqiqləşdirmə aparılmadan, qeyri-peşəkarcasına belə yalan məlumatları tirajlaması təəssüf doğurur”.

# UNEC: Hər zaman təhsil deyək

***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Təhsil Nazirliyi və ali təhsil müəssisələrinin birgə start verdiyi layihəni #HərZamanTəhsil həştəqi ilə davam etdirir.***

Universitetdən bildirilib ki, yeni tədris ilində UNEC tələbələrini müasir standartlara cavab verən möhtəşəm kampusunda qarşılayacaq.

Modern memarlıq elementləri ilə zəngin olan yeni kampusda texniki və texnoloji ixtisaslar üzrə 3 min tələbə təhsil ala biləcək. Müasir tələblərə cavab verən auditoriyalar, mühazirə, linqafon otaqları, ən müasir texnologiya ilə təchiz olunan laboratoriyalar, idman zalı, 24/7 fəaliyyət göstərən 2 mərtəbəli kitabxana, böyük və kiçik konfrans zalları tələbə və müəllimlərin istifadəsinə veriləcək.

UNEC ailəsi ilə tezliklə bir araya gəlmək ümidi və sevinci ilə estafeti Bakı Dövlət Universitetinə ötürürük.

Ali təhsillə bağlı ən son yeniliklərlə maraqlanan, kreativ təkliflərlə çıxış etmək istəyən hər kəs ali təhsil (https://www.facebook.com/groups/ali.tehsil/) “Facebook” qrupuna üzv olmağa dəvət edilir.

# Ötən il 113 mindən çox qadın uşaq dünyaya gətirib



***Ötən il Azərbaycanda 113,1 min qadın dünyaya körpə gətirib. Onların 105,2 mini vaxtında, 4,5 mini vaxtından əvvəl doğuşla dünyaya gəlib.***

Dövlət Statistika Komitəsindən “Unikal”a verilən məlumata görə, hamiləliyini baş çatdırmış anaların 27, 7 min nəfərində anemiya, 3 min nəfərində proteinuriya, ödemlər və hipertenziv halları, 3 min nəfərində sidik-cinsiyyət sisteminin xəstəlikləri, 2,1 min nəfərində venoz fəsadları, 877 nəfərində qan dövranı sisteminin xəstəlikləri, 222 nəfərində şəkərli diabet olub.



## Ağsaqqallar Şurasının yeni sədri kim olacaq? - Açıqlama

***"Ağsaqqallar Şurasına rəhbər təyinatı seçki yolu ilə keçirilməlidir. Hələlik Şurada bu barədə heç bir müzakirə aparılmayıb".***

Bunu Modern.az-a açıqlamasında Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Sudeyif İmamverdiyev deyib. O qeyd edib ki, Şuranın mərhum sədri Fəttah Heydərovun postu hələlik boşdur:

"Rəhmətlik Fəttah müəllimin hələ qırxı çıxmayıb. Sədr seçməyə tələsmirik. Bu barədə müzakirə aparmaq tezdir. Şuraya yeni sədr seçki yolu ilə keçiriləcək, amma hələ ki heç bir seçki təyinatı müzakirə mövzusu deyil. Gəlin, bu barədə danışmağa tələsməyək".

Qeyd edək ki, Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov 2020-ci il avqustun 4-də vəfat edib. Artıq bir aydır, Şuranın sədri postu boşdur.

## Yeni "Pensiya kalkulyatoru" e-xidməti hazırlanır

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi elektronlaşdırma proqramı çərçivəsində yeni və geniş fuksional imkanlara malik "Pensiya kalkulyatoru" e-xidmətini hazırlayır.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, bu e-xidmət vətəndaşlara onlara pensiyanın nə zaman və qanunvericilikdə nəzərdə tutulan hansı şərtlərlə təyin ediləcəyini real vaxt rejimində öyrənmək imkanı verəcək.

Kalkulyator mövcud qanunvericiliklə vətəndaşa yaşa görə əmək pensiyası hüququnun yaranacağı tarix, pensiya hüququnu əldə edəcəyi tarixdəki yaşı, habelə hər üç pensiya növü (yaşa, əlilliyə və ya ailə başçısını itirməyə görə) üzrə tələb olunan sığorta stajı, pensiya kapitalı, hazırda pensiyaçı olub-olmaması və s. barədə məlumat verəcək.

Yeni e-xidmətin yaxın bir ay ərzində istifadəyə verilməsi nəzərdə tutulur.

## 2383 namizəd müəllim işləmək üçün imtahan verir

***Bu gün informatika və texnologiya müəllimi olmaq istəyən namizədlər üçün işə qəbul imtahanları keçirilir.***

Təhsil Nazirliyindən "Unikal"a verilən məlumata görə, imtahanlarda 2383 namizədin iştirakı nəzərdə tutulub.

Namizədlərə 90 dəqiqə müddətində ixtisasa dair 40, təlim strategiyaları və metodikaya dair 20 test tapşırığı olmaqla ümumilikdə 60 sual təqdim edilir.

# Oqtay Şiraliyevin baş həkimlərə sözü keçmir

## Şəhər və rayonlardakı mərkəzi xəstəxanalarda "bezpredel" hökm sürür



***Son vaxtlar yerli mediada ayrı-ayrı şəhər və rayonların mərkəzi xəstəxanaları ilə bağlı şikayətlərin sayı artıb. Yazılı, bəzi hallarda foto və video görüntülərlə bağlı olan həmin şikayətlərdə sözügedən tibb müəssisələrində rüşvət ittihamından tutmuş xəstələrə qarşı qeyri-mədəni rəftara, yanlış diaqnozların qoyulmasından səhv müalicəyədək müxtəlif nöqsanlardan, qanunsuz əməllərdən söhbət açılır.***

Məsələn, aylar öncə Qusar rayon Mərkəzi Xəstəxanasında həkimin rüşvət alması görüntüləri yayılmışdı. Görüntülərdən aydın olurdu ki,laboratoriya şöbəsinin həkimi cavablarını alan vətəndaşlardan pul alıb. Qusar rayon Mərkəzi Xəstəxanasından həkimin rüşvət alması görüntülərinə münasibət bildirərkən baş həkim Mübariz Zeynalov bildirmişdi ki, məsələ hüquq çərçivəsində araşdırılacaq. "Səhər də mənə tanımadığım bir nömrədən SMS yazılmışdı ki, sizin xəstəxanadan qısa saçlı bir qadın rüşvət alıb. Mən bildirdim ki, həmin şəxs ya mənə, ya da Səhiyyə Nazirliyinə müraciət etsin, biz araşdıraq.

Hüquqi dövlətdir, həkim qanun qarşısında cavab verər. Rəsmi müraciətdən sonra məsələ araşdırılıb, lazımi tədbir görüləcək", - baş həkim qeyd etmişdi.

Səhiyyə Nazirliyindən isə deyilmişdi ki, həkimin rüşvət almasına dair məsələ araşdırılıb. Sitat: "Həkimə üç manat pul verilib. Pul verən ilə videonu çəkən ayrı-ayrı şəxslərdir. Pul verən şəxs həkimdən şikayətçi olmayıb. Buna baxmayaraq, daxili araşdırmalar aparılır və həkim barəsində müvafiq tədbirlər görüləcək".

Bundan əvvəl - ötən ilin yayında isə Bərdə rayon Mərkəzi Xəstəxanasında həkimin rüşvət alması görüntüləri yayılıb. Yayılan görüntülərdə xəstənin həkimin cibinə pul qoyması, həkimin isə pulu götürməsi öz əksini tapıb.Həmin vaxt məsələ ilə bağlı Səhiyyə nazirliyinin mətbuat xidmətinin rəhbəri Pərviz Əbubəkirovla və Bərdə rayon Mərkəzi Xəstəxanasının baş həkimi Rəna Mustafayeva ilə əlaqə saxlamaq mümkün olmayıb.

Bu ilin yayında isə Saatlı rayon Mərkəzi Xəstəxanasındakı özbaşınalıqlarla bağlı şikayət yayılıb. "Sənədləri göndərəndə qəsdən tam doldurmurlar, ona görə də Tibbi-Sosial Ekspert Komissiyası qəbul etmir, tam doldurulması üçün geri qaytarır. Və bu, uzun müddətdir ki, belə davam edir. Saatlı rayon Mərkəzi Xəstəxanasında bizdən açıq-aşkar rüşvət istəyirlər. Demir "gətir rüşvət ver", deyir, "hörmət elə, şirinlik ver"" - deyə rayon sakini 27 yaşlı Fəridə İsayeva bildirib. O qeyd edib ki, 14 yaşından talassemiyadan əziyyət çəkir. Ancaq illərdir ki, əlillik dərəcəsinin təyin olunması üçün müraciət etsə də, əlillik dərəcəsi ala bilmir. Fəridə xanım bunu rüşvət verməməsi ilə əlaqələndirir. Sitat: "2 uşağım var, ailə vəziyyətimiz olduqca ağırdır, həyat yoldaşım bir neçə il əvvəl avtomobil qəzası keçirib, kəllə sümüyü 9 yerdən yarılıb, 1-ci qrup əlildir, cəmi 250 manat pensiya alır. Həyat yoldaşımın valideynləri ilə bir evdə qalırıq, onlar da ağır xəstədilər. Yoldaşımın pensiyası həm dolanışığımıza, həm də mənim dərmanlarıma xərclənir, heç çox vaxt öz dərmanlarını ala bilmir. Xəstəxana gah düzgün rəy yazmır, gah sənədi Komissiyaya yarımçıq göndərir, beləcə də vaxt gedir. Özüm xəstə, yoldaşım xəstə, iki azyaşlı uşaq, kasıbçılıq, qayğılar, bütün bunlara görə Bakıya şikayətə gedə bilmirik. Getsək belə, xeyri olmur. Bu yaxınlarda yoldaşım Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə getdi, ordan da "gedin, xəstəxana sənədləri göndərsin, baxaq", - deyib, yola saldılar. Xəstəxana da dediyim kimi, sənədləri eyni qaydada - natamam yazıb göndərir. Nazirlik həmin sənədlərə əsaslanıb əlillik dərəcəsi təyin edə bilmir", - şikayətçi vurğulayıb.

Fəridə xanım deyib ki, adamlar əlillik dərəcəsi təyin edilməsi üçün xəstəxanaya 500, 100 manat rüşvət verib rəy alırlar: "Həkimlər deyir, ayda əlillik dərəcəsi təyin edilməsi üçün rüşvətlə 23-25 adama rəy verilir. Deyirlər, gərək yuxarıdan da tapşırıq ola ki, bu rəylər verilə... Hər ay Bakıya gedirəm, Qanköçürmə İnstitutunda mənə qan köçürülür. Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun epiqrizində də xəstəliyim barədə ətraflı məlumat qeyd olunub. Talassemiya sağalmaz qan xəstəliyidir. Bu xəstəliyə tutulan adama ömrünün sonunadək qan vurulur. Həkimlər deyir, əlillik dərəcəsinin təyin olunması bu xəstəliyin təsiri altına düşür, buna görə mənə 2-ci qrup əlillik təyin olunmalı, xəstəliyə görə ömürlük müavinət verilməlidir. Hazırda bu müavinətin məbləği 130 manatdır. Versələr, dərmanlarımı özüm alaram, yoldaşım da pensiyası ilə öz dərmanlarını alar, hər dəfə dərmanlarına görə pul axtarmaz. Pensiyası mənim dərmanlarıma xərclənir deyə, özü bəzən aylarla dərmanlarını alıb qəbul edə bilmir, vəziyyəti ağırlaşır. Adamın kəlləsində 9 yerdən sınıq var, dərmanlarını vaxtında qəbul etməlidir ki, həyatda qalsın".

Saatlı rayon Mərkəzi Xəstəxanasından isə həmin vaxt bildirilib ki, Fəridə İsayevadan rüşvət istənilməyib, sənədləri də saxtalaşdırılmayıb. Sənədlər aidiyyəti quruma göndərilərkən natamam doldurulub, vacib olan kod texniki səbəbdən qeyd edilməyib. Qeyri-iş günləri bitdikdən sonra sənədlərin tamamlanıb göndərilməsi təmin olunacaq.

Mətbuatda vətəndaşların bu səhiyyə ocaqlarından giley-güzarlarının əbəs olmadığını isə rəsmi faktlar da təsdiqləyir. Məsələn, yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, elə talassemiyadan əziyyət çəkən xəstənin şikayətçi olduğu Saatlı rayon Mərkəzi Xəstəxanasının direktoruna qarşı cinayət işi açılıb.

Saatlı rayon prokurorluğundan KİV-ə verilən xəbərə görə, rayon Mərkəzi Xəstəxanasının direktoru Səidə Şahpələngovanın qanunsuz hərəkətləri barədə daxil olmuş müraciətlər əsasında Saatlı rayon prokurorluğunda araşdırma aparılıb.Araşdırmalarla Səidə Şahpələngovanın direktoru olduğu xəstəxanada bəzi işlərin yerinə yetirilməsi üçün nəzərdə tutulmuş maliyyə vəsaitini təyinatı üzrə istifadə etməyərək əsassız olaraq xərcləməsinə, bəzi həkim və tibb bacılarının işə gəlmədiyi halda saxta tabel yazılmaqla onlara əməkhaqqı ödənilməsinə əsaslı şübhələr müəyyən edilib.Qeyd edilən faktlarla bağlı Saatlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə), 179.2.4 (xeyli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Aydın görünür ki, Oqtay Şiraliyevin rəhbərlik etdiyi Səhiyyə Nazirliyi şəhər və rayon mərkəzi xəstəxanalarına nəzarəti xeyli dərəcədə itirib. Əks təqdirdə həmin tibb müəssisələri KİV-də və cəmiyyət arasında bu qədər ittiham, tənqid hədəfinə çevrilməzdi. Yox, əgər Şiraliyevin nazirliyi mərkəzi xəstəxanaların vətəndaşlara keyfiyyətli xidmət göstərməsi, rüşvət və korrupsiyadan təmizlənməsi üçün lazımi addımlar atırsa, ancaq bunlar nəticəsiz qalırsa, belə çıxır, baş həkimlər hörmətli nazirin iradəsinə dırnaqarası yanaşırlar. Lakin istənilən halda yaşananlar ölkə səhiyyəsi baxımından xoşagəlməz mənzərədən xəbər verir...

***Sənan Mirzə***

# Şimaldan Azərbaycana qarşı informasiya həmləsi

***Rusiyanın "Nezavisimaya qazeta" nəşri bir neçə gün öncə 500 suriyalı döyüşçünün Azərbaycana gətirilməyi ilə bağlı məlumat yayıb. Qəzet iddi edir ki, onların əsasən türkmeyilli Azad Suriya ordusu, "Sultan Murad" və "Həmzət" silahlı qruplaşmalarının nümayəndələridir. Nəşrdə daha sonar Bakıda türk ordusunun Azərbaycana dəvət olunması ilə bağlı aksiyadan da bəhs edilib. Belə görünür ki, Rusiyada müəyyən dairələr Türkiyə-Azərbaycan münasibətlərindən narahatdırlar və bu səbəbdən də rəsmi Bakıya qarşı informasiya həmləsi ilə çıxış edirlər. Ümumiyyətlə, son vaxtlar Rusiyanın bəzi mətbuat orqanlarında Azərbaycana qarşı iftira dolu yazıların və məlumatların sayca xeyli artdığı müşahidə olunur.Bəzi ekspertlər hesab edirlər ki, bu məsələnin arxasında erməni lobbiçilərinin, erməni maliyyə dairələri dayanır.***

Azərbaycanın Rusiyadakı səfirliyi "Nezavisimaya qazeta"da Azərbaycan əleyhinə yayılan məqalə ilə bağlı məlumat yayıb. Qəzetin şərhçisi Vladimir Muxinin guya suriyalı döyüşçülərin Azərbaycanda Ermənistana qarşı müharibəyə hazırlaşdığı barədə yalan fikirlərlə dolu məqaləsi ilə bağlı "Nezavisimaya qazeta"da səfirliyin mətbuat xidmətinin məlumatı dərc olunub. Məlumatda bildirilib ki, məlum məqalənin



**Əhəd Məmmədli: "Rusiyada olan səfirimiz "daha vacib işlərlə" məşğul olduğu üçün təbliğatımıza "öz qızıl" vaxtını ayıra bilmir"**

məzmunu bir tərəfə qalsın, başlığı Azərbaycan cəmiyyətində mənfi rezonans doğurub: "Məqalə ilə tanış olduqda onun siyasi cəhətdən səhv və qərəzli olduğu görünür. Fikrimizcə, bu məqalə hazırlanan zaman əxlaqsız priyomlardan istifadə olunub, yeganə məqsəd oxucunu yanıltmaqdır. Hesab edirik ki, təqdim olunan material ehtimal və fərziyyələrə söykənir, hər hansı bir faktoloji əsası yoxdur. Eləcə də məqalədə bu yaxınlarda Azərbaycan-Türkiyə hərbi təlimlərinin keçirilmə faktını xarici hərbi bazanın ölkədə yerləşdirilməsi üçün əsas kimi təqdim etmək cəhdini görmək olar".

Qeyd olunub ki, Azərbaycanın Müdafiə Nazirliyi rəsmi bəyanatla çıxış edərək ölkəyə suriyalı döyüşçülərin yerləşdirilməsi ilə bağlı məlumatı qətiyyətlə təkzib ediblər. Azərbaycan XİN də oxşar bəyanatla çıxış edib. Həmin bəyanatda məlum məqalənin böhtan və dezinformasiya xarakteri daşıdığı, Azərbaycana qarşı çirkin kampaniyanın təzahürü olduğu vurğulanıb ."Xüsusilə qeyd etmək lazımdır ki, hazırda Azərbaycan Rusiya münasibətlərinin yüksək səviyyəsi və ikitərəfli əməkdaşlığın mövcud potensialı beynəlxalq və regional gündəmdə duran bütün mürəkkəb məsələləri həll etməyə imkan verir, - deyə Azərbaycan səfirliyinin məlumatında bildirilib.

**Ağ Partiyanın sədr müavini, politoloq Əhəd Məmmədli "Unikal" qezetinə açıqlamasında deyib ki,** aprel döyüşləri zamanı da ermənilər təbliğat aparırdılar ki, güya azərbaycanlıların tərəfində döyüşçülər vuruşur,



**Elxan Şahinoğlu: "Sifarişin elə Kremldən verildiyi aydındır, "Nezavisimaya qazeta"ya dövlət əhəmiyyətli sifarişli yazılar əsasən Rusiyadan ötürülür"**

amma belə bir şey yox idi. Onun sözlərinə görə, rus mediası ermənilərin əlindədir: "Nəinki KİV ümümiyyətlə Rusiya hayların nəzarətindədir. Rusiya Federasiyasının baş və xarici işlər nazirləri erməni əsilli Mişustyan (Mişustin) və Kalantaryandır (Lavrov). Mən bunları ona görə söyləyirəm ki Rusiyada ermənilərin nə qədər güclü olduğunu təssəvürümüzə gətirək. Ona görə də rus mediasında bu cür məqalələrə təəccüblənməməliyik. Rusiyadan bu cür anti-Azərbaycan həmlələr çox görmüşük hələ də görəcəyik. Unutmamalıyıq ki, Rusiya Azərbaycanın düşməni Ermənistanla rəsmi siyasi-iqtisadi-hərbi ittifaqdadır. Rusiyanın PKK-YPQ-PYD terror təşkilatları ilə də rəsmi münasibət qurması Türkiyənin Qarabağ münaqişəsində Azərbaycanın yanında olmasına bir cavab idi. Bütün bunlar Rusiyanın Azərbaycanın dostu olmamasının göstəricisidir. Bütün bunlara rəğmən yaxşı olardı ki, rus KİV-lərində Azərbaycan yönümlü məqalələr də dərc edilsin. Bunun üçün Rusiyada olan səfirimiz çalışmalıdır, amma görünür o "daha vacib işlərlə" məşğul olduğu üçün təbliğatımıza "öz qızıl" vaxtını ayıra bilmir. MN-in açıqlamasını müsbət dəyərləndirirəm lakin gərək bununla paralel XİN və Rusiyadakı səfirimiz də sərt cavab verməli idi. Hələ gec deyil bunu edə bilərlər. Ümümiyyətlə, XİN-də təcili sürətdə təmizləmələr başlamalıdır, ilk öncə Bülbüloğlu çağırılıb yerinə peşəkar diplomat ya da siyasətçi göndərilməlidir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bildirib ki,** Rusiyanın "Nezavisimaya qazeta" qezetində yayımlanan məqalədə əsas iki tezis diqqət çəkir:

"Birincisi, guya 500 nəfərə yaxın türkmən əsilli suriyalı döyüşçü Azərbaycana gətirilib. İkincisi, Türkiyənin Naxçıvanda döyüş təyyarələrindən ibarət gücləndirilmiş hərbi bazası var.- Türkmən əsilli suriyalı döyüşçülər bu gün elə öz vətənlərinə və Türkiyəyə lazımdırlar ki, PKK və onun törəmə təşkilatlarıyla mübarizəni davam etdirsinlər. Onları bu müqəddəs işdən ayırmaq olmaz. Bunu Moskvada da anlayırlar. Ermənistan hakimiyyəti ordusuna rəsmən muzdluları toplamağa çalışır. Bu bir dövlətin ordusunun hansı vəziyyətdə olduğunu göstərir. Görünür, erməni lobbisi və Moskvada onlara bağlı mərkəzlər "Azərbaycan da Suriyadan muzdldu toplayır" gedişi ilə bizə cavab verdiklərini zənn edirlər. Azərbaycan Müdafiə Nazirliyi qəzetdə yazılanları təkzib edib və məqalə müəllifini sifariş yerinə yetirməkdə ittiham edib. Sifarişin elə Kremldən verildiyi aydındır. "Nezavisimaya qazeta"ya dövlət əhəmiyyətli sifarişli yazılar əsasən Kremldən ötürülür. Bunu Rusiyanın ekspert dairələrində bilməyən yoxdur. Bəs bu yazı nəyə xidmət edir?Moskva Bakının "sərhəddəki insidentdən sonra Ermənistana nə məqsədlə 400 ton yük daşımısız" iradına "Nezavisimaya qazeta" vasitəsilə cavab verib ki, "Siz də Türkiyənin hərbi bazalarına yaşıl işıq yandırırsız". Müdafiə Nazirliyinin bəyanatında belə bir cümlə var: "Müdafiə Nazirliyi olaraq rəsmi surətdə bildiririk ki, Azərbaycan ərazisində nə hər hansı xarici ölkənin hərbi bazası, nə də heç bir digər qeyri-qanuni silahlı birləşmə yoxdur".

Politoloq onu da vurğulayıb ki, həmin məqaləni yazdıran sifarişçiyə Bakının elə bu təkzibi lazım idi: "Yazıdakı tezislər təkzib edilməklə yanaşı Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlığın inkişafının labüd olduğu da vurğulanmalıydı. Çünki bir gün Türkiyənin həqiqətən Naxçıvanda hərbi bazası formalaşarsa buna bizim tam haqqımız çatır, həmin məqalədən müəllifi deyəcək ki, bunu əvvəlcədən yazıb. Məqalə müəllifi yazıda bir neçə gün əvvəl Türkiyənin Bakıdakı səfirliyi qarşısında keçirilən mitinqdə səsləndirilən "Türkiyə ordusu Azərbaycanda qal!" şüarına istinad edib. Məqalə müəllifi şübhələnib ki, bu təşkil olunmuş mitinq idi. Bəli, Azərbaycan cəmiyyətində "Türkiyə ordusu Azərbaycanda qal!" istəyini dilə gətirənlər az deyil və bunu artıq gizlətmək mümkün deyil".

***Z.Məmmədli***



## Ermənistanın azərbaycanlı əhaliyə qarşı sudan ekoloji terror

***Təcavüzkar Ermənistan işğal etdiyi ərazilərimizdəki su ehtiyatlarından cəbhə xəttinə yaxın bölgələrdə yaşayan azərbaycanlı əhaliyə qarşı ekoloji terror vasitəsi kimi istifadə edilməsini daha da gücləndirir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Avropa Şurasının rəhbərliyinə Ermənistanın bu məkrli siyasətini ifşa edən məktub ünvanlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının mətbuata açıqlamasında bildirilir.

Məktubda Ermənistanın işğalı altında olan yuxarı Qarabağ bölgəsindən axan çayların qarşısını məqsədli şəkildə süni bəndlərlə kəsməsi, eləcə də Sərsəng su anbarından aşağı Qarabağ istiqamətində qanunsuz kanalların inşa edilməsi məsələləri öz əksini tapıb.

Vurğulanıb ki, təcavüzkar Ermənistan su resurslarını təzyiq vasitəsi kimi istifadə edərək çayların aşağı axarlarında məskunlaşmış əhalinin təsərrüfatla məşğul olmasını faktiki mümkünsüz etmişdir. Belə ki, qış aylarında xüsusilə Sərsəng su bəndinin qarşısı açılaraq, təsərrüfata yararlı torpaqlar süni sellə erroziyaya məruz qoyulur. Yay aylarında - təsərrüfat suyuna ehtiyacın ən çox olduğu dövrdə - təcavüzkar Ermənistan suyun qarşısını kəsərək süni quraqlıq yaradır və beləliklə, kənd təsərrüfatına, eləcə də flora və faunaya ciddi zərbə vurur.

Məktubda Avropa İnsan Haqları Məhkəməsinin 2015-ci il "Çıraqovlar və digərləri Ermənistana qarşı" məhkəmə işinin yekun qərarına və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2016-cı il tarixli, 2085 saylı "Cəbhə bölgələrindəki azərbaycanlı əhali sudan məqsədli şəkildə məhrum edilir" başlıqlı qətnaməsinə istinad edilərək, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozması ifşa edilib.

Son olaraq məktubda, AŞPA baş verənləri yaxından izləməyə, eləcə də Ermənistanın bütün bölgəni humanitar və ekoloji fəlakətə aparan bu məkrli davranışlarına dərhal son qoyması üçün təxirəsalınmaz addımlar atmağa çağırılıb.

***Zaurə***



# Aİ Lukaşenkonu sanksiyalar siyahısına salmayacaq

***Avropa İttifaqı (Aİ) Belarus Prezidenti Aleksandr Lukaşenkonu sanksiyalar siyahısına salmayacaq.***

Bu barədə “Die Welt” qəzeti öz mənbələrinə istinadən məlumat yayıb.

Məlumatda bildirilir ki, bunun əsas səbəbi Almaniyanın, həmçinin Fransa və İtaliyanın tutduğu mövqedir.

# Seçkiyə müdaxiləyə görə daha sərt cəzalar qəbul olunub - Gürcüstanda

***Gürcüstan parlamenti ölkənin Seçki Məcəlləsinə düzəlişləri sürətləndirilmiş qaydada üçüncü oxunuşda qəbul edib.***

Hakim Gürcü Arzusu Partiyasının təşəbbüskarı olduğu qanun layihəsini 81 deputat dəstəkləyib.

Müxalif Vahid Milli Hərəkat və Avropalı Gürcüstan partiyaları səsvermədə iştirakdan imtina ediblər.

Layihəyə əsasən, seçicilərin səs verməsi ilə bağlı məcburetmə, hədə-qorxu və səsvermə gizliliyinin pozulmasına görə cəzaların sərtləşdirilməsi nəzərdə tutulub.

Bu cür pozuntulara yol verən şəxslərə qarşı cərimələr və ya 6 aydan 2 ilədək ev dustaqlığı, yaxud da 3 ilədək həbs cəzası tətbiq olunacaq.

# NATO Baş katibi: "Yunanıstan və Türkiyə danışıqlara razılıq verdi"

***Yunanıstan və Türkiyə Şərqi Aralıq dənizində insident və toqquşma riskinin azaldılması üçün mexanizmin yaradılması ilə bağlı texniki danışıqların başladılmasına razılıq verib.***

APA-nın xəbərinə görə, bu barədə NATO-nun Baş katibi Yens Stoltenberq bəyanat yayıb.

O bildirib ki, hər iki ölkənin liderləri ilə danışıqlardan sonra Yunanıstan və Türkiyə Şərqi Aralıq dənizində insident və toqquşma riskini azaltmaq üçün hərbi dekonflikasiya ilə bağlı mexanizmin yaradılması istiqamətində NATO-da texniki danışıqlara getməyə razılıq veriblər.

"Yunanıstan və Türkiyə dəyərli müttəfiqlərdir, NATO isə bizim ortaq təhlükəsizliyimizə təsir edəcək bütün məsələləri müzakirə etmək üçün vacib platformadır. Gərginliklərə NATO-nun həmrəyliyi ruhunda həll tapılması üçün mən bütün müvafiq tərəflərlə yaxın təmasdayam", -deyə NATO Baş katibi bildirib.

# Ermənistanda koronavirusdan 4 nəfər də öldü

***Ermənistanda son sutka ərzində 190 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxub.***

APA-nın “Sputnik Armenia”ya istinadən verdiyi məlumata görə, bununla da Ermənistanda COVID-19-a yoluxanların ümumi sayı 44 461 nəfərə çatıb.

Ermənistanda son sutkada daha 4 nəfər koronavirusdan ölüb və xəstəlikdən ölənlərin sayı 891 nəfərə çatıb.

# RUSİYAYA QARŞI YENİ SANKSİYALAR

## Navalnının zəhərlənməsi Avropa İttifaqı rəsmilərini hərəkətə gətirib

***Avropa Rusiya səlahiyyətlilərinin düşmənçiliyini dərk etməli və Moskvaya qarşı artıq “dialoq”, “tərəfdaşlıq” və “kompromis” kimi sözlərdən istifadə etməməlidir. Polşa baş naziri Mateuş Moravietski müxalifət lideri Aleksey Navalnının “Noviçok”dan zəhərlənməsi barədə məlumatları şərh edərkən buna çağırıb. Qonşu Litvanın səlahiyyətliləri məsələni növbəti Aİ zirvəsində qaldırılacağına söz veriblər. Bununla birlikdə, əksər Avropa ölkələri hələ də təmkinli mövqe tutur və Moskvanı hadisəni araşdırmağa çağırır.***

Söz düşmüşkən, Rusiya səlahiyyətliləri, nəhayət, müdafiə xəttini inkişaf etdirmiş kimi görünürlər, onlar bunun “düşünülmüş təxribat” olduğunu iddia edirlər. Eyni zamanda, Moskva gözlənilməyən yerdən, Minskdən dəstək alıb.



“Gürcüstan - 2008, Krım və Donbass - 2014-cü ildən bəri, MH17, Salisböri - 2018, Berlin - 2019, Navalnı - 2020”, - deyə Polşa baş naziri Mateuş Moravetski “Twitter” hesabında Qərb və Moskva arasındakı münasibətlərdə əsas “ağrı nöqtələri” sadalayıb. “Düşmən rejimlə qarşılaşdığımızı, nəhayət, başa düşmək üçün daha neçə siqnala ehtiyacımız var?” Eyni zamanda, cənab Moravetski özü suala cavab verməyə qərar verib: “Dialoq, tərəfdaşlıq, kompromis - Rusiya Federasiyasının səlahiyyətliləri üçün yad sözlərdir. Nəticə çıxartmağın vaxtı çatıb”.

“Bizə ümumavropa təpkisi lazımdır”. Bunu hakim koalisiyanın üzvü, Almaniya parlamentinin beynəlxalq məsələlər üzrə komitəsinin rəhbəri Norbert Rötgen bildirib. O, “siyasi cəhətdən sərt davranmağa” və “Putinin anladığı yeganə dildə - qaz tədarükü dilində cavab verməyə” çağırıb.

Bənzər bir mövqeyi təmkinliliyi ilə məşhur olan Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinger də dilə gətirib. Onun sözlərinə görə, Şərqlə Qərb arasında divar çəkməyə ehtiyac yoxdur, ancaq diplomatların qovulması kimi sadə diplomatik tədbirlər əvəzolunmazdır. “Əgər tərəfdaşlarımızla birlikdə Moskvaya açıq bir siqnal göndərmək istəyiriksə, iqtisadi əlaqələr, o cümlədən “Nord Stream 2” qaz kəməri gündəmə gətirilməlidir”.

Kremlə qarşı ittihamlar Vaşinqtondan da səslənib, amma ABŞ prezidenti Donald Trampdan deyil, 2020 seçkilərindəki demokrat rəqibi Co Baydendən. “Kreml siyasi rəqibini susdurmaq üçün bir daha sevimli silahı olan “Noviçok” sinfinə aid kimyəvi maddədən istifadə edib”. Ağ Evin indiki rəhbərinin susmasının Bayden Kremlə güzəştə gedilməsi kimi səciyyələndirib. “Prezident olandan sonra Donald Trampın rədd etdiyini edəcəyəm: müttəfiqlərimiz və tərəfdaşlarımızla birlikdə Putin rejiminin cinayətlərinə görə məsuliyyət daşıması üçün çalışacağıq”.

Yeri gəlmişkən, Rusiya səlahiyyətliləri və müttəfiqləri Aleksey Navalnının başına gələnlərin tamamilə fərqli mənzərəsini çəkirlər.

Rusiyanın Böyük Britaniyadakı səfiri Andrey Kelin jurnalistlərə deyib: “Hər şey düşünülmüş təxribata bənzəyir. Hər dəfə avropalılarla daha konstruktiv əlaqələr qurmağın mümkünlüyünü görmək üçün səbəbimiz olduqda, bu işi pozan bəzi hadisələr baş verir. Eyni şey indi oldu”.

“Baş verənlər, bunun nəticəsində yeni sanksiyalar tətbiq etmək və ölkəmizin inkişafını məhdudlaşdırmağa çalışmaq üçün Rusiyaya qarşı planlı bir hərəkət olduğunu getdikcə sübut edir”, - deyə Dövlət Dumasının sədri Vyaçeslav Volodin onunla razılaşıb. - Avropa İttifaqı və NATO dövlətləri açıq-aşkar Rusiya iqtisadiyyatının ildən-ilə güclənməsini, dünya proseslərinə təsirinin artmasını sevmədiklərindən Rusiya Federasiyasının öz mövqeyi var və onu müdafiə etməyə hazırdır”.

Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin Aleksandr Lukaşenkonun gözlənilməz açıqlamasına münasibət bildirib. Belarus prezidentinin sözlərinə görə, ölkənin elektron hərbi kəşfiyyatı (kiminlə birlikdə olduğu dəqiqləşdirilmir) Varşava ilə Berlin arasındakı danışığı ələ keçirib. “Aleksey Navalnının zəhərlənməsi saxtakarlıqdır”.

Narışkin deyib: “Prezident Lukaşenko bunu deyibsə, deməli, bunun üçün müvafiq əsasları var. Mən bu rəylə razılaşıram”.

Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov da, öz növbəsində, Minskdən gələn məlumatların Moskva üçün yenilik olduğunu açıq şəkildə bildirib. “Lukaşenko bunu yeni elan edib. Materialın Rusiya Federasiyasının FSB-nə veriləcəyini söyləyib. Hələ ki başqa bir məlumat yoxdur”, - Peskov “RİA Novosti”-yə bildirib. Eyni zamanda o qeyd edib ki, “Rusiya dövlətinin qarşı ittihamlar barədə danışmaqdan ehtiyat edərdim, axı, heç bir ittiham yoxdur və Rusiya dövlətinə qarşı ittihamlara heç bir səbəb yoxdur. Bununla əlaqəli hər hansı bir ittihamı qəbul etməyə də meylli deyilik”.

Moskvaya qarşı birbaşa ittihamların irəli sürüləcəyi və ən əsası bu səbəbdən yeni sanksiyaların tətbiq ediləcəyi daha sonra aydın olacaq. Almaniya kansleri Angela Merkel Berlinin bundan sonrakı addımlarının Rusiyanın addımlarından asılı olduğunu təsdiqləyib. Bənzər bir şəkildə Avropa Komissiyasının sözçüsü Peter Stano da danışıb. “Kiminsə istər cəmiyyətimizdə, istərsə də Rusiya cəmiyyətində mövcud olmamalı kimyəvi müharibə agenti ilə bir sui-qəsdə məruz qalması anormal, qəbuledilməzdir”. O, Aİ-nin bütün suallara cavab verən hərtərəfli bir araşdırma istədiyini söyləyib. “Cavabdehlər olmadığı təqdirdə, cəza haqqında danışmaq çətindir”.

Ancaq Stano Anna Politkovskaya, Sergey Maqnitski və Boris Nemtsov kimi “Kremlin tanınmış tənqidçiləri”nin cinayətləri ilə bağlı Rusiyanın araşdırmalarının o qədər də uğurlu olmadığını qeyd edib.

Çoxtərəfli platformada Aleksey Navalnı ilə bağlı vəziyyətin ilk müzakirəsi Cümə günü baş tutacaq. NATO-nun mənzil-qərargahında planlaşdırılmamış toplantı alyansa üzv ölkələrin səfirləri tərəfindən keçiriləcək.

Avropa Şurası Parlament Assambleyası Hüquq Komitəsinin iclasının isə sentyabrın 9-da keçirilməsi planlaşdırılır. Daha yüksək səviyyədə, Moskva ilə Qərb arasında onsuz da çətin olan münasibətləri əhəmiyyətli dərəcədə çətinləşdirmək təhlükəsi yaradan vəziyyət sentyabrın 24-də Aİ sammitində müzakirə ediləcək. Cümə axşamı Litva Prezidenti Gitanas Nauseda bu “son dərəcə vacib mövzunu” qaldırmaq istədiyini bildirib.

***Aleksey Naumov,***
***Pavel Tarasenko***
***“Kommersant” 04.09.2020***

***Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələ aktiv fazaya keçib

## Fərəc Quliyev: "Münaqişə ilə bağlı danışıqlarda iştirak edən ölkənin, Rusiyanın Ermənistana silah satması isə artıq həmin ölkənin Ermənistanın torpaqlarımızı boşaltmaq məsələsinə mane olduğunu sübut edir"

***Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 27 ildir ki, davam etməsi artıq işğala məruz qalan Azərbaycan tərəfinin səbrini tükəndirib. Son günlər Ermənistanın silahlandırılması isə bu münaqişənin illərdir ki sülh yolu ilə həll olunmasının tərəfdarı olan Azərbaycanı daha da hiddətləndirib. Müharibənin hər zaman qaçılmaz olduğunu dəfələrlə bəyan edən Azərbaycan tərəfi bununla belə münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində siyasətini davam etdirir. Amma son günlər işğalçı ölkənin silahlandırılması bəzi ekspertlərin fikrincə, danışıqlar yolu ilə münaqişənin həll olunmasını istəyən Azərbaycanın hər zaman aktual olan müharibə yoluna əl atacağını qaçılmaz edir.***

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev deyir ki, Azərbaycan hər zaman Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həll olunması mövqeyini tutub: "Azərbaycan elə bir ölkədir ki, heç bir qonşu dövlətlərə qarşı münasibətində qərəz yoxdur. Amma Ermənistan Azərbaycanın torpaqlarının 20 faizdən çoxunu işğal edib. Son illər ölkəmiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli istiqamətində xeyli iş görüb. Artıq dünyanın əksər ölkələri, nüfuzlu beynəlxalq təşkilatlar Ermənistanı təcavüzkar dövlət kimi tanıyıb. Dağlıq Qarabağ həqiqətlərindən dünya ictimaiyyəti xəbərdardır. BMT-nin də Qarabağla bağlı 4 qətnaməsi var. Həmin qətnamələrdə Ermənistanın işğalçı olduğu göstərilib. Həmin dövlətlər də bu qətnamələrə səs veriblər. Bununla belə Ermənistan hər dəfə bir yolla danışıqlar prosesinə mane olmağa nail olur. Bu isə Ermənistanın təcavüzkar olduğunu bir daha təsdiqləyir. Son illər Ermənistanın silahlandırılması isə Dağlı Qarabağ münaqişəsi ilə bağlı məsələnin aktiv fazaya keçməsinə gətirib çıxardıb. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda iştirak edən ölkənin, Rusiyanın Ermənistana silah satması isə artıq həmin ölkənin Ermənistanın torpaqlarımızı boşaltmaq məsələsinə mane olduğunu sübut edir. Belə olan halda Dağlıq Qarabağ münaqişəsinin danışıqlar məcrasından çıxıb müharibə yolu ilə həll edilməsi qaçılmaz olur".



F. Quliyev deyir ki, Azərbaycanın davamlı olaraq artan gücü, beynəlxalq nüfuzu, hərbi qüdrəti, diplomatiyamızın uğurları və bütün bunların məntiqi nəticəsi olaraq dünya birliyinin ermənilərin mənfur siyasətinin həqiqi sifətini tanıması Ermənistanı və onun tərəfdarlarını narahat edir. Bununla belə Dağlıq Qarabağ probleminin həlli ilə bağlı heç bir irəliləyiş müşahidə olunmur. Odur ki, Azərbaycan danışıqları davam etdirsə də, müharibə yolu ilə münaqişənin həlli hər zaman aktualdır.

Qeyd edək ki, Azərbaycanın xarici siyasət kursunda Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, ölkənin ərazi bütövlüyünün təmin olunması hər zaman bir nömrəli problem - əsas vəzifə kimi qarşıya qoyulub. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva xarici ölkələrə rəsmi səfərlərində, beynəlxalq əhəmiyyətli tədbirlərdə ən yüksək tribunadan Dağlıq Qarabağ problemi barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırıb, münaqişənin tənzimlənməsi üçün danışıqlar aparıblar. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, bu problemin daim gündəmdə saxlanılması üçün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sistemli və ardıcıl iş aparılır. Dəfələrlə bəyan edilib ki, Dağlıq Qarabağ münaqişəsi hər kəsdən, hər bir dövlətdən daha çox bizim problemimizdir. Dünya dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə dəstəkləyirlər. Ölkə başçısı son fəaliyyəti ilə bütün dünyaya bir daha nümayiş etdirir ki, Azərbaycanın həm daxili gücü, sabitliyi, əmin-amanlığı, iqtisadi gücü, xalq-iqtidar birliyi, həm də hərbi qüdrəti var və xalq savaşa hazırdır. Həmsədr dövlətlər beynəlxalq Konvensiyalara, BMT Nizamnaməsinin müvafiq maddələrinə, indiyə qədər icra olunmayan məlum 4 qətnaməyə uyğun olaraq işğalçı Ermənistanı məcbur etməlidirlər ki, Azərbaycan ərazilərini azad etsin. Əks təqdirdə, Azərbaycan hərbi yolla işğal altındakı əraziləri azad edəcək, ərazi bütövlüyünü təmin edəcək. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın qəti mövqeyini dəfələrlə bəyan edib. Qəti şəkildə bildirib ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç bir halda imkan verilməyəcək!

Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli üçün Prezident İlham Əliyevin atdığı addımlar, keçirdiyi görüşlər, daxili və xarici siyasət birmənalı olaraq dəstəklənir. Heç kəsə sirr deyil ki, güclü Azərbaycan Ordusu işğal altındakı ərazilərimizi müharibə yolu ilə azad etməyə tam qadirdir. Məhz cənab Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə əlaqədar müvafiq bəyanatlar veriblər. Ermənistan Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməklə yanaşı, düşmən ölkənin mediası Dağlıq Qarabağ və ətraf ərazilər, onların tarixi haqqında yalan məlumat yayır, başqa sözlə tarixi saxtalaşdırır. Həmçinin Ermənistan xəbər agentlikləri Azərbaycan və onun ordusu haqqında heç bir reallığa uyğun olmayan məlumatları tirajlamaqdan çəkinmir. Bütün bunlar dünya ictimaiyyətini çaşdırmağa yönəlsə də, artıq Azərbaycan öz sərt tələbini irəli sürərək danışıqların yeni müstəvidə davam etdirilməli olduğunu bəyan edib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrovla birgə keçirilən mətbuat konfransında bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar konkret məsələlər ətrafında aparılmalıdır. Nazir bildirib ki, Azərbaycan münaqişənin siyasi yolla həllinin tərəfdarıdır: "Münaqişənin həlli ilə bağlı kifayət qədər hüquqi baza mövcuddur. Danışıqlar beynəlxalıq təşkilatlar tərəfindən qəbul olunan sənədlərə, ilk növbədə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə və digər beynəlxalq təşiklatlar tərəfindən son illərdə qəbul edilən bir sıra sənədlərə uyğun olaraq aparılmalıdır.Bu nöqteyi nəzərdən biz danışıqlar prosesinin davam etdirilməsinin tərəfdarıyıq, lakin danışıqlar konkret məsələlər ətrafında aparılmalıdır, danışıqlar prosesi sustantiv olmalıdır, danışıqlar prosesinin imitasiyası olmamalıdır. Danışıqlar prosesinə zərər gətirən bütün hərəkətlər və bəyanatlar beynəlxalq ictimaiyyət, ilk növbədə Minsk qrupunun həmsədləri tərəfindən pislənməlidir".

Bütün bunlar onu göstərir ki, Azərbaycan Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yönündə illərlə apardığı işi davam etdirsə də, torpaqlarımızın müharibə yolu ilə işğaldan azad edilməsi bir variant olaraq hər zaman aktualdır. Ermənistanın yeganə yolu isə işğal edilmiş Azərbaycan torpaqlarından silahlı birləşmələrini geri çəkməkdir. Əks halda Azərbaycan müharibə yolu ilə işğal edilmiş ərazilərini azad edəcək və ərazi bütövlüyünü təmin edəcək. Çünki, Ermənistanın təcavüzkar siyasəti tək Azərbaycan üçün deyil, bütünlükdə regionun təhlükəsizliyi, stabilliyi üçün problemdir.

# İsmayıllıda bələdiyyə sədri həbs edildi



***Ölkəmizdə həyata keçirilən islahatlara kölgə salan vəzifəli şəxslər tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək qanun pozuntuları törədilməsi hallarına qarşı prokurorluq orqanlarının mübarizə tədbirləri davam etdirilir.***

Bu barədə "Unikal"a İsmayıllı rayon Prokurorluğundan bildirilib.

Məlumata görə, həmin tədbirlərdən biri kimi, İsmayıllı rayon Tircan bələdiyyəsinin sədri Əhməd Çələbiyevin bələdiyyə sədri işlədiyi dövrdə qanunsuz hərəkətləri barədə daxil olmuş müraciət əsasında İsmayıllı rayon prokurorluğunda araşdırma aparılıb.

Aparılan araşdırmalarla Əhməd Çələbiyevin 2016-2020-ci illər ərzində bələdiyyə sədri vəzifəsində işləyən zaman bələdiyyəyə məxsus 65 hektar torpaq sahəsini yalan məlumatlar daxil etməklə tərtib etdiyi icarə müqaviləsi əsasında 3 il müddətinə Əflatun Həsənova verməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı İsmayıllı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***Famil***

# Mahir Abdullayev həbs edildi

***İsmayıllı rayon polis şöbəsinə Lahıc qəsəbəsində yerləşən evlərin birindən naməlum şəxs və ya şəxslər tərəfindən oğurluq edilməsi barədə məlumat daxil olub.***

Bu barədə Teleqraf.com-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan bildirilib.

Məlumata görə, polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib və zərərçəkmişə məxsus evdən ümumi dəyəri 1350 manat olan müxtəlif məişət əşyalarının oğurlandığı müəyyən edilib.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq hadisəsini törətməkdə şübhəli bilinən rayonun Lahıc qəsəbə sakini, əvvəllər məhkum olunmuş Mahir Abdullayev saxlanılıb.

Araşdırma zamanı Mahir Abdullayevin digər cinayət əməllərinin də üstü açılıb.

Belə ki, onun Lahıcda yerləşən, sahiblərinin evdə olmadığı daha 2 evə qanunsuz daxil olaraq, həmin yerlərdən ümumi dəyəri 1500 manat olan müxtəlif məişət əşyaları və tikintidə istifadə olunan alətləri oğurladığı məlum olub.

Saxlanılan şəxs törətdiyi cinayət əməlini etiraf edib, həmin əşyaları dəyərindən ucuz qiymətə Şamaxı, Kürdəmir rayonlarında və Lahıc qəsəbəsində sataraq, əldə etdiyi pulu xərclədiyini bildirib.

Oğurlanmış əşyaların bir qismi maddi sübut kimi götürülüb.

Faktla bağlı İsmayıllı rayon polis şöbəsində cinayət işi başlanılıb və Mahir Abdullayevin digər cinayət əməllərində iştirakının olub-olmamasının müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Mingəçevirdə şok olay

***Mingəçevirdə qətl törətməkdə təqsirləndirilən Elnur İsayevin cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***

İş yekunlaşaraq Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Cinayət işi hakim Nahid Mirzəyevin icraatına verilib. Məhkəmənin hazırlıq iclasının vaxtı hələlik açıqlanmayıb.

Qeyd edək ki, bu il mayın 20-də 1982-ci il təvəllüdlü Mingəçevir şəhər sakini Fərqanə İsayevanın qohumunun evində bıçaqlanaraq öldürülməsi barədə daxil olan məlumat əsasında dərhal prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib.

Faktla bağlı şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

E.İsayev Mingəçevir Şəhər Polis Şöbəsinə könüllü gələrək təslim olub, cinayətin aləti olan bıçağı istintaq orqanına təqdim edib.

İstintaqla hadisənin zərərçəkmişin əri 1974-cü il təvəllüdlü Elnur İsayev tərəfindən qısqanclıq zəmnində aralarında yaranmış münaqişə zamanı törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

E.İsayev Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

# Polisə görə intihar edəcəyini deyən şəxslə bağlı rəsmi məlumat

***Avqustun 3-də muxalifət.az saytında dərc olunan "Rəis müavini məni intihar həddinə çatdırıb" başlıqlı yazıda Siyəzən şəhər sakini Rəşad Əliyev iddia edir ki, guya onun Siyəzən rayon Polis Şöbəsinin bir sıra əməkdaşları barədə aidiyyəti qurumlara yazdığı şikayət ərizələri ilə bağlı şöbənin rəis müavini Əhməd Nəcəfov ondan intiqam almağa çalışır.***



DİN mətbuat xidmətinin Quba regional qrupundan "Unikal"a daxil olan xəbərdə bildirilir ki, Rəşad Əliyev 2017-ci ilin oktyabr ayında narkotik maddələrin qanunsuz saxlanılmasında şübhəli bilindiyi üçün idarə etdiyi nəqliyyat vasitəsi ilə birlikdə rayon ərazisində saxlanılıb. Bu zaman həmin nəqliyyat vasitəsindən R.Əliyevə məxsus iki bükümdə olan qurudulmuş marixuana aşkarlanıb. O, Siyəzən rayon Məhkəməsinin qərarı ilə İnzibati Xətalar Məcəlləsinin 206-cı maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Bu ilin may ayında şikayətçinin qardaşı Elnur Əliyev rayon ərazisində narkotik maddələrin satışı ilə məşğul olmaqda şübhəli bilindiyi üçün idarə etdiyi nəqliyyat vasitəsi ilə Şabran rayonundan Siyəzən rayonuna gələndə saxlanılıb. Saxlanılarkən E.Əliyev məsuliyyətdən yayınmaq üçün üzərində gəzdirdiyi 4 ədəd kibrit qutusunda olan narkotik vasitəni nəqliyyat vasitəsinin yan şüşəsindən ataraq ərazidən uzaqlaşıb. Həmin şəxs istintaqa təqdim olunub. Aparılan istintaq hərəkətləri nəticəsində onun əməli sübuta yetirilib. Eyni zamanda istintaqın gedişində E.Əliyevin satış məqsədi ilə əldə etdiyi narkotik vasitənin mənbəyi də müəyyənləşdirilib və onu bu maddələr ilə təmin edən Şabran şəhər sakini Cavid Məmmədov da saxlanılıb. Saxlanılarkən C.Məmmədova məxsus fərdi yaşayış evindən isə 1 kiloqram 344 qram qurudulmuş marixuana, 5 qramdan artıq tiryək və 55 qram çətənə bitkisinin toxumları aşkarlanıb. Qeyd edilən faktlarla bağlı Siyəzən rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir.

Bundan bir müddət sonra Rəşad Əliyevin əmisi oğlu Siyəzən şəhər sakini Rövşən Əliyev də narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olduğu üçün saxlanılıb. Evinə keçirilən baxış zamanı oradan narkotik maddə olan heroin və metamfetamin aşkarlanaraq götürülüb. R.Əliyev barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi açılıb və o Siyəzən rayon Məhkəməsi tərəfindən həbs edilib.

Həmçinin regional qrupun məlumatında qeyd olunur ki, göründüyü kimi R.Əliyevin mətbuatda yayımladığı iddialar şər və böhtan xarakteri olmaqla Siyəzən rayon Polis Şöbəsinin fəaliyyətinə uğursuz kölgə salmaq cəhdidir.

# Dövlət əleyhinə çağırışlar edən bloggerin məhkəməsi başlayır

***Dövlət əleyhinə yönələn açıq çağırışlar etməkdə təqsirləndiirlən Elvin İsayevin cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.***



Teleqraf.com xəbər verir ki, cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

İş araşdırılması üçün hakim Əfqan Hacıyevin icraatına verilib. Məhkəmənin hazırlıq iclasının vaxtı hələlik açıqlanmayıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının vətəndaşı İsayev Elvin İltixam oğlu Ukrayna miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə 12 dekabr 2019-cu il tarixdə Azərbaycana deportasiya olunub.

Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaq edilən cinayət işi üzrə barəsində Nəsimi rayon məhkəməsinin 22 avqust 2019-cu il tarixli qərarı əsasında seçilmiş həbs qətimkan tədbirinin icrası ilə əlaqədar dekabrın 14-də Penitensiar xidmətin 1 saylı istintaq təcridxanasına yerləşdirilib.

Azərbaycan Respublikası ərazisində kütləvi iğtişaşlara və dövlət əleyhinə yönələn açıq çağırışlar etməsi faktları üzrə 15 avqust 2019-cu il tarixdə Azərbaycan Respubilkasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs Elvin İsayevin müdafiə hüququ cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada tam təmin edilərək xahişi əsasında Bakı şəhəri 12 saylı vəkil bürosunun vəkili Gülarə İlyasovanın iştirakı ilə ona ittiham elan edilib, ittihamın mahiyyəti, təqsirləndirilən şəxs kimi hüquq və vəzifələri izah olunmaqla dindirilib.

İstintaq orqanı tərəfindən Elvin İsayevin barəsində Cinayət Məcəlləsinin 220.2-ci (hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) və 281.2-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar - eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə ittiham elan edilib.

# Bakıda əməliyyat: Həbs olunanlar var

***Bakının Xəzər rayonunda əməliyyat keçirilib. Xəzər rayon Polis İdarəsinin 1-ci polis bölməsi əməkdaşları daxil olan məlumat əsasında keçirdikləri əməliyyat nəticəsində Bakı şəhər sakini, əvvəllər Cinayət Məcəlləsinin 234-cü (narkotik vasitələrin qanunsuz dövriyyəsi) maddəsilə məhkum olunmuş, 1963-cü il təvəllüdlü Famil Mehdiyev saxlanılıb.***

Üzərinə baxış keçirilərkən ondan 1,040 qram heroin və 0,525 qram narkotik maddə olan metamfetamin aşkar edilib. Bundan başqa, Nərimanov rayon Polis İdarəsinin 16-cı polis bölməsi əməkdaşları isə keçirdikləri əməliyyat nəticəsində Bakı şəhər sakinləri Eyvaz Aslanovdan 0,046 qram, Mirsəftər Aslanovdan isə 0,027 qram narkotik maddə olan heroin aşkar edərək götürüb. Hər iki faktla bağlı araşdırmalar davam etdirilir.

# Azərbaycanda banklarla bağlı 100 minə yaxın iş geri çəkilib - RƏSMİ

***Bu ilin 6 ayında icrada olan 700 mindən çox işin yarısı problemi kreditlərlə bağlı olub.***




"Unikal"ın məlumatına görə, bunu Ədliyyə Nazirliyi Baş idarəsinin Kredit borcları şöbəsinin rəis əvəzi Emin Veysov bildirib.

E.Veysov deyib ki, ölkə başçısının problemli kreditlərlə bağlı göstərişindən sonra banklarla bağlı 100 minə yaxın iş geri çəkilib.

Onun sözlərinə görə, kommersiya banklarına borclu vətəndaş ona verilən 10 günlük müddətdə könüllü şəkildə kredit borcunu ödəmir.

E.Veysov deyib ki, buna görə də kreditlərin məcburi şəkildə ödətdirilməsi işləri həyata keçirilir.

# "Səyyar Aqro Məktəb" layihəsinin icrasına başlanılır

***"Aqrar İnkişaf Könüllüləri" Təşkilatının təşkilatçılığı, Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə "Səyyar Aqro Məktəb" layihəsinə start verilir.***

Bu barədə "Unikal"a Kənd Təsərrüfatı Nazirliyindən bildirilib. Aqrar sahədə ilk dəfə reallaşdırılacaq "Səyyar Aqro Məktəb" layihəsi çərçivəsində "Zoom" platforması vasitəsilə təsərrüfat sahələrində onlayn formatda təlimlər həyata keçiriləcək.

Ölkəmizdə dinamik şəkildə inkişaf edən aqrar sahəyə marağın daha da artırılması və mütəxəssislərin yetişdirilməsi mühüm əhəmiyyət kəsb etdiyindən kənd təsərrüfatının əsas istiqamətlərindən olan heyvandarlığın inkişafı, məhsul istehsalının artırılması, gənc fermerlərin yetişdirilməsi əsas hədəflərdəndir.

Layihənin əsas məqsədi regionlarda yaşayan gənclərin aqrar sahə üzrə bilik və bacarıqlarının artırılmasına nail olmaqdır. Layihəyə əsasən, kənd təsərrüfatı sahəsi üzrə biliklərin müfəssəl şəkildə gənclərə çatdırılması nəzərdə tutulur. Bu məqsədlə "Səyyar Aqro Məktəb" layihəsi çərçivəsində Zaqatala, Şəki, Qax, Balakən, Oğuz və Şamaxı rayonlarında təlim və görüşlər təşkil ediləcək.

Layihənin 2 mərhələ üzrə həyata keçirilməsi planlaşdırılır. Birinci mərhələdə regionlarda xüsusi təsərrüfat sahələri üzrə 300 gəncə peşəkar mütəxəssislər tərəfindən təlimlər keçiriləcək. Təlimlərdə təsərrüfatların yaradılması, idarəedilməsi və gələcəkdə inkişaf etdirilməsi, həmçinin aqrar təhsilin əhəmiyyəti və imkanları haqqında ətraflı məlumat veriləcək.

Layihənin icrası zamanı dünyada və ölkəmizdə mövcud olan koronavirus pandemiyasının və karantin rejiminin tələblərinə ciddi şəkildə əməl olunacaq. Görüşlər zamanı bütün iştirakçılar tibbi qoruyucu vasitələrlə (əlcək, maska, tibbi spirt) təmin olunacaqlar. Qoruyucu vasitələrin istifadəsinə və sosial məsafənin qorunmasına ciddi şəkildə nəzarət ediləcək.

# "Ticarət şəbəkələri" İctimai Birliyinə üzv market şəbəkələri ilə görüş olub

***İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə yaradılmış "Ticarət şəbəkələri" İctimai Birliyinə üzv market şəbəkələri ilə onlayn görüş keçirilib.***



"Report" bu barədə nazirliyə istinadən xəbər verir.

Məlumata görə, nazir müavini Niyazi Səfərovun və KOBİA-nın nümayəndələrinin iştirak etdiyi görüşdə İctimai Birliyin fəaliyyətinin səmərəli təşkili ilə bağlı fikir mübadiləsi aparılıb, biznes assosiasiyası üzvlərinin təklifləri dinlənilib.

Onlayn görüşdə həmçinin, pandemiya şəraitində market şəbəkələrində sanitar-epidemioloji tələblərə, sosial davranış qaydalarına əməl olunması vəziyyəti müzakirə edilib, "COVID-19"la mübarizədə qaydalara riayət olunmasının vacibliyi bir daha diqqətə çatdırılıb.

# Abşeronda bağçalar dezinfeksiya edilir

***Abşeronda körpələr evi-uşaq bağçalarının fəaliyyətə başlaması istiqamətində hazırlıq işləri görür.***

Bu barədə Unikal.org-a Abşeron rayon İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri Seymur Qasımov məlumat verib.

O bildirib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən 1 oktyabr tarixinədək bağçaların tam açılması nəzərdə tutulur. Bununla əlaqədar olaraq rayon ərazisində mövcud olan dövlət bağçalarında müvafiq sanitar-gigiyenik normalara və xüsusi karantin rejiminin tələblərinə əməl edilməklə dezinfeksiya işləri aparılıb. Bağçaların tərbiyəçiləri və texniki işçiləri bağçalarda geniş təmizlik, iməclik, tibbi-profilaktik işlər görüb. İşçi personal hazırkı şəraitdə işləmək qaydaları barədə təlimatlandırılıb. Məktəbəqədər təhsil müəssisələrinin həyətləri, yataq, oyun, mətbəxləri və digər otaqları təmizlənib.

Otaqların havalandırılması və təlimata uyğun dezinfeksiyası üçün tədbirlər həyata keçirilib. Bundan əlavə bağçalar xüsusi dezinfeksiyaedici məhlullarla təmin olunub və məktəbəqədər müəssisələr fəaliyyətə başladığı zaman onlar bağçanın girişə qoyulacaqdır. Bağçalar açıldıqdan sonra xüsusi karantin rejiminin tələblərinə uyğun şəkildə fəaliyyət göstərəcək.

# "Günay Sığorta" 28 illiyini qeyd edir

GÜNAY SIĞORTA

***Azərbaycanın ilk özəl sığorta şirkəti olan "Günay Sığorta" ASC bu gün 28 illiyini qeyd edir. Şirkət Maliyyə Nazirliyi tərəfindən verilmiş 04 sentyabr 1992-ci il tarixli 235 saylı şəhadətnamə ilə qeydiyyata alınaraq fəaliyyətə başlamışdır. 14 avqust 2008-ci il tarixində Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 042483 saylı müddətsiz lisenziya verilmişdir.***

Unikal.org xəbər verir ki, 28 il ərzində müştərilərinin, əməkdaşlarının, partnyorlarının etibarını qazanaraq fəaliyyət göstərən şirkət bazarda daim yeni məhsulları, operativ xidməti və sosial layihələri ilə seçilmişdir.

Son 1 ildə "Günay Sığorta" "Avtomobilinizi uşaqlarınız üçün təhlükəsiz edin", "1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü" "İmkansız ailələrə yardım", "Azərbaycan Polis Günü ", "Ailənizin sağlamlığı sizin sığortanızdır!" və digər bu kimi sosial layihələri Bakı şəhəri və regionlarda həyata keçirtmişdir. İqtisadiyyatdakı böhranla əlaqəli çətinliklərə baxmayaraq əhaliyə daim dəstək olmuşdur.

Həmçinin şirkət yalnız Bakı şəhərində deyil, regionlarda da yaşayan əhali üçün yeni iş yerlərinin açılması və bütün növ sığorta xidmətlərindən rahat şəkildə faydalanmasını təmin edir. Bu səbəbdən artıq regionlar üzrə nümayəndəliklərinin sayını 10-a, satış nöqtələrinin sayını 100-ə çatdırmışdır.

28 ildir müştərilərinin əmlaklarına, avtomobillərinə, bizneslərinə və s. dəyən maddi zərərləri qarşılayaraq onların çətin zamanlarında dəstək olmağı bacaran "Günay Sığorta" bundan sonra da peşəkar kollektivi ilə müştərilərinin inamını doğrultmaqda davam edəcəkdir.

"Günay Sığorta" şirkəti partnyorlarına və müştərilərinə uğurlu və etibarlı əməkdaşlığa görə təşəkkür edir.

28 ildir sizə xidmət göstərməkdən məmnunuq!

# Gömrük dərman preparatlarının ölkəyə qanunsuz keçirilməsinin qarşısını alıb

***Dövlət Gömrük Komitəsinin Baş Gömrük İdarəsinin əməkdaşları 2 fakt üzrə dərman preparatlarının, avto-ehtiyyat hissələrinin və kosmetik məhsulların qanunsuz yolla ölkə ərazisinə gətirilməsi cəhdinin qarşısını alıb.***

Bu barədə "Unikal"a Komitədən bildirilib.

Məlumata görə, "Qırmızı Körpü" gömrük postunda 2 ədəd "DAF" markalı yük nəqliyyat vasitələri saxlanılıb və gömrük baxışı keçirilib.

Yoxlama zamanı avtomobillərin gizlin saxlanc yerlərində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən 2 645 ədəd müxtəlif adda dərman preparatları, 441 ədəd dərman vasitələrinin istifadə təlimatı, həmçinin 53 ədəd müxtəlif avto-ehtiyyat hissələri və 19 ədəd kosmetik məhsullar aşkar edilib.

Hər iki faktla bağlı araşdırma aparılır.

# Könüllü aliment ödəyənlər 1 faizdir - Nazirlik rəsmisi

***Bu ilin 6 ayında məhkəmələrdə alimentlə bağlı 88 mindən artıq iş olub.***

"Unikal"ın məlumatına görə, bunu Ədliyyə Nazirliyi İcra baş idarəsinin rəis müavini (rəis vəzifəsini icra edən) Fərid Əfəndiyev bildirib.

F.Əfəndiyev qeyd edib ki, bu işlərin böyük əksəriyyəti həll edilib: "Təəssüf ki, borclu şəxslər könüllü şəkildə alimenti ödəmək istəmirlər. Biz tövsiyə edirik ki, atalar öz atalıq borclarını yerinə yetirsinlər. Doğrudur, aliment ödəyən analar da var. Amma alimentin ödənilməməsilə bağlı əsas problemlər atalarla bağlıdır. Ata unutmamalıdır ki, övladı üçün ayrılan vəsaiti ödəmək vəzifəsi var. Bunu hansısa icra məmuru ona xatırlatmamalıdır. Nəzərə almalıdır ki, barəsində inzibati tədbir görülə bilər, hətta 1 ayadək azadlığı məhdudlaşdırıla bilər".

F.Əfəndiyevin sözlərinə görə, işlərin 70 faizində aliment müntəzəm şəkildə ödənilir: "Amma bunlar da məcburi ödəmələrdir. Könüllü ödəmələr cəmi 1 faizdir. İşlərin 15 faizi 3-5 aylıq gecikmələrlə müşahidə edilir. Aliment ödəməkdən tamamilə yayınanlar da var".



## Azərbaycan hərbçiləri Moskvada "Sərhədsiz dostluq" festivalında birinci yerə layiq görülüb

***"Beynəlxalq Ordu Oyunları - 2020" çərçivəsində Moskvada keçirilən "Sərhədsiz dostluq" Milli Mədəniyyətlər festivalının mahnı və rəqs müsabiqələrində Azərbaycanı Müdafiə Nazirliyinin Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı təmsil edib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, festivalda hərbçilər təmsil etdikləri ölkələrin və dünya xalqlarının mahnı və marşlarını, rəqslərini ifa ediblər.

Hərbçilərimizin ifasında təqdim edilən milli hərbi marşlar, o cümlədən Azərbaycan xalq çalğı alətlərinin sədaları altında milli geyimlərdə rəqslər münsiflər heyətinin və tamaşaçıların rəğbətini qazanıb.

Festivalda uğurla çıxış edən Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı "Qızıl səs" vokal nominasiyası üzrə birinci, "Rəqs ritmləri" nominasiyası üzrə isə ikinci yerə layiq görülüb.

## COVID xəstələrində ölüm hallarını azaldan dərmanlar açıqlanıb

***Steroid dərmanları (iltibab əleyhinə) yeni növ koronavirusa (COVID-19) yoluxanlarda ölümün qarşısını ala bilir.***

e-tibb.az xəbər verir ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və İngiltərədən olan alimlərin ortaq şəkildə apardıqları araşdırmaya görə, steroid dərmanları yeni növ koronavirusa (COVID-19) yoluxanlarda ölüm nisbətlərini 20 faiz azaldır. "Journal of American Medical Association"da dərc olunan məqaləyə görə, ÜST və Bristol Universitetinin Milli Sağlamlıq Araşdırmaları İnstitutu tərəfindən aparılan araşdırmada, 12 ölkədə COVID-19 xəstələrində üç fərqli steroid istifadəsi ilə bağlı yeddi iş analiz edilib. Araşdırmada mütəmadi olaraq steroid (deksametazon, hidrokortizon və metilprednizolon) qəbul edən 678 və etməyən 1025 xəstə 28 gün izlənilib. Steroid dərmanlarının COVID-19-dan ölüm nisbətini təxminən 20 faiz azaltdığı sübut edilib.

Bristol Universitetindən tibbi statistika və epidemiologiya üzrə professoru Conatan Sterne bildirib ki, steroidlər COVID-19-un ən çox təsir etdiyi insanlarda ölüm hallarının azaldılması üçün ən təsirli, ucuz və asanlıqla əldə edilən dərmanlardır. Tədqiqat nəticələri göstərib ki, bu dərmanların yaş və cinsiyyətdən asılı olmayaraq hər kəsə müsbət təsir göstərib.

# Distant təhsil ənənəvi tədrisi əvəz edə bilməz - Ekspert

***COVID-19 pandemiyasının ən çox təsir etdiyi sahələrdən biri təhsildir. Ölkədə karantin rejimi tətbiq ediləndən sonra həm şagirdlər, həm də abituriyentlər tədrisi onlayn rejimdə davam etdirmək məcburiyyətində qaldılar.***

Təbii ki, ən əsas məqam abituriyentlərin repetitor yanına gedə bilməməsi ilə bağlıdır. Növbəti tədris ilindən abituriyentlərin sayı az olmaqla repetitor fəaliyyətinin bərpasına icazə verilib.

Maraqlıdır, qaydalar necə tənzimlənəcək? Ümumiyyətlə, distant təhsilin keyfiyyəti bizə nə verir?

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov Modern.az-a bu və digər məsələlərlə bağlı danışıb.

Təhsil eksperti bildirib ki, gözləmədiyimiz, bununla belə üzləşdiyimiz arzulanmaz hal olan pandemiya şəraitində nəyin effektiv olması, nəyin effektiv olmaması məsələsini mübahisələndirmək o qədər də düzgün olmazdı:

### "Heç bir texniki vasitə canlı ünsiyyəti əvəz edə bilməz"

"Bu istər, tədris kursları ilə, istər repetitorluq ilə, istərsə də ümumiyyətlə bütövlükdə tədris prosesi ilə bağlı məsələ olsun. Baxmayaraq ki, bununla bağlı müəyyən cəhdlər edilir. Əlbəttə, istəsək də, istəməsək də danılmaz faktdır və bunu qəbul etmək zorundayıq ki, distant dediyimiz məsafədən təhsil üz-üzə, yəni ənənəvi hesab etdiyimiz təhsili əvəz edə bilməz. Başqa sözlə, əksər mütəxəssislərin də qəbul etdiyi kimi heç bir texniki vasitə, digər yüksək texnologiyalar, insanlararası canlı ünsiyyəti əvəz edə bilməz. Bununla belə sosia-iqtisadi həyatın bütün sahələrində olduğu kimi pandemiya təhsil sferası üçün də bir çağırış oldu və bu mənada, təhsilimiz də bütün çağırışlara hazır olmalıdır və bu hazırlıqla əlaqədar bütün mümkün olan işlər görülüb və görülməkdədir".



### "Seçim valideynin və kurs müdaviminindir"

Nadir İsrafilovun sözlərinə görə, onlayn hazırlıq məsələsində seçim valideynin ixtiyarındadır: "Onunla da razılaşmalıyıq ki, istər repetitorluq, istərsə də tədris kursları olsun, bunlar artıq minlərlə insanın peşə fəaliyyəti sahəsinə çevrilib və geniş təhsilalan və təhsil verən şəbəkəsini əhatə edir. Bu baxımdan, bu fəaliyyət sahələri də diqqət mərkəzindən kənar qala bilməz, şəraitə, sanitar-epidemioloji şərtlər gözlənilməklə fəaliyyətlərini davam etdirməlidirlər. Əlbəttə hadisələrin sonradan necə cərəyan edəcəyindən asılı olaraq, onların da fəaliyyətində müəyyən korrektivlər aparıla bilər və aparılmalıdır. Ən başlıcası isə mövcud vəziyyət öyrənilib, müvafiq araşdırma və təhlillər aparılıb, əlaqədar qurumların tövsiyyələri və ümumi ictimai rəy nəzər alınıb, vəziyyətə uyğun ssenarilər hazırlanıb, baş verə biləcək proseslər ciddi nəzarət altındadır. O ki, qaldı onlayn hazırlıq kurslarının nə dərəcədə effektiv olub olmamasına, bu nə Təhsil Nazirliyinin səlahiyyəti, nə də digər hüquqi və ya fiziki şəxsin subyektiv münasibəti ilə tənzimlənən məsələ deyil. Seçim valideynin və kurs müdaviminindir. Hesab etdikləri kimi, vəziyyəti dəyərləndirə və seçimlərini edə bilərlər".

# Zəngilan əhli-həqqləri: qadınlar saç kəsməz, qulaq deşməz, onları boşamazdılar

***"Əhli-həqqlər hazırda Azərbaycanın müxtəlif bölgələrində məskunlaşıblar. Amma çox təəssüf ki, adətlərini qoruyub saxlamayıblar. Unudulub gedib, hamısı. Heç şəriətin qanunlarına da riayət etmirlər".***

Bunu Lent.az -a din xadimi Həsən Sobulu deyir. Bəli, Sobulu. Zəngilanın Sobulu kəndində doğulub böyüyüb, Həsən bəy. Elə buna görə də, Sobulu soyadını götürüb. Özü də əhli-həqqlərin qayda-qanununa riayət edən tək-tük adamlardandı.

"Bakı İslam Universitetini bitirmişəm. Özüm Qarabağ müharibəsi əliliyəm. Şəriətin qanunlarına tabe olan bir insanam. Fəqət içki içmir, siqaret çəkmirəm. Dədə-babadan qalma adətləri saxlamağa çalışıram. Yəni bir əhli-həqq kimi".

Onunla söhbətimiz zamanı əhli-həqqlər haqqında bizə məlum olmayan çox sirləri açdı. O əhli-həqqlər ki, "Beş hərfin sirri: Bakıya köçən əhli-həqqlər, yoxa çıxan dərvişlər..." yazısında Azərbaycan Milli Konservatoriyasının dosenti, fəlsəfə doktoru Fəxrəddin Salim bir cümlə ilə onlardan da bəhs etmişdi...

Maraqlıdır, əhli-həqqlər kimlərdi? Mənsub olduqları adət-ənənələr necə olub? Bu adətlər indi də yaşadılırmı?

"Şəriət, təriqət, mərifət və həqiqət dördlüsü var. Bunlardan biri olan həqiqət yolçuları 1979-cu ilə qədər Zəngilanın Sobu, Şamlı və Top kəndlərində məskunlaşıblar. Bunların da kökü Şah İsmayıldan qalmadır. Top kəndi daha sonra dağılıb gedib. O biri kəndlər qalıb. Bunların özlərinə məxsus adətləri olub. İçki içməyib, siqaret çəkməyiblər. Qadınlar da qaş almaz, saç kəsməz və qulaqlarını deşməzdilər. Yəni Allahın verdiyi bədənə hər hansı zərər vermək olmazdı. Düzdü, bunların bəzilərinin şəriətə adiyyatı yoxdu. Amma əhli-həqqlər üçün bunlar çox önəmli olub. Bütün bunlar bir zamanlar ki, adətlərimiz olub, daha sonra kəndin camaatı tərəfindən unudulub gedib. İndi siqaret də çəkirlər, içki də içirlər, bığ da qırxırlar, qulaq da deşirlər".

Əhli-həqqlərin digər bir özünəməxsusluğu da o olub ki, onların himayəsinə bir qadını qoyub səfərə gedərdin, illər də keçsə onlar qadına pis gözlə baxmazdılar:

"Əmanət olunan qadını öz anaları, bacıları kimi qoruyardılar. Amma Arazın o tayında, İranın bəzi kəndlərində yaşayan əhli-həqqlərdə indi də bu adətin qaldığını eşitmişəm. Orada kişilər müharibəyə gedəndə arvadlarını kimə əmanət etsələr, həmin adam da bığından bir tük qoparıb ona verirmiş. Şəriətdə dörd qadın ilə siğə etmək olar, amma əhli-həqqlər bir qadınla kifayətləniblər. Həmin qadın istər ən gözəl, istərsə də pis xasiyyətə malik olsun, ondan başqasına kəm baxmaq olmaz. Öz arvadından başqa bütün qadınlar anan, bacındır. Nə qədər siz onlara mehriban münasibət göstərsəniz, bir o qədər Allah dərgahında məqamınız uca olar. Qadını incitmək, ona əl qaldırmaq əhli-həqqlər üçün haram bir şey olub. Bir qadın ki, onların qapısından içəri girib, fərqi yoxdur uşağı olur, ya yox, ömrünün sonuna qədər birlikdə yaşamalıdırlar. Yəni onların ixtiyarı yoxdur ki, qadınlarına kəm baxıb başqa qadınla izdivac quralar".

Hə, elə Həsən Sobulunun da dediyi kimi bütün bu adətlər çox təəssüf ki, qorunub saxlanılmayıb:

"Əvvəllər toplaşıb məclis qurar, mərsiyələr oxuyardıq. Hardasa ayda bir dəfə olan bu məclisdə dövlətin, siyasətin işinə qarışacaq heç bir söhbət olmazdı. Onların tək mübarizəsi öz nəfisləri ilə olub. İndi əhli-həqqlərin bir yerə toplaşıb, məclis qurmaq kimi adətləri də qalmayıb".

***Lamiyə Məmmədova***

# Payızın dəyişkən havasından dərimizi necə qoruyaq? - Kosmetoloqdan məsləhət



***Mövsüm dəyişəndə dərimizin ehtiyacları da dəyişir. Havaların soyuması ilə dəri problemləri ortaya çıxır. Bəs mövsüm dəyişərkən dəriyə qulluq necə olmalıdır?***

Bu mövzu demək olar ki, bütün xanımları maraqlandırır. Bəzən düzgün qulluq etmədiklərinə görə başqa problemlərlə də qarşılaşırlar.

Kosmetoloq Mehriban İbrahimova Lent.az -a açıqlamasında payız aylarında dəriyə qulluqdan danışıb. Kosmetoloq bildirib ki, soyuq hava dərideki bəzi problemləri artırır:

“Bunlardan biri dəri quruluğudur. Dəridəki quruluğun qarşısını almaq üçün mütləq onun nəmlənməsinə şərait yaratmaq lazımdır. Xüsusilə soyuq havaya çıxmazdan öncə və duş qəbul etdikdən sonra nəmləndirici kremlərdən istifadə edin. Bununla həm dəri çatlamalarının, həm də vaxtından əvvəl qırışların yaranmasının, dərinin qocalmasının qarşısını alacaqsınız. Bundan əlavə, gün ərzində 1-1,5 litr su içməyi də unutmayın”.

Mehriban İbrahimovanın dediyinə görə, hətta sağlam adamlarda daimi olaraq soyuq havanın və küləyin təsirindən vaxtından əvvəl qocalma müşahidə olunur:

”Əgər fikir vermisinizsə, uzun müddət şaxtada qaldıqda qan damarları daralır və dəri ağarır. Bu da qan dövranına mənfi təsir göstərir, maddələr mübadiləsi pozulur, dərinin qidalanması isə azalır. Bu zaman dəri müxtəlif qıcıqlanmalara məruz qalır, ağarır və təravətini itirir. Lakin dəriyə düzgün qulluq etdikdə, bunun qarşısını almaq olar”.

Kosmetoloq bildirir ki, soyuq hava şəraitində dərinin donmadan və quruluqdan qorumaq üçün daimi olaraq xüsusi qoruyucu kosmetik vasitələrdən istifadə etmək lazımdır:

”Əgər dəri qurudursa, axşamlar dərinin təravətli olması üçün ona xama, süd, yağlar vurmaq olar. Bu mövsümdə nəmləndirici vasitələrdən və xüsusi maskalardan da istifadə olunmalıdır”.

Üzə qulluq zamanı dodaqları unutmaq olmaz. Çünki onlar zədələnərsə, dodaq boyası da istədiyimiz kimi qalmaz. Kosmetoloq da bunları təsdiqləyir:

“Daha yaxşı olar ki, dodaqların qurumasının qarşısını almaq üçün tərkibində yağ turşuları olan dodaq kremlərindən istifadə edəsiniz. Əgər sizin əlinizin altında heç bir kosmetika yoxdursa, o zaman adi bitki yağlarından istifadə edin. Bitki yağlarından mütəmadi istifadə dodaq dərinizin elastikliyini saxlamaqda kömək edər.

Bal vasitəsilə dodaqların nəmləndirilməsi də effektivdir. Balın tərkibindəki maddələr dodaq çatlamasına qarşı xeyirlidir”.

Sonda onu da qeyd edək ki, dərinin parlaq və təravətli olması üçün bu qulluqlarla yanaşı, düzgün kosmetik vaistələrin seçilməsi və qidalanmaya diqqətlə yanaşmaq da vacibdir.

*Lamiyə Məmmədova*

# "Sizdə bu simptomlar varsa..." - Psixoloqdan HƏYƏCAN TƏBİLİ

***”Dünyada hər beş nəfərdən biri bu depressiya növündən əziyyət çəkir. Qadınlar depressiyaya meylli olduğundan buna ən çox onlarda rast gəlinir”.***

“Unikal” bildirir ki, bunu yenicag.az-a açıqlamasında klinik psixoloq Xədicə Həbibullayeva payız depressiyasından danışarkən deyib.

Psixoloq payız depressiyaları zamanı kişilərdən daha çox qadınların əziyyət çəkdiyini bildirib:

”Dünyada hər beş nəfərdən biri bu depressiya növündən əziyyət çəkir. Qadınlar depressiyaya meylli olduğundan payız depressiyasına ən çox onlarda rast gəlinir. Bizim insan olaraq əhvalımız hormonlarımıza bağlıdır. Yəni orqanizmdə xoşbəxtlik hormonumuz azalsa, az sevinib, daha çox kədərli olacağıq.

Payız aylarında havanın dəyişməsi, gündüzlərin qısalıb, gecələrin uzanması, zəif günəş şüaları insan beynində kimyəvi maddələrdən biri olan serotonin hormonunu azaldır. Xoşbəxtlik hormonu olan serotoninin azalması da depressiyaya gətirib çıxarır. Payız depressiyası təkcə mövsümlə əlaqəli deyil. İnsanın passiv həyat tərzi keçirməsi, həmçinin digər psixoloji pozuntuların fəsadı olaraq ortaya çıxa bilər. İnsanlarda belə bir düşüncə yaranıb: depressiya deyəndə payız, payız deyəndə depressiya yada düşür. Amma əslində depressiyanın fəsli, günü, ayı olmur. Sadəcə depressiyaya meylli insanlar payız fəslində daha çox buna məruz qalırlar”.

Psixoloqun sözlərinə görə, depressiyanı digər psixoloji problemlərlə səhv salmamaq üçün bəzi



simptomları bilmək vacibdir. Depressiyadan çıxmağın yollarına gəlincə, həkim çıxış yolu da göstərib.

”Enerjinin azalması, çarəsizlik hissi, çəki itirmə və ya çəki artması, diqqətin zəifləməsi, diqqət dağınıqlığı, qərarsızlıq, dəyərsizlik və günahkarlıq hissi, cinsi istəyin azalması və ya istəksizlik, yuxusuzluq və ya çox yatmaq istəyi payız depressiysının əlaməti ola bilər.

Belə vəziyyətdən çıxmaq üçün mütləq hər gün idman etmək, açıq havada 20-30 dəqiqə vaxt keçirmək, gəzmək, təlimlərə və tədbirlərə qatılmaq, sevdiyiniz şəxslərlə birlikdə vaxt keçirmək, yuxu rejiminə diqqət etmək, insanlarla ünsiyyətdə olmaq, dil öyrənmək, kitab oxumaq, rəsm çəkməklə məşğul olmaq lazımdır”.

# Gözlərə mənfi təsir edən amillər, onlardan qorunmağın yolları - HƏKİM MƏSLƏHƏTİ

***Sağlam gözlər hər insanın sahib olduğu ən qiymətli nemətdir. Dünyanı, ətraf aləmi görmək və yenilikləri kəşf etmək üçün unikal vasitədir. Görəsən, bütün bu gözəllikləri bizə bəxş edən gözlərimizin sağlamlığını nə dərəcədə qoruyuruq?***

Lent.az göz sağlamlığı, onun qorunması və digər sualları mütəxəssisə ünvanlayıb.

Oftalmoloq Elvin Yadigarovun sözlərinə görə, hazırda göz sağlamlığına mənfi əsir edən amillər olduqca çoxdur:

“Bunlara misal olaraq gündəlik həyatda maşında və evdə istifadə edilən kondisoneri, kompüter və telefon şüasını göstərmək olar. Sadalanan həmin amillər “quru göz” sindromuna gətirib çıxarır. Mən indi xəstələrdə daha çox bu şikayətlə qarşılaşıram”.

Oftalmoloq qeyd edir ki, əvvəlcə hər gün bol maye qəbul edilməlidir. Təbii ki, burada söhbət saf sudan gedir. Onun sözlərinə görə, gözləri tez-tez qırpmağı da unutmaq olmaz, xüsusən də monitor arxasındaykən:

“Monitor arxasında olanda insan gözlərini normadan 4 dəfə daha az qırpır. Gözləri tez-tez yummaq lazımdır ki, onlar nəmlənsin və quruluq aradan qalxsın. Normalda insan 1 dəqiqə ərzində gözlərini 16-dəfə yumursa, bu say monitor arxasındaykən 4-ə enir. Əgər gözdə quruluq daha çoxdursa, nəmləndirici damcılardan istifadə etmək tövsiyə olunur. Bu damcılar tam ziyansızdır. Ondan biz həkimlər də istifadə edirik”.

Həkim onu da bildirib ki, əsəb və stress də göz sağlamlığına mənfi təsir edən amillərdəndir. Məhz bu səbəbdən də şəkərli diabet xəstələri ikiqat diqqətli olmalıdır:

“Stress gözlərə birbaşa olmasa da, dolayı yolla pis təsirini göstərir. Şəkərli diabet xəstəliyinin etiologiyasında da stress amili var. Stress nəticəsində əmələ gələn diabet xəstələrində gözdə çox böyük dəyişikliklər ola bilər. Bu hal göz dibi problemlərinə, mirvari suyunun və kataraktanın daha tez formalaşmasına gətirib çıxarır”.

Həkim onu da əlavə edib ki, hazırda uşaqların telefon və kompüterdən çox istifadə etməsi qlobal bir problemi də özü ilə yanaşı gətirir. Belə ki, azyaşlıların, gözün formalaşdığı bir dövrdə ona ziyan verən bu alətlərdən istifadə etməyi gözün zəifləməsinə gətirib çıxara bilər. Valideynlər bu baxımdan diqqətli olmalıdır. Gün ərzində uşaqlara maksimum 1-2 saat kompüter və telefondan istifadə etmək olar.

Demək olar ki, bütün orqanizmin sağlamlığı üçün düzgün qidalanmanın nə qədər önəmli faktor olduğunu yəqin bilməyən yoxdur. Həmsöhbətimiz Elvin Yadigarov da göz sağlamlığı üçün düzgün qidalanmanın çox vacib olduğunu vurğulayıb:

“Dəniz məhsulları, yumurta, ispanaq, yerkökü, bibər gözə faydalı olan qida növlərindədir. Çalışmaq lazımdır ki, gündəlik menyüyə bol tərəvəzli salatlar daxil edilsin. Lakin həmin qidalardan istifadə heç də müalicə demək deyil. Əgər gözdə artıq problem yaranıbsa, bu zaman mütləq göz həkiminə müraciət etmək lazımdır”.

# Gündə 1 fincan bədəndəki yağları və şəkəri yandırır...

***Qəhvə gündəlik həyatın vazkeçilməz içkilərindən birinə çevrilib. Bir çox insan yuxudan ayılmaq, bir çoxları isə qoxusu və dadını çox sevdiyi üçün qəhvə içməyi alışqanlıq halına gətirib. Çoxları gün ərzindəki işlərinin daha səmərəli olması və başqa bir sıra səbəblərdən qəhvə içmək istəyir. Qəhvənin bu qədər çox sevilməsi, onun faydaları və zərərləri mütəxəssislər tərəfindən tez-tez qiymətləndirilir.***

Yeni bir araşdırma zamanı qəhvənin yağ yandırıcı təsiri araşdırılıb.

Mütəxəssislərin fikrincə, gündə bir fincan qəhvə orqanizmdə olan qəhvəyi yağları aktivləşdirir. Qəhvəyi yağlar qidalarda olan şəkər və yağı yandırmağa və bədəni isitməyə kömək edir. Qəhvəyi yağlar artıq çəki yığmağa səbəb olan ağ yağlardan fərqlidir. Ağ yağlar orqanizmin istifadə etdiyindən daha çox enerji aldığı zaman əmələ gəlir.

Mütəxəssislər bildirir ki, qəhvəyi yağlar aktivləşdirildikdə, orqanizm qanda olan şəkər və yağ miqdarına daha yaxşı nəzarət edir və daha yaxşı nəticə əldə olunur. Qanda qlükozaya nəzarətin bu şəkildə yaxşılaşdırılması insanları 2-ci tip şəkərli diabetdən qorumağa kömək edə bilər. Ələlxüsus gün ərzində qəbul edilən bir fincan qəhvə Alzheimer (yaddaşın itməsi) riskini də azaldır.

Faydalı olsa da, qəbul edilən qəhvənin miqdarına diqqət yetirilməlidir. Çünki yüksək dozada kofein qəbulu asılılıq yarada bilər. Orqanizm vərdiş etdikdə, gün ərzində çox miqdarda qəhvə qəbul etmək əsəb və ya yorğunluq hissinə səbəb olur. Xüsusilə orta yaşlı insanlarda yüksək qan təzyiqi yarana, bu isə ürək xəstəlikləri riskini artıra bilər.

# Heykal

***Gec-tez, əvvəl-axır daşa çevrilmək hər kəsin qismətində var. Amma belə erkən yox!***

**Tez idi, çox tez...**



Hələ o özü daş üzərində naxışlar açmağı, həyatın anlarını daşlara həkk etməyi, daşların “daş yaddaşında” iz qoymağa çalışırdı...

Gənc heykəltəraş qəlbinin çırpıntılarından xəbər verən və beynəlxalq müsabiqələrdə qalib gələn “Arzuların rəngarəngliyi”, “Casusların öpüşü”, “Pişiyin doqquz canı” əsərləri... Bu əsərlərdən biri Yekaterinburqda gənclər arasında keçirilən Virtual sərgidə birincilik qazanmışdı, biri Ç.Darvin adına Moskva Dövlət Muzeyində gerçəkləşən beynəlxalq müsabiqədə, biri “Almaniya bir rəssamın gözü ilə” müsabiqəsində diploma layiq görülmüşdü. Üç il əvvəl Bakı Limanının elan etdiyi heykəltəraşlıq müsabiqəsinin qalibi olmuşdu. 2018-ci ildə Gənclər və İdman Nazirliyi tərəfindən “Ekoloji problemlər və onların həlli yolları gənclərin gözü ilə” mövzusunda II Gənclər sərgisinin diplomuna, keçən il Berlin divarının sökülməsinin 30 illiyi münasibətilə keçirilən müsabiqədə sertifikata layiq görülmüşdü.

**Heykəltəraş olmağı çox istəyirdi. Çox, lap çox...**

Misqal-miqsal, addım-addım özünün ən böyük arzusuna doğru yol gedirdi. İlk dəfə fırçanı əlinə götürəndə Azadın 4-5 yaşı vardı. Rənglərin sehrli dünyası, fırçanın ağappaq kətan üzərində açdığı naxışlar onu özünə məftun etmişdi. Əvvəl İncəsənət Kollecini bitirdi, sonra Dövlət Rəssamlıq Akademiyasının heykəltəraşlıq fakültəsinə qəbul oldu. Bu il Akademiyanı bitirib arzusunda olduğu peşəyə yiyələndiyi barədə diplom aldı.

Azadı irəlidə çoxlu sərgilər, festivallar gözləyirdi. Gənc heykəltəraş-rəssamın sənətdəki ilk addımları onun gələcəyi haqqında çox böyük ümidlər verirdi. Bunu onu tanıyan hər kəs - Azada dərs deyən müəllimlər, tanınmış heykəltəraş-rəssamlar, məşhur sənətkarlar hamısı etiraf edirdi.

Çoxlu dəvətləri var idi-Beynəlxalq İncəsənət Sərgilərində, festivallarda onun əl işlərinin yolunu gözləyirdilər. Azad Aslanovun istedadlı barmaqlarından hələ çoxlu sənət möcüzələri süzüləcəkdi...

**24 yaş!..**

Hələ hər şey indi başlayırdı, hələ həyat qapıları indi-indi onun üzünə açılırdı... Hələ qəlbindəki tumurcuq-tumurcuq arzular indi-indi qönçə tuturdu...

Hər şeyin başlanğıcı, ömrün tumurcuq vədəsi... Bu, necə ola bilər axı?

Neçə illər idi ki, amansız epilepsiya xəstəliyindən əziyyət çəkirdi, bir neçə dəfə əməliyyat da olunmuşdu. Həkimlər hər şeyin yaxşılığa doğru getdiyini deyirdilər...

Bir evin işığı, bir ailənin ümid çiçəyi, bir ananın sevinci, bir atanın and yeri, bir nəslin söykənəcəyi, bir əminin iftixarı, bir dayının qüruru, bir babanın fərəhi...

Adamı ən çox ağrıdan, göynədən də odu ki, bütün varlığı, canı-qanı ilə bağlı olduğu bir sənətə yiyələnəndən sonra elə ilk addımda, başlanğıcda da hər şeyə nöqtə qoyub dayanasan.

Ürkək baxışlarla yolunu gözləyən bir qızın göz yaşları... Toy sədası həsrətində olan bir həyətdə çalınmayan “Vağzalı”...

**Dünyanın faniliyinə, həyatın vəfasızlığına necə yanıb-yaxılmayasan?**

Evdəki kiçik emalatxanada hazırladığı eskizlər, yarımçıq heykəllər, onun əllərinin izlərini yaşadan neçə-neçə yaradıcılıq məhsulları sahibsiz qalıb. Kim bilir, o, bunların üzərində hansı arzu, hansı istəklə işləyirdi?

Öz tişəsi ilə dünyanın gözəlliklərini daşa çevirmək arzusu ilə yaşayan heykəltəraş-rəssam özü necə heykələ, daşa çevrilə bilər?

Azadın heykəltəraşlığa o qədər böyük sevgisi, o qədər böyük həvəsi var idi ki, elə bil bu həvəsin, istəyin çoxluğu onun özünü də heykələ çevirdi. Heç vaxt unudulmayacaq, heç vaxt yaddaşlardan, xatirələrdən silinməyəcək və həmişə ürəklərdə yaşayan əbədiyyət heykəlinə.

Xatirələr həmişə isti, kövrək və əzizdir. Həm də sızıltılı və göynərtili...

***Süleyman Qaradağlı, AZƏRTAC***

# Elçiliyə gecə saat 1-də gedən, Cəfər Cabbarlının qızını alan, baba olduğunu eşidəndə dünyasını dəyişən yazıçı - Maraqlı faktlar

***“Unikal” Kulis.az-a istinadən yazıçı dramaturq Seyfəddin Dağlı haqda maraqlı faktları təqdim edir:***

Görkəmli yazıçı-satirik, şair, jurnalist, tərcüməçi və dramaturq Seyfəddin Ələağa oğlu Abbasov avqustun 27-də 1921-ci ildə Xızıda anadan olub. O, 13 günlük olanda anası Qəmər vəfat edib. Kənddə hansı qadının balaca uşağı varmışsa, körpəni aparırmışlar onun yanına ki, süd versin.

***

Seyfəddinin atası Ələağa Abbasov dövlət qulluqçusu olub, müxtəlif rayonlara işləməyə göndərilib. Elə buna görə də uşaq ata babası Bəhlul kişinin ümidinə qalıb. Bəhlul kişi savadsız adam idi. Amma xeyirxah, əliaçıq, səxavətli olmasıyla özünə hörmət qazanmışdı. Seyfəddin hələ kiçik ikən ailəsi ilə birgə Bakıya köçüb. Orta məktəbi də elə bu şəhərdə oxuyub.

Ancaq iş elə gətirir ki, Seyfəddin uşaq ikən Bəhlul kişi dünyasını dəyişir. O, atasıgillə yaşamağa başlayır. Atasının ikinci evlilikdən beş uşağı dünyaya gəlmişdi: iki oğlan, üç qız. Analığı Seyfəddinlə pis rəftar etmirdi. Amma hər halda, doğma ananın da yerini vermir.

***

Seyfəddin Cəfər Cabbarlının xətrini çox istəyər, ona inanardı. Ona görə də uşaqlıqda hərdən acıq eləyəndə onlara gedərmiş. Cəfər Cabbarlı isə onu əzizləyər ”Nə olub? İncidiblər səni? Gəl, qal bizdə, mənim oğlum ol” deyərmiş. Çox-çox illər ötəndən, Seyfəddin Dağlı uşaq vaxtı oyunlar oynadığı Cəfər Cabbarlının qızı Gülarə ilə ailə quranda sonra keçmiş günləri yada salıb zarafatla deyir: ”O vaxt Cəfər əmi mənə deyirdi ki, gəl qal bizdə. Yəqin elə o vaxtdan qızını mənə vermək istəyirmiş”.

Seyfəddinin on üç yaşı olanda Cəfər Cabbarlı da dünyasını dəyişir. Ondan sonra Seyfəddin daha əvvəlki kimi onlara tez-tez getmir. Başı dərslərinə qarışır. Orta məktəbi bitirib, əvvəlcə texnikumda təhsil alır. İlk iş yeri ”Kommunist” qəzetinin redaksiyası olur. Bədii yaradıcılığa isə, orta məktəbdə oxuduğu illərdə başlayır.

***

Günlərin birində Seyfəddin Dağlı Cəfər Cabbarlının qızı Gülarəyə elçi düşür. Bunun üçün o, Cəfər Cabbarlının həyat yoldaşı Sona xanımın direktor olduğu Teatr Muzeyinə gedib: ”İstəyirəm, Gülarənin taleyini mənim taleyimlə bağlayasan”, deyir. Sona xanım isə ”Mən qızımı sənə verərəm”, - deyir. - ”Ancaq gərək əvvəlcə Gülarənin özüylə danışasan. Onun fikrini öyrənəsən, biləsən, səninlə ailə qurmağa razıdır, ya yox.”

Gülarə xanım xatirələrində deyir: O zaman mən anama dedim ki, yəqin bizim ailə qurmağımızı sən istəmisən. Anam isə dedi ki, nə danışırsan? Neçə dəfə iş yerimə gəlib, səni məndən istəyib. Sabah dərsdən sonra məktəbinizin yaxınlığındakı poçtun qabağında səni gözləyəcək. O vaxta qədər Seyfəddinin məni sevdiyini, mənimlə ailə qurmaq istədiyini bilmirdim. Bir dəfə də olsun, bu barədə danışmamışdı. Ancaq onu görəndə həmişə nədənsə uşaq kimi utanırdım. Biz onunla görüşüb söhbət etdik, mənə dedi ki, bir neçə eyibim var, deyim indidən bil. Onlardan biri xoruldamığım, o biri isə çeçələ barmaqlarımdan birinin əyri olmasıdır. Həmin gün gecə saat birin yarısı olardı. Qapımız döyüldü. Gedib açdılar. Seyfəddinin atası, əmisi, bir də dostu, ”Kommunist” qəzetinin redaktoru İsrafil Nəzərov qapıda dayanmışdılar. Hamımız heyrətlənmişdik. Gecənin bu vaxtı da elçi göndərərlər? Bizim evlənməyimiz belə oldu. Hər ikimiz tələbəydik. Ona görə də 1953-cü ildə, mən universiteti bitirəndən sonra toy etdik. Üç gün sonra Moskvaya getdik”.



Bir müddət sonra onların bir oğlu olur. Seyfəddin babasının xatirəsinə ehtiram olaraq uşağın adını Bəhlul qoyur. Sonra isə oğlu Altay, qızı Qəmər doğulur”.

***

O, 1956-1959-cu illərdə Dövlət Radio Komitəsində baş redaktor, sonralar isə ”Bakı” telestudiyasının direktoru və sədr müavini vəzifələrində işləyir. Seyfəddinin jurnalistlik fəaliyyətinin böyük bir hissəsi ”Kirpi” jurnalıyla bağlı olub.

**Gallery**

1983-cü il yanvarın 16-da qızı Qəməri doğum evinə aparırlar. Seyfəddin oğul nəvəsi olduğunu eşidib çox sevinir. Ancaq həmin ərəfədə özünün vəziyyəti yaxşı olmur. Ürək ağrıları daha da güclənir. Həmin gün yanvarın 18-i qaynı Aydın gəlib onu həkimə aparmalı imiş. Yuxudan oyanan yazıçı əl-üzünü yuyanda ürək ağrıları şiddətlənir. Həyat yoldaşı qonşuluqda yaşayan Nəriman Həsənzadəgilə qaçıb xəbər verir. ”Təcili yardım” xeyli vaxtdan sonra gəlib çıxır. Lakin, bu zaman artıq seyfəddin Dağlı dünyasını dəyişir. Qızı Qəmərə isə düz bir ay atasının ölüm xəbərini demirlər.

***

O, dünyasını dəyişəndən sonra qəribə mistik hadisə baş verir. Son kitabının qonorarı üçün nəşriyyatın direktoru, rəhmətlik Əjdər Xanbabayev onun evinə zəng vurub ailə üzvlərinə deyir ki, gəlin Seyfəddinin qonorarını alın. Oğlu gedir və məlum olur ki, atası ölümündən iki gün əvvəl gedib qonorarını alıb. Amma pulları hara qoyduğu məlum deyildi. Bir axşam ailə üzvləri oturub söhbət etdikləri zaman elə bil sirli bir əl kitab rəfindəki kitablardan birini götürüb yerə atır və pullar ətrafa səpələnir. Bu, onun ”Azərnəşr”dən aldığı qonorar idi.

# “Balıqçının qızı” filmi Moskva Beynəlxalq Kinofestivalında

***“Cinex” (Azərbaycan) və “Non-stop prodakşn” (Rusiya) kinoşirkətlərinin birgə çəkdiyi “Balıqçının qızı” bədii filmi oktyabrın 1-dən 8-dək keçiriləcək 42-ci Moskva Beynəlxalq Kinofestivalının (MMKF) əsas müsabiqəsinin proqramında iştirak edəcək.***



Rejissor İsmayıl Səfərəlinin quruluş verdiyi “Balıqçının qızı” filmi Abşeron yarımadasında yerləşən kiçik bir kənddə yaşayan balıqçının həyatından bəhs edir: “Günlərin birində balıq ovuna gedən balıqçı itkin düşür və balıqçının qızı Sara atasının yoxluğuna inanmaq istəmir. Saranın ailəsi və kənd sakinləri formal da olsa, dəfn mərasiminin keçirilməsində israrlıdırlar. Ağsaqqallar belə hesab edirlər ki, kəndin başına gələn, ardı-arası kəsilməyən bədbəxtliklərin səbəbi məhz dəfn olunmamış balıqçıdır. Sara üsyan edir və ailənin hökmünə, ənənələrinə qarşı çıxır. Sanki təbiət də onunla birlikdə üsyan edir - qasırğa yaxınlaşır və Sara atasını axtarmaq üçün təlatümlü dənizə üz tutur və hadisələr bundan sonra cərəyan etməyə başlayır”.

Filmin ssenari müəllifləri Mariya Zelinskaya, İsmayıl Səfərəli, Rüstəm Məmmədov, rejissoru İsmayıl Səfərəli, operatoru Şandor Berkeşi, quruluşçu rəssamı Sergey Zaykovdur. Rollarda Həmail Həsənova, Günəş Mehdizadə, Vüsal Əzizov, Rasim Cəfər, Fərid Aslanov, Elnur Nəcəfov, Qurban İsmayılov, Mahir Dərviş, Elşən Əsgərov, İqor Nikulov çəkiliblər.

İsmayıl Səfərəli 2003-cü ildə “Duke Universiteti”ni (Dyurham, NC) bitirərək iqtisadiyyat üzrə magistr dərəcəsi və 2015-ci ildə Moskva Yeni Kino Məktəbində kinorejissorluq üzrə magistr dərəcəsi alıb. 2014-cü ildən etibarən iki filmdə icraçı prodüser vəzifəsində çalışıb, 3 qısametrajlı filmin prodüseri və rejissorudur, “Gecə qabarması” tammetrajlı bədii filminin həmmüəllifidir. Həmin ekran əsəri 2017-ci ilin iyulunda Karlovı Varı Film Festivalının intensiv proqramına qatılmaq üçün digər 6 layihələrlə seçilib. Bundan başqa, onun filmoqrafiyasına “Təkbətək” (2014), “Yuki üçün layla (2015) və “Əmin-amanlıq dənizi” (2017) qısametrajlı filmlər daxildir.

# Mədəniyyət Nazirliyində iki şöbəyə müdir təyin edildi

***Mədəniyyət Nazirliyində həyata keçirilən kadr islahatları davam edir.***

“Unikal” xəbər verir ki, mədəniyyət nazirinin birinci müavini, mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimovun müvafiq əmri ilə Hüseynbəyli Zemfira Qüdrət qızı Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

Zemfira Hüseynbəyli 1990-cı ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə Bakı Dövlət Universitetinin “Beynəlxalq münasibətlər” ixtisası üzrə bakalavr (fərqlənmə), 2012-ci ildə Birləşmiş Krallığın Kingston London Universitetinin “Beynəlxalq biznesin idarə edilməsi” ixtisası üzrə magistr (fərqlənmə) dərəcələrini alıb. Londonun “CİPD” institutunun “İnsan resurslarının idarə edilməsi” ixtisası üzrə beşinci dərəcəli diplomunu, Corc Vaşinqton Universitetinin “Layihələrin idarə edilməsi” proqramı üzrə magistr sertifikatını əldə edib. İnsan resurslarının idarə edilməsi üzrə müxtəlif seminar və konfransların iştirakçısı və təşkilatçısı olub. BMT-nin strukturlarında təcrübə proqramı keçib.

Əmək fəaliyyətinə 2012-ci ildə Bakı Nobel İrsi Fondunda ictimaiyyətlə əlaqələr üzrə nümayəndə vəzifəsində başlayıb. 2014-2018-ci illər ərzində “BP” neft şirkətinin subkontraktoru olan “Titan D” şirkətində insan resursları üzrə baş mütəxəssis vəzifəsində çalışıb, Azərbaycan Dövlət Neft şirkətində insan resursları üzrə aparıcı mütəxəssis işləyib. 2019-cu ildə SOCAR Azneft İstehsalat Birliyinin (İB) İnsan Resursları Departamentinin rəis müavini vəzifəsinə (2019) təyin edilib. Azneft İB-də “İnsan resurslarının transformasiyası” layihəsinin icraçısı, təlim və inkişaf proqramlarının rəhbəri olub.

İnsan resurslarının idarə edilməsi üzrə müxtəlif təlim proqramlarının müəllifidir.

İngilis, rus, türk dillərini bilir.

# Onlayn rəqs kursları davam edir

***Azərbaycan Dövlət Akademik Musiqili Teatrında balet truppasının quruluşçu baletmeysteri, Əməkdar artist Emin Əliyevin rəhbərliyi ilə onlayn rəqs kursları davam edir.***

Teatrın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Emin Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə yaradılan bu virtual rəqs qruplarında milli və dünya xalqlarının rəqsləri öyrənilir. Fərdi və qrup şəklində, əyani və distant formada təklif olunan onlayn kurslara qəbul davam edir.

Qeyd edək ki, Emin Əliyev Bakı Xoreoqrafiya Akademiyasının məzunudur. 1996-cı ildən 2015-ci ilə qədər Azərbaycan Dövlət Rəqs Ansamblının solisti olub. 2004-cü ildə Xalq artisti Polad Bülbüloğlunun “Eşq və ölüm” baletində Nuri obrazı ilə daha çox tanınıb. O, bu obrazla Azərbaycanın müxtəlif mədəniyyət ocaqlarında və Rusiyanın Böyük Teatrında, Sankt- Peterburqun Marinski Teatrında çıxış edib. 2004-2006-cı illərdə Türkiyənin “Anadolu Ateşi” və 2017-ci ildə “Royal” rəqs ansambllarına dəvət alıb, bir müddət orada fəaliyyət göstərib, müxtəlif rəqs və balet tamaşalarına quruluş verib. Dünyanın 50-dən çox ölkəsində keçirilən beynəlxalq tədbirlərdə iştirak edib. Həmçinin o, maestro Niyazinin “Rast” simfonik muğamı və “Kitabi- Dədə Qorqud” dastanının motivləri əsasında “Dəryadan damla” balet-tamaşasına quruluş verib.

Emin Əliyev Azərbaycan Dövlət Akademik Musiqili Teatrında balet truppasının quruluşçu baletmeysteri kimi bir çox uğurlu layihələrdə iştirak edib, yeni hazırlanan tamaşalardakı balet kompozisiyalarına quruluş verib.

# Əli Kərimin şeirləri Türkiyənin ədəbiyyat portalında çap olunur



***Türkiyənin populyar Erikagacioyku.com (“Alça ağacı”) ədəbiyyat portalı Azərbaycan şairi Əli Kərimin türk dilinə tərcümə edilən “Fraqmentlər”, “Daş”, “Həmişə səfərdə” kimi şeirlərinin çapına başlayıb.***

Bu barədə Dövlət Tərcümə Mərkəzindən məlumat verilib.

Çap işi mərkəzin “Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə” layihəsi çərçivəsində həyata keçirilib.

2015-ci ildən fəaliyyət göstərən portal bu ilin iyun ayından başlayaraq Dövlət Tərcümə Mərkəzi ilə əməkdaşlıq çərçivəsində Azərbaycan ədəbiyyatının aparıcı nümunələrini işıqlandıracaq “Azərbaycan ədəbiyyatı” bölməsini açıb. Bölməyə yerləşdirilmiş şeirlər Əli Kərimin həyat və yaradıcılığı haqqında geniş məlumatla təqdim edilir.

Bölmənin klassik Azərbaycan ədəbiyyatı ilə yanaşı müasir Azərbaycan ədəbiyyatı nümunələrini də mütəmadi olaraq işıqlandıracağı nəzərdə tutulur.

# Aprel şəhidi haqqında sənədli film çəkilir

***2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına şəhid olan Babək Abidovun həyat və döyüş yolundan bəhs edən sənədli film çəkilir.***

“Unikal” AZƏRTAC-a istinadla xəbər verir ki, filmin çəkilişləri şəhidin doğulub boya-başa çatdığı Şabran rayonunun Zeyvə kəndində aparılır. Ekran işinin rejissoru Dəyanət Rzayev, prodüseri Vəli Turan, ssenari müəllifi Coşqun Beydullayev, quruluşçu operatorları Rizvan Hacıyev və Mais Allahverdiyevdir.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə “Regional Medianın İnkişafına Yardım” İctimai Birliyinin həyata keçirdiyi layihə çərçivəsində ərsəyə gələcək filmin sentyabr ayının sonunda tamaşaçılara təqdim olunması nəzərdə tutulub. “Aprel Qəhrəmanı” adlı ekran işi “ARB Media Qrup”a daxil olan “ARB Günəş” kanalında yayımlanacaq.

Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin giziri Babək Abidov ölümündən sonra “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalına layiq görülüb.

# Xalq artisti xəstəxanaya yerləşdirildi

***Bir neçə gün əvvəl səhhətində problem yaranan Xalq artisti Əbdül Mahmudov xəstəxanaya yerləşdirilib.***

Lent.az-la söhbətində aktyor mədə-bağırsaq ağrılarından və nəfəs yollarının soyuqlamasından əziyyət çəkdiyini deyib.

Aktyor dünən axşam saatlarında Respublika Müalicəvi Diaqnostika Tibb Mərkəzinə yerləşdirilib: “Dünəndən qan analizlərim götürülüb, sistem qoşulub. Gözləyirəm ki, analizlərin cavabı bilinsin, diaqnoz qoyulsun, müalicəni çıxıb ev şəraitində alaram, çünki burda çox darıxıram”.

Xatırladaq ki, aktyorun müalicəsi dövlətin nəzarətindədir.

# Rilayadan Şuşaya aid möhtəşəm ifa

***“Dəyər Ver” komandası Azərbaycanın dilbər guşəsi olan Şuşa haqqında yeni layihəyə imza atıb.***

Teleqraf.com-un məlumatına görə, Xurşidbanu Natəvana həsr edilən layihə Şuşanın gözəlliyindən bəhs edir. Mahnını peşəkar müğənni Rilaya ifa edib. “Şuşa”nın musiqisi Nataliya Gonçarovaya, sözləri isə Zəhra Bədəlbəyliyə məxsusdur. Natik Muxtarovun rejissorluğu ilə ərsəyə gələn layihənin koordinatoru Zaur Darabzadədir.

Bu layihə “Azərİpək” MMC-nin dəstəyi ilə “Dəyər Ver” tərəfindən həyata keçirilib. Layihə üç dildə - Azərbaycan, rus və ingilis dilində hazırlanıb.

Xatırladaq ki, Xurşidbanu Natəvan 15 avqust 1832-ci ildə Şuşada anadan olub. O, Azərbaycan mədəniyyətinin, incəsənətinin beşiyi hesab edilən Şuşada yaşayıb.

Heç bir şübhə yoxdur ki, yaxın zamanda vətənimizin ayrılmaz hissəsi olan Qarabağ işğaldan azad olunacaq və Natavana həsr edilmiş bu kompozisiya Azərbaycanın əzəli və əbədi torpağı olan Şuşada səslənəcək.

# Qara tut haqqında bilmədikləriniz



***Qara tut 2-3 sm uzunluğunda yumşaq və dadlı meyvədir. O hündür tut ağacının dadlı və ətirli giləmeyvəsidir. Qara tut ağacının meyvələri tünd bənövşəyi, tünd qırmızı və ya qara-qırmızı rənglərdə olur. Qara tut meyvələri sulu və dadlı olur və hər il yetişir. Tam böyümüş tut ağacından il ərzində 200 kiloqrama qədər meyvə tollamaq mümkündür. Tut meyvəsi iyun ayının ortalarından yetişməyə başlayır və vaxtında toplanmadıqda tökülür.***

Tutun elmə 16 növü məlumdur. O Asiya, Afrika, Şimali Amerika, Bolqariya, Rumıniya, Rusiya və Ukraynada geniş yayılmışdır. MDB ölkələri arasında tut ən çox Azərbaycanda bitir. Qara tut isə ən çox Azərbaycan və Çində yetişir. Qara tutun 4000 ilə yaxın yaşı vardır. Bu giləmeyvə barədə Bibliyada da yazılara rast gəlmək mümkündür. Qara tut tez yetişən və tez xarab olan meyvələrdəndir. Onu əsasən yığan kimi yemək lazımdır. Zədəsiz halda yığılan qara tutu polietilen paketdə 3 gün saxlamaq mümkündür. Qara tutu uzun müddətli saxlamaq istədikdə isə onu qurudub saxlamaq lazımdır. Bunun üçün tut meyvələrini isti havalarda 1-2 həftə qurutmaq, sonra isə xüsusi sobada 30-40*C-də bir müddət saxlamaq lazımdır. Bəzi insanlar tutu dondurucuda da bir müddət saxlayırlar.

Qara tut (Lat.Morus)nın Tərkibi

100 qram tutda olan qida dəyəri:

- Zülallar - 0,7 qr
- Yağlar - 0,4 qr
- Karbohiodratlar - 1,8 qr
- Su - 82,6 qr
- Kalori - 50,5 kKal.

Qara tut (Lat.Morus) Xeyri

Qara tutun tərkibi A, B1, B2, B6, E, C, K vitaminləri, dəmir, marqnes, sink, selen mikroelementləri, kalsium, nartium, maqnium, fosfor makroelementləri ilə zəngindir. Hipokaliemiya zamanı qara tut yeməyin faydası çoxdur. Buna görə də həkimlər orqanizmdə kalium mübadiləsinin pozulmaları zaman xəstələrə qara tutdan hazırlanmış ekstrakt təyin edirlər.

Qara tutdan ürək xəstəlikləri(miokardiodistrofiya, müxtəlif dərəcəli ürək qüsurları və s.) və böyrək xəstəlikləri səbəbindən əmələ gələn xroniki şişkinliklər zamanı istifadə edirlər. Qara tutun tərkibində olan kalium bu xəstəliklərin əmələ gətirdiyi əlamətlərin aradan qalxmasına səbəb olur.

Davamlı olaraq qara tut yemək təngnəfəsliyin aradan qalxmasına səbəb olur, ürəkdə baş verən ağrıların azalmasına və ürək ritmlərinin normallaşmasına səbəb olur.

Maddələr mübadiləsi pozğunluqları və qanazlığı zamanı da qara tut yemək faydalıdır. Onun faydasını görmək üçün ən azı iki həftə müəyyən miqdarda tut yemək lazımdır.

Qara tut mədə-bağırsaq sisteminin işinə də təsir edir. Qara tutu kal halda yedikdə ishalın kəsilməsinə səbəb olur. Tam yetişmiş tut isə bağırsaqları yumşaldır. Qəbizlik zamanı dəymiş tut, ishal zamanı isə kal tut yemək əlamətlərin aradan qalxmasına səbəb olur.

Prostatit əlamətlərini aradan qaldırmaq və kişi gücünü bərpa eləmək üçün qara tut yemək lazımdır. Bunun üçün 1 kq qara tutun üzərinə 200 qram bal əlavə edilib bir-neçə gün soyuducuda saxlamaq və yatmazdan əvvəl 1 xörək qaşığı yemək lazımdır.

Qara tutun bakteriasid və antiseptik xüsusiyyəti var. Onun şirəsi ilə ağız boşluğu və boğazı qarqara eləmək iltihabın və ağrıların azalmasına səbəb olur. Qara tutun(2 xörək qaşığı) üzərinə qaynar su(200 ml)töküb 4 saat saxladıqdan sonra içmək və ya onunla ağız boşluğunu yaxalamaq boğaz ağrılarının azalmasına səbəb olur. Əsəb gərginliyi, yorğunluq, yuxusuzluq zamanı qara tut dəmləməsinin faydası çox böyükdür. Bunun üçün 1 kq qara tutu 500 ml suda zəif odun üzərində 30 dəqiqə qaynatmaq lazımdır. Bu zaman rəngli maddə alınır. Soyuduqdan sonra bu maddənin üzərinə 300 qram bal əlavə edib yenidən 80*C-ə qədər qızdırmaq və qarışımdan gündə 1 çay qaşığı olmaqla 3 dəfə içmək lazımdır.

Kulinariyada qara tutdan desertlər, piroqlar, mürəbbələr, kompotlar, kisellər, şərbətlər, bulkalar hazırlanır.

Qara tut (Lat.Morus)nın Ziyanı

Həddindən çox qara tut yemək ishala səbəb ola bilir. Yüksək təzyiqli xəstələrə, şəkərli diabet xəstələrinə çoxlu miqdarda qara tut yemək olmaz.

# Kartofun bilmədiyiniz faydaları

***Kartof kökündən istifadə edilən bitki fəsiləsinə aid olub, ən vacib qida vasitələrindən biri hesab edilir.***



Kartof bitkisinin yarpaqları tünd yaşıl, çiçəklərinin rəngi ağ, bənövşəyi və ya çəhrayı rəngdə ola bilir. Kartof bitkisinin gövdəsinin torpağa bitişdiyi yerdən onun kökləri olur. Köklərin ucunda isə kartofun yeyilən hissəsi əmələ gəlməyə başlayır. Kartofun tərkibinin əsas hissəsini nişasta və liflər təşkil edir. Bu tərəvəzi növündən asılı olaraq yay və payız aylarında toplayırlar. Kartofun vətəni Cənubi Amerikadır, orada kartof yabanı halda yetişir.

Kartofnın Tərkibi

Kartofun tərkibi karbohidratlarla zəngindir. Ondan çoxlu istifadə eləmək piylənməyə səbəb ola bilir.

100 qram kartofun qida dəyərliliyi:

- Zülallar - 2 qram.
- Yağlar - 0,4 qram.
- Karbohidratlar - 16,3 qram.
- Su - 78,8 qram.
- Kalori dəyəri - 80 kKal.

Kartofun tərkibində olan zülallarda demək olar ki, bütün amin turşuları var. Bu amin turşular arasında əvəzolunmaz amin turşularına da rast gəlmək mümkündür. Gün ərzində 300 qram kartof yemək orqanizmin karbohidratlara, fosfora və kaliuma olan bütün ehtiyacını ödəyir. 100 qram kartofun tərkibində 20 qram C vitamini var. Amma C vitaminin miqdarı kartofun saxlanılma qaydasında asılı olaraq dəyişə bilir. Belə ki, dərilmiş kartofu uzun müddət saxladıqda onun tərkibindəki C vitamininin miqdarı aşağı düşür.

Kartofun tərkibindəki liflər mədə və bağırsaqları qıcıqlandırmır. Onu qastrit xəstələri belə yeyəndə mədə-bağırsaqda narahatçılıq meydana gəlmir. Kartofun tərkibində olan nişasta qaraciyər və qanda olan xolesterinin miqdarını aşağı salır. Kartofun tərkibində olan kalium orqanizmdən artıq mayenin çıxmasını sürətləndirir. Ondan böyrək xəstələri və çoxlu maye qəbul edənlər istifadə edə bilərlər. Kartof damarlara antikslerotik təsir edir. Bu xüsusiyyətinə görə ürək-damar və böyrək xəstələri qida rasionunda daima kartofdan istifadə etməlidirlər. Kartofyumurta dietası isə xroniki böyrək çatışmazlığından əziyyət çəkənlər üçün ideal vasitə sayılır.

Spirtli içki qəbul edən zaman kartof yedikdə səhəri gün ikçi qəbulunun yaratdığı əlamətlər hiss olunmur. Kartofun tərkibində olan fol turşusu, kalsium duzları, maqnium, fosfor, B qrup vitaminləri və PP vitamini orqanizm üçün çox faydalıdır.

Kartofnın Xeyri

Kartofun kalori dəyəri digər tərəvəz məhsullarınından qatqat artıqdır. Onda olan zülalların tərkibi heyvani zülalların tərkibinə daha yaxındır. Kartofun tərkibində olan amin turşuları orqanizm tərəfindən asan sorulur. Bu səbəbdən də davamlı olaraq qiddasında kartof olan adamlar podaqra və bu kimi xəstəliklərdən az əziyyət çəkir. Kartofun ən yaxşı xüsusiyyətlərindın biri də onun xərçəng əleyhinə təsir göstərməsidir. Kartof şirəsi artrit xəstələri üçün ideal müalicə vasitəsidir. Bu şirə mədə yarasının və varikoz genəlmənin sağalmasını sürətləndirir. Kartof şirəsi yaraların sağalmasını da sürətləndirmək qabiliyyətinə malikdir. Mütəxəssislər hər səhər acqarına və ya yatmazdan əvvəl duzsuz və suda bişmiş kartof yeməyin orqanizm üçün çox faydalı olduğunu söyləyirlər. Kartof aclığı aradan qaldıra bilən tərəvəzlərdəndir. Buna səbəb isə onun tərkibində olan zülalların və karbohidratların olmasıdır.

Xalq təbabətində kartofdan yaraların, yanıqların, müxtəlif dəri xəstəliklərinin sağalmasında istifadə edirlər. Kartof şirəsi arterial təzyiqi aşağı salır, təngnəfəsliyi aradan qaldırır. Çiy kartofun şirəsini içmək orqanizmin illərlə yığılıb qalmış şlaklardan azad olmasına səbəb olur.

Kartofnın Ziyanı

Kartof orqanizm üçün təhlükəli ola bilir. Bu gün düşən yerlərdə kartofu saxlayan zaman olur. Belə ki, günəş şüaları üşdükdə kartofun üstündə solanin adlanan zəhərli maddə əmələ gəlir. Solanin orqanizmə daxil olduqda dərinin rəngi bozarmağa başlayır və xəstə qısa müddət ərzində ölür. Kartofda solaninin olub olmamasını asanlıqla təyin etmək mümkündür. Əgər kartofu soyan zaman onda yaşıl hissə aşkarlanırsa bu o deməkdir ki, həmin kartofun tərkibində solanin var. Şəkərli diabetdən və piylənmədən əziyyət çəkən xəstələr üçün də kartofdan istifadə etmək tövsiyə edilmir.

# Depressiyadan xilas yolu tapıldı - ARAŞDIRMA

***Bitki mənşəli resveratrol depressiya və narahatlığı azaltmaq potensialına malikdir.***



"Unikal" aztibb.az-a istinadən bildirir ki, elm adamları tədqiqat zamanı resveratrolun stresin zərərli təsirlərini necə kompensasiya edə biləcəyini və bu müddətdə hansı mexanizmlərin iştirak etdiyini araşdırıb.

Genetik cəhətdən dəyişdirilmiş siçanlar üzərində test aparılıb. Kortizolun gəmirici ekvivalenti olan kortikosteronun daha yüksək səviyyələrinin hüceyrə ziyanına və PDE4 fermentlər ailəsinin üzvü olan PDE4D səviyyələrinin artmasına, siklik adenozin monofosfatın səviyyələrini aşağı saldığına şahid olublar.

Resveratrol isə PDE4D artımını bərpa edib. Bundan əlavə, hüceyrə ziyanını və adenozin monofosfatın parçalanmasını azaldıb. Resveratrolun nöroprotektiv təsirini nəzərə alaraq, tədqiqatçılar bunun depressiya və narahatlıq xəstəliklərinin müalicəsi üçün digər dərmanlara təsirli bir alternativ ola biləcəyini iddia edib.

Daha bir tədqiqat da aparılıb. Resveratrol dozası alan siçanlar sınaqdan keçirildikdən sonra oxşar nəticələr əldə edilib.

Tədqiqatçılar depressiyanın göstəriciləri olan dopamin və serotonin səviyyələrində artım müşahidə edib. Antidepresan təsiri olan amin turşusu nöropeptid Y-nin miqdarı da artıb.

Resveratrolun insanlarda təsirlərini anlamaq üçün əlavə araşdırmalara ehtiyac olduğu bildirilib.

# İdmançılar karantindən azad ediləcək - Yay Olimpiya Oyunları üçün

***Yaponiya hökuməti Tokioda keçiriləcək Yay Olimpiya Oyunları üçün ölkəyə gələn idmançıları iki həftəlik karantindən azad etmək niyyətindədir.***

"Unikal" qəzeti xəbər verir ki, hazırda ölkə rəhbərliyi bu variant üzərində işləyir.

NHK telekanalının yaydığı məlumata görə, yaponiyalı məmurlar hesab edirlər ki, koronavirusun yayılmasına qarşı tətbiq olunan təcridetmə idmançıların emosional və fiziki durumlarına mənfi təsir göstərəcək.

Hökumət idmançılara, məşqçilərə, hakimlərə və birbaşa oyunlarla əlaqəli olan digər şəxslərə Olimpiya Kəndinin hüdudlarını tərk etməmələri tövsiyəsini nəzərdə tutan qaydaları müəyyənləşdirmək istəyir.

Koronavirusa qarşı tədbirlər üzrə "Tokio-2020" və hökumət rəsmilərindən ibarət İşçi Qrupun ilk iclası bu gün olacaq. İclas sərhəd nəzarəti antivirus profilaktikası və yoluxma hallarına qarşı tədbirlərə həsr ediləcək. Bundan başqa komissiya idmançılar və rəsmi şəxslərin yarışlar zamanı izlənilməsi üçün yeni mobil tətbiqin mümkünlüyünü nəzərdən keçirəcək.



Oyunlar dövründə gəliş-gediş üçün isə əsas tələb mənfi koronavirus testinin mövcudluğu olacaq. Yaponiya tərəfi məsləhətləşmələrin gedişində idmançılar üçün olimpiada öncəsi bilavasitə təlim-məşq toplanışlarının keçirilmə qaydalarını işləyib-hazırlamalıdır. Gündəlikdəki digər mövzular infeksiya hallarının artacağı təqdirdə, xəstəxanalar üçün lazımı sayda çarpayıların təmin olunması və atletlərin idman obyeklərində sağlamlıq durumlarının yoxlanılması üçün yerlərin təşkilidir.

Güman edilir ki, komissiya stadionlarda azarkeş sayının azaldılma variantını da müzakirəyə çıxara bilər. Lakin, bu, pandemiyada enişin baş verməyəcəyi təqdirdə olacaq.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunları 23 - 8 avqust 2021-ci ilə təxirə salınıb. Lakin Oyunlar üçün "Tokio-2020" adı saxlanılıb.

# Latviyada yaşayan həmyerlimiz dünya çempionu oldu

***Avqustun 29-da Latviyanın paytaxtı Riqa şəhərində tay boksu üzrə Beynəlxalq Federasiyanın (WKN) LNK Fight Night 16 şousu çərçivəsində keçirdiyi dünya çempionatında həmyerlimiz Zaur Cavadov qalib gəlib.***

"Unikal" qəzetinin məlumata görə, studio 69 klubunun arenasında baş tutan həlledici döyüşdə Azərbaycan əsilli Latviya kikboksçusu Zaur Cavadov Slovakiyanın WKN üzrə çempionu Sebastyan Fapso ilə qarşılaşıb. O, rəqibinin üzərində qələbə qazanaraq, dünya çempionu tituluna layiq görülüb. Bununla da Zaur döyüş siyahısına 39-cu qələbənin yazılmasına nail olub ki, bunların da 14-ü ardıcıl olaraq qazanılıb.



Qeyd edək ki, Zaur Nurbaba oğlu Cavadov 21 dekabr 1986-cı ildə Latviyanın Riqa şəhərində dünyaya gəlib. 4 yaşından idmanın karate növünə yönəldilib. 2005-ci ildən etibarən peşəkarcasına kikboksinqlə məşğul olaraq, dəfələrlə bu idman növünün WAKO K-1, WKA K-1 və digər versiyaları üzrə Latviya, Litva, Polşa və Avropa çempionu titullarını qazanıb. 2017-ci ildə "Arena Riqa"da "KOK World Grand Prix in Riga 2017" döyüş şousu zamanı Moldovadan olan rəqibi Sergey Morari ilə qarşılaşıb. Həmyerlimiz ona nokautla qalib gələrək, dünya çempionu titulunu əlindən alıb.

# "Barselona" prezidenti korrupsiyada ittiham edilir

***İspaniyanın "Barselona" futbol klubunun prezidenti Hosep Bartomeu korrupsiyada ittiham olunur.***

"Unikal" qəzeti TASS-a istinadən xəbər verir ki, bu barədə "El Mundo" nəşri məlumat verib.

Bildirilir ki, H.Bartomeunun klub adına edilən əməliyyatlardan şəxsi maliyyə mənfəəti aldığı iddia edilir. Mənbənin verdiyi məlumata görə, bu, aralarında, məsələn, Lionel Messi və Jerar Pike olmaqla, fk prezidentinin rəqiblərinə qarşı geniş miqyaslı kiberhücumlarla bağlıdır. Daha əvvəl "Kadena SER" radiostansiyası klubun özünün kiberhücumun sifarişçisi olduğunu bildirib. Ayrıca kataloniyalı komandasının keçmiş oyunçuları Xavi, Karles Puyol və Hosep Quardiolanın belə hücumların qurbanları ola biləcəyi iddia edilib.

Prokurorluq H.Bartomeunu xidmətə bazar dəyərini altı dəfə üstələyən maddi vəsait ödəməsində günahlandırır. Klub hücumlarda iştirakını rədd edir.

"Barselona" prezidenti 58 yaşındadır və 2014-cü ildən bu klubun prezidentidir. Daha əvvəl rəhbərliklə fikir ayrılıqlarına görə komandadan ayrılmaq niyyətində olan komanda kapitanı Lionel Messi Bartomeunu istefa verməyə çağırıb. H.Bartomeu isə L.Messi klubla müqaviləsini yeniliyəcəyi təqdirdə vəzifəsindən getməyə hazır olduğunu bildirib.



# Velosipedçilərimizdən biabırçı nəticə

***Şose velosipedi üzrə Azərbaycan yığmasının beynəlxalq yarışlara qayıdışı reallaşıb.***

"Unikal" qəzetinin məlumatına görə, idmançılarımız Türkiyədə təşkil olunan Develi Qran-Prisində qüvvəsini sınayıb.

1.2 kateqoriyalı yarışa baş məşqçi Əbülfəz Məmmədovun rəhbərliyi altında qatılan yığmamız uğursuzluqla üzləşib. Təmsilçilərimizdən yalnız Musa Mikayılzadə 121,5 km məsafəni qət edə bilib. Qalibdən 20 dəqiqə 2 saniyə geri qalan idmançımız 15-ci yeri tutub.

Samir Cəbrayılov, Şahin Eyvazov, Nəcəf Bağırov və Mahmud Məmmədov yarıyolda qalaraq finişə çatmayıb. Elçin Əsədov isə diskvalifikasiya edilib.

# Almaniya millisinin sabiq futbolçusu Türkiyə klubunda

***Almaniya milli komandasının sabiq futbolçusu Sidney Sam karyerasını Türkiyədə davam etdirəcək.***

"Unikal" qəzetinin məlumatına görə, 32 yaşlı yarımmüdafiəçi "Antalyaspor" klubuna transfer olunub. Bu barədə Super Liqa təmsilçisinin mətbuat xidməti məlumat yayıb. Sidneylə bir illik müqavilə imzalanıb.

Karyerası ərzində "Bohum", "Şalke", "Hamburq", "Bayer" kimi klublarda çıxış edən yarımmüdafiəçi, Almaniya yığmasında da 5 oyuna 1 qol vurub.

Yarımmüdafiəçi son olaraq Avstriyanın "Altax" klubunda forma geyinib.

# Milli komandaların oyunlarında 36 şübhəli matç!

***Futbol üzrə milli komandaların oyunlarında 2020-ci ildə 36 şübhəli matç qeydə alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə "The Times" nəşri məlumat yayıb. İstintaq bukmeker kontorlarındakı mərclərin dinamikası əsasında aparılıb.

Xəbərdə, potensial qayda pozuntuları da qeyd olunub. Oyunçuların buraxdıqları qol sayına, hakimlərin isə sarı vərəqə sayına görə rüşvət aldıqları bildirilir.

Milli komandaların şübhəli oyunları iki il ərzində iki dəfədən çox artıb.

# UEFA Azərbaycan klublarına ödəniş etdi

***Avropa Liqası turnirinin seçmə mərhələsində çıxış edən klublar üçün UEFA tərəfindən ayrılmış müvafiq vəsait AFFA-nın vasitəçiliyi ilə klubların hesabına köçürülüb.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə AFFA-nın mətbuat xidməti məlumat yayıb. Avroliqada iştirak edən "Neftçi", "Keşlə" və "Sumqayıt"a 240 min avro ödənilib.

"Neftçi" - 240 000 avro
"Keşlə" - 240 000 avro
"Sumqayıt" - 240 000 avro

"Keşlə" və "Sumqayıt" Avroliqada mübarizəni 1-ci təsnifat mərhələsində dayandırıb. "Neftçi" isə 2-ci təsnifat mərhələsində "Qalatasaray"la qarşılaşacaq.

Qeyd: "Keşlə" klubu üçün ayrılmış maliyyə vəsaiti mövsümün birinci və ikinci yarısı nəzərdə tutulmaqla klubun cari xərclərinin ödənilməsinə yönəldiləcək.

# Futbolçunun arvadının qərarı etirazlara səbəb oldu

***Çinin "Quanqzu RF" klubunda çıxış edən Duşko Toşiçin müğənni həyat yoldaşı Jelena Karleusa müzakirələrə səbəb olan qərar verib.***

"Unikal" qəzeti xarici KİV-ə istinadən xəbər verir ki, 42 yaşlı serb müğənni koronavirus pandemiyası dövründə konsert vermək qərarına gəlib. Serbiya mətbuatının məlumatına görə, 16 sentyabrda Belqradda keçiriləcək konsertə məhdud sayda tamaşaçı buraxılacaq və ciddi təhlükəsizlik tədbirləri görüləcək.

Karleusanın bu qərarı etirazlara səbəb olub.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# Gülay Kamillə ayrılması haqda: "Alnımıza yazılan qismətdir"



***Müğənni Gülay Zeynallı idmançı həyat yoldaşı Kamil Zeynallı ilə boşanma xəbərlərindən bəhs edib.***

"10-da görüşək" proqramında sənətçiyə mediada haqqında yazılanlar soruşulub. Gülay ayrılığını üstüörtülü təsdiqləyib:

"Özümü şou-biznesdə yox, incəsənətdə görürəm. Birini hər kəs sevə bilməz. Hər kəs reytinq istəyir. Bu jurnalistlərin işidir. Hər şeyin həddi var. Haqqımda yazılmalıdır, tanınmışam. Nəyisə yazanda, düşünülməlidir ki, tək deyil, ailəsi var. Yaşadıqlarımız istəyib-istədiklərimizdən deyil, alnımıza yazılan qismətdir.

Gedirəm ayağım büdrəyir. Deyirəm ki, şükür, yaşamalıyam. Yazılanda pis oluram, günlərlə İnstaqrama girmirəm. Özümə görə yox, artıq bərkimişəm. Amma elə şeylər yazılır ki, ailəm pis olur".

# Zaurdan Əməkdar artistlə bağlı etiraf: "Cibimə 500 dollar qoydu"

***Aparıcı Zaur Baxşəliyev Əməkdar artist Baloğlan Əşrəfovla bağlı etiraf edib.***

Axşam.az xəbər verir ki, aparıcı bir vaxtlar keçirdiyi ağır günləri xatırlayıb. O bildirib ki, həmin vaxt ona müğənni yardım edib:

"2008-ci ildə burdan getdim. Türkiyəyə köçdüm və orada işə düzəlmişdim. Vəziyyətim çox çətin idi. Baloğlan Əşrəfov mənə zəng vurdu ki görüşək. Getdim qaldığı oteldə görüşdüm. Evə gələndə paltomun cibinə baxdım ki, 500 dollar var. Mənə demədən etmişdi ki, birdən lazımı olar. Heç xəbərim olmamışdı ki, cibimə o pulu necə qoyub".



# "Standartlar "yevropeyskidi" e, maaşlar "afrikanski"" – Taleh Yüzbəyov

***Aktyor Taleh Yüzbəyovun sosial şəbəkələrdə paylaşdığı fikirlər gündəm olub.***

Unikal.org xəbər verir ki, həmin statusda aktyor xalqın ziyanına fikir səsləndirən məmurları sərt tənqid edib. "190 manat kartdan çıxarılmayıb, bloklayaq, 1 ayda 300 dollardan artıq məhsul sifariş etməyə icazə verməyək, taksidən hamı istifadə edə bilməsin" deyən məmurlar ya Azərbaycanda böyüməyib, ya da heç vaxt kasıb olmayıblar. Çörək növbəsində dayanan, hər gün makaron yeyən, Yupini 3 litrlik balona qatıb içən, butulka satıb top alan uşaqlar böyüyüb belə məmur ola bilməz. Əgər olubsa, vicdanında nəsə "error" baş verib. Bir söz deyəndə də Avropa standartlarını misal gətirirlər. Quzu kəsim, standartlar "yevropeyskidi" e, maaşlar "afrikanskidi". Xalqa yaxın olun", - deyə aktyor bildirib.

# "Qadın xəyanəti bilməsə yaxşıdır" - Gülüstan Əliyeva



***"Karantin başlayanda imkan daxilində əl tutdum. Niyə də olmasın? Çox insanlar oldu ki, kömək istədi. Sevmirəm bunları açıq danışmağı. Bilinməyəndə daha yaxşıdır, Allaha xoş gedir. Hədsiz kömək istəyənlər var, yazırlar. Axırda dedim ki, müğənniyəm, iş adamı deyiləm. Mənim də bir limitim var. İstəyərəm bütün dünyaya yardım edim, amma...".***

Bu sözləri Əməkdar artist Gülüstan Əliyeva "Ulduzun vaxtı" proqramında deyib. Müğənni karantin günlərində etdiyi yardımlardan bəhs edib.

G.Əliyeva xəyanətdən söz açıb. O bildirib ki, qadın xəyanəti bağışlamalıdır: "Xəyanət heç bir halda bağışlanmamalıdır. Qadın bilməsə, daha yaxşıdır. Heç bir insan müqəddəs deyil. Bəzən isə müqəddəs yalan danışırsan, kiminsə həyatını xilas edirsən. Xəyanəti heç bir halda bağışlamıram. Bu haqda eşitmək belə istəmirəm.

Ailə münasibətlərində ısı güzəştsiz mümkün deyil. Hamımızın günahları, səhvləri var. Ola bilər sən onu bağışlayasan, amma qarşındakı olduğu yerini, dəyərini itirir. Qadın övladı üçün yoldaşının xəyanətini bağışlayır".

# "Mərdəkanda böyük bağı var" - Aparıcı əməkdar artisti əsəbiləşdirdi



***"Karantin ərəfəsində nəvələrimdən xəbərim olmadı. Bir-birimizi görməyə gedib-gəlmirik".***

"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Rühəngiz Allahverdiyeva "Hər səhər" verilişində deyib. Karantin günlərindən danışan müğənni günlərini evdə oturaraq keçirdiyini bildirib.

Hər zaman balaca evi olmasından şikayətlənən R.Allahverdiyeva aparıcının "Bir evi Xətai metrostansiyası tərəfdədir, biri də içəri küçədə. Düzdür evi balacadır, içəridə ancaq paltarlarıdır. Mərdəkana girəndə Ağadadaş Ağayevlə bir böyük həyətiniz var. O vaxt Ağadadaş Ağayev dedi ki, sat mənə satmadın" sözlərinə əsəbiləşib.

"Yaşıllıq hamımızın borcudur, amma mənim deyil. Allah hamını varlı etsin. Həqiqi, riyakar olmayan dostu olandır varlı" deyərək, cavab verib.

# "Gələn öz mənafeyini güdəcək" – Zenfira İbrahimova

***Müğənni Zenfira İbrahimovanın "Instagram" hesabındakı sonuncu paylaşımı diqqət çəkib.***

Unikal.org xəbər verir ki, müğənni paylaşdığı fotosunda heç kimə güvənməməyi məsləhət görüb. "Bu dünyada özündən başqa kimsəyə güvənmə, etibar etmə. Hərçənd ki, gələn öz mənafeyini güdəcək", - deyə Z.İbrahimova paylaşımını şərh edib.

